Rizvan Bayramov

# XI-XVIII ƏSRLƏR AZƏRBAYCAN MEMARLIQ ABİDƏLƏRİNİN TİPOLOJİ TƏSNİFATI

Bakı – 2013

AZƏRBAYCAN RESPUBLİKASININ MEMARLAR İTTİFAQI

Layihənin rəhbəri: Elbay Qasımzadə

Bayramov R. **XI-XVIII əsrlər Azərbaycan memarlıq abidələrinin tipoloji təsnifatı.**
Bakı, **"Şərq-Qərb"** Nəşriyyat Evi, 2013, 136 səh., şəkilli.

**ISBN** 978-9952-32-020-6
978-9952-32-041-1

© Azərbaycan Respublikasının Memarlar İttifaqı, 2013
© "Şərq-Qərb" Nəşriyyat Evi, 2013

# GİRİŞ

Orta əsrə aid tarixi mənbələr Azərbaycanda orta əsrlərdə bina və tikililərin kifayət qədər zəngin funksional müxtəlifliyə malik olduğunu sübut edir. Şəhərlər, yaşayış məntəqələri, karvan yolları boyunca saraylar, dəyirmanlar, eyvanlar, mədrəsələr, məscidlər, iqamətgahlar (daru-l-mülk), hökumət binaları (dövlətxanalar), xanəgahlar, körpülər, hovuzlar, hospitallar, açıq və qapalı su anbarları, karvansaralar, hamamlar, ticarət mərkəzləri və dükanları, bəndlər, kanallar, ictimai iaşə binaları, kitabxanalar, məqbərələr, rəsədxanalar, qanun evləri (beytü-l-qanun), məktəblər və universitetlər, idman kompleksləri və bir çox digər tikililərə rast gəlmək olardı. XVII əsr türk səyyahı Övliya Çələbi bunlarla yanaşı, divanxana binaları, Quranın oxunması üçün evlər, bulaqlar, saraylar (imarətlər), qəhvəxanalar və mehmanxanaların (bedestanlar və xanlar) mövcud olduğunu göstərir [1]. Sadalanan müxtəlifliklərin həqiqiliyi qorunub saxlanmış arxitektura abidələri ilə təsdiq edilir.

Göstərilən bina və tikililər müxtəlif funksional məqsədlər üçün xidmət göstərmişdir, onlar öz təyinatına uyğun olaraq, müxtəlif həcmi-fəza kompozisiyalar və strukturlarda həyata keçirilirdi. Bununla belə, bina və tikililərin tipoloji müxtəlifliyi orta əsrlərdə arxitektura təcrübəsinin zənginliyini, onun Azərbaycanda çoxtərəfliliyini və çoxcəhətliliyini sübut edir. Bu baxımdan, hazırkı arxitekturanın inkişaf etdiyi əsaslar, nəzəri prinsiplərin aşkar edilməsi xüsusi maraq doğurur.

Orta əsrlər dövründə memarlıq təcrübəsinin və elmin qarşılıqlı əlaqəsinin aşkar edilməsinə ümumi metodoloji mövqedən tam olaraq bəraət qazandırılmışdır. Bu, nəzəriyyə ilə təcrübə arasında bu və ya digər əlaqənin dəyişilməz mövcudluğu ilə müəyyən edilir. Əslində, insanın nəzəri və təcrübi fəaliyyətinin dərin dialektik vəhdəti bunda özünü büruzə verir.

Orta Asiya və Azərbaycanın memarlığı üzrə mövcud olan tədqiqatlar orta əsrlərdə şərqdə inkişaf etmiş memarlıq nəzəriyyəsinin mövcud olmasını və onun memarlıq təcrübəsi ilə qarşılıqlı əlaqəsini sübut edir. M.S. Bulatovun "IX–XV əsrlər Orta Asiya memarlığında həndəsi ahəngdarlıq" adlı monoqrafiyasında memarlıq nəzəriyyəsi və təcrübəsində uyğunluqlar haqqında elmin mövcudluğu əsaslı şəkildə göstərilmişdir [2]. Memarlıq nəzəriyyəsi məsələləri İbn Sina [3] və Əl-Fərabinin [4] əsərlərində nəzərdən keçirilir. Əl-Fərabi öz əsərlərində ərəbdilli ədəbiyyatda ilk dəfə olaraq arxitektur layihələndirməni elmi fənn kimi müəyyən edir və elmlərin təsnifatı zamanı onu həndəsi quruluşlarla bağlı tətbiqi elmlərə

aid edir [4, s.57]. Həndəsi quruluşlara həsr edilmiş orta əsr əsərləri arasında Əbu-l-Vəfa əl-Buzcaninin "Həndəsi quruluşlardan nəyin zəruri olması barədə kitab"ını qeyd etmək lazımdır [5].

Azərbaycan ərazisində orta əsr tikililərinin müxtəlifliyi bu fenomenin arxitektura haqqında nəzəriyyələrdə əks olunub-olunmaması, memarlıq tikililərində təsnifatın aparılması ilə bağlı sual doğurur.

Məlumdur ki, Şərqdə ümumi təsnifat nəzəriyyəsi kifayət qədər dərindən və ətraflı işlənib-hazırlanmışdır. Əl-Fərabinin L.Y. Mankovskayanın monoqrafiyasında [6] müfəssəl şəkildə nəzərdən keçirilən təsnifat prinsipi, eləcə də Əl-Kindi və İbn Sinanın təsnifat haqqında olan əsərləri bunu sübut edir.

Əl-Kindi, Əl-Fərabi, İbn Sinanın orijinal təsnifat ənənələrinin qorunub-saxlanmasında Azərbaycan alimi, filosof Bəhmənyar böyük rol oynamışdır. O, xüsusilə, "cins" və "növ" anlayışlarını nəzərdən keçirərək, qeyd edir: "Cins, "nə?" sualına cavab verən, görünüşünə görə fərqlənən çoxlu əşyalar barəsində deyilir" [7, səh.32]. Bəhmənyarın fikrincə, növ – "cinsin digər universal mülahizələrlə yanaşı olaraq, ilkin və mahiyyətli şəkildə ifadə edildiyi universal mülahizədir" [7, səh.33-34], burada yüksələn xətt üzrə hərəkət "cinslərin cinsi" adlanan, heç bir digər cinsə bərabər olmayan cinslə başa çatır, azalan xətt üzrə hərəkət isə heç bir digər növün tabe olmadığı növlə tamamlanır və bu, "növlərin növü" adlanır. Bu cür tərif cins daxilində sadə növü, cins daxilində tipi və tip daxilində növ müxtəlifliyini, müxtəlif cinslərin fərqləndirici sərhədlərini müəyyən etməyə yardım edir.

Yaxın və Orta Şərq ölkələrinin memarlıq irsinə dair orta əsr alimlərinin əsərləri və XX əsrin ikinci yarısında aparılmış tədqiqatlar bütövlükdə qeyd edilən bölgədə orta əsrlər dövründə memarlıq elminin mövcud olmasını inandırıcı şəkildə sübut edir. Əl-Fərabi, Bəhmənyar və digərlərinin əsərlərində hərtərəfli işlənib-hazırlanmış ümumi təsnifat nəzəriyyəsinin mövcud olması təsnifata dair məsələyə memarlıq elmində də toxunulduğunu zənn etməyə imkan verir.

XX əsrin son iki onilliyində memarlıq irsinin öyrənilməsi zamanı formalaşma və memarlıq tipologiyası məsələlərinə böyük diqqət ayrılır. L.S. Bretanitski, M.S.Bulatov, C.A.Qiyasi, L.Y.Mankovskaya, V.Q. Muradov, Q.A. Puqaçenkova, L.İ. Rempel, A.V. Salamzadə, M.A. Useynov, Ş. Fətullayev öz əsərlərində bu məsələləri nəzərdən keçirmişlər və tədqiq etmişlər. Müasir memarlıqda obrazlılığın əsas problemlərdən biri olduğu dövrdə göstərilən məsələlərin bu cür tədqiqi, yerli-regional və milli xüsusiyyətlərin axtarılması daha da aktual oldu.

Tipologiyanın öyrənilməsində vacib mərhələlərdən biri tipoloji təsnifatlandırma və onun qrafik təsviri, daha doğrusu, onun cədvəl şəklində əks etdirilməsidir. Təsnifatlandırma zamanı sistemli-struktur təhlil tipləri vaxtilə mövcud olmuş müxtəlifliyini, onların unikallığını və

bunlarla bərabər, onlar arasında müəyyən əlaqəni təyin etməyə imkan verir, hər bir memarlıq üslubunun səciyyəvi xüsusiyyətlərinin aydınlaşdırılmasına kömək edir, onun təşəkkül prosesini (genetik mənbələrini və təkamülünü) üzə çıxarır. Bu məsələlərin nəzərdən keçirilməsi Azərbaycanın memarlıq tarixini həmsərhəd ölkələrlə birlikdə öyrənməyə imkan verəcək, onun özünəməxsus xüsusiyyətini və müsəlman ölkələrinin memarlığının ümumi inkişaf axınında yerini müəyyən etməyə kömək edəcək.

# I FƏSİL

# MÖVZUNUN ÖYRƏNİLMƏSİ VƏ TƏDQİQAT METODİKASI

## § 1. Tədqiqatın mövzusunun öyrənilməsi

Tədqiq edilən problemin vəziyyətinin öyrənilməsi, onun işlənib-hazırlanma səviyyəsi elmi işin ilk mərhələlərindən biridir. Tədqiqat prosesi problemin bu və ya digər aspektinin hansı səviyyədə həll olunduğunu, həmin həllin düzgünlüyünü müəyyən etməyə, yaranmış nəzəri mövqeləri, onların öyrənilməsini və s. üzə çıxarmağa kömək edir.

Azərbaycanın, bütün Yaxın Şərqin memarlığında tipoloji təsnifatın öyrənilməsi zərurəti hələ L.S.Bretanitski tərəfindən qeyd edilmişdir [8].

Material M.A.Useynov, A.V.Salamzadə, L.S.Bretanitskinin "Azərbaycan memarlığının tarixi", A.V. Salamzadənin "XVI-XIX əsrlər Azərbaycan memarlığı", L.S. Bretanitskinin "XII-XV əsr Azərbaycan memarlığı və onun Yaxın Şərqin memarlığında yeri", D.Uilberin "İslam İranının memarlığı (Elxanilər dövrü) monoqrafiyalarında, "Fars incəsənətinin icmalı" adlı çoxcildli mühüm bir əsərdə memorial, dini, mülki, müdafiə və şəhərsalma kimi abidələrin funksional qruplar üzrə sistemləşdirilir və nəzərdən keçirilir.

Göstərilən əsərlərdə bu və ya digər abidə qrupları daxilində tipoloji təsnifatlar mövcuddur. Beləliklə, L.S.Bretanitskinin göstərilən monoqrafiyasında "Arxitektura tikililərinin üslubları və onların inkişaf xüsusiyyətləri" adlı fəsil vardır. Bu fəsildə material öz növbəsində müdafiə, memorial, ibadət, mülki kimi funksional qruplara bölünərək xronoloji ardıcıllıqla nəzərdən keçirilir. Daha sonra funksional qruplar karvansaralar, məqbərələr və digər bu kimi binaların növünə görə abidə qruplarına bölünür, burada bəzi hallarda genezis məsələsi nəzərdən keçirilir, Funksiyalar və binaların növlərinə görə dəqiq məhdudiyyətlər mövcud deyil. Bu qeydlər "Azərbaycan memarlığının tarixi" monoqrafiyası üçün də səciyyəvidir, lakin burada tipoloji təsnifat ilə bağlı bir qədər çox məlumat vardır. Bu məlumat, müəyyən tipoloji qruplar daxilində onun tərkib hissələrinin ətraflı təsnifatı, məsələn: su təchizatı tikililərinin, yaşayış məskənlərinin, memorial memarlıq tikililərinin təsnifatının işlənib-hazırlanmasından ibarətdir. Bundan əlavə, binaların növləri çərçivəsində abidələrin müqayisəli cədvəlləri tərtib edilmişdir.

Göstərilən elmi əsərlərlə müqayisədə, A.V. Salamzadənin "XVI-XIX əsrlər Azərbaycan memarlığı" monoqrafiyası tipoloji təsnifat sahəsində araşdırılması baxımından daha məzmunludur. Burada, tipoloji qruplar üzrə sistemləşdirilmiş material sonrakı arxitektura

üslublarına bölünməni nəzərdə tutur, bəzi hallarda yaranma vaxtı və səbəbləri göstərilir. Bu əsərdə yaşayış məskəninin arxitekturası daha ətraflı nəzərdən keçirilmiş, karvansaralar, məscidlər kimi müəyyən abidə qruplarının müqayisəli cədvəlləri verilmişdir.

Azərbaycan memarlığı tarixinin bu və ya digər məsələlərinə həsr olunmuş monoqrafiya və məqalələrdə memarlıq abidələri bir sıra memarlıq-tipoloji qruplar çərçivəsində nəzərdən keçirilir.

K.M.Məmmədzadənin Azərbaycanın tikinti sənətinin tədqiqinə həsr olunmuş elmi əsərlərində [9,10] müzakirə edilən problemin ətraflı təhlili verilir. Bu tədqiqatlarda şəhərlər və tikili üslublarının öyrənilməsinə geniş yer ayrılmışdır, burada tikili üslubları sistemləşdirilir və binaların növlərindən biri olan taksona qədər nəzərdən keçirilir. Tədqiq olunmuş memarlıq abidələrinin konstruktiv xüsusiyyətlər üzrə təsnifatı aparılır.

XVIII-XIX əsrlərin xalq yaşayış məskəni memarlığı tipoloji baxımdan daha ətraflı tədqiq olunmuşdur, burada üslublara bölünmənin iki variantını ayırd etmək olar. Birincisi, yaşayış məskənində "qaradam" üslublu evlər; ant üslublu yaşayış evləri (giriş tərəfdən köndələninə kəsilmiş dirəkdə kilsə girəcəyini əmələ gətirən iki sütunlar ilə dördbucaqlı dini evlər); günbəz şəklində olan evlər – "günbəzli-ev"; yaşayış yerlərinin bir cərgədə yerləşdiyi eyvansız evlər; yaşayış mənzillərinin iki cərgədə yerləşdiyi evlər; vestibülü olan bircərgəli evlər [11, səh.329;12, səh.153] kimi memarlıq üslubları müəyyən edilmişdir. Bu bölgüdə "qaradam" və "günbəzli-ev" üslublarından olan evlər örtüklərinin konstruktiv xüsusiyyətləri əsasında sərbəst üslublar kimi nəzərdən keçirilir. Bu evlərin arxitektura-planlaşdırma həllinə əsaslanaraq onları bu üslub daxilində növ müxtəlifliyinə malik olacaq müəyyən ev tipinə aid etmək olar. İkincisi, yaşayış məskəninin yaşayış mənzillərinin bircərgəli və ikicərgəli yerləşməsi kimi iki geniş yayılmış üsluba bölünməsi nəzərdə tutulur [13]. Daha sonra mənzillərin yerləşməsindən asılı olaraq bu iki yaşayış evi tipi daxilində müəyyən bina qrupları ayırd edilir.

Xalq yaşayış məskəninin nəzərdən keçirilən bölgülərinin ikinci variantı birinci ilə müqayisədə kompozisiya və ya konstruktiv xüsusiyyətlərin bir ümumi üslub daxilində növ müxtəlifliyini müəyyən edən həcmi-fəza strukturun həlledici tipoloji amili olduğu binanın arxitektura-planlaşdırma həlli əsasında tərtib edilmişdir ki, burada, ikinci variantda İbrahim xan və Qara Böyük xanın qəsrləri (hər ikisi Şuşada) sarayın perimetri çevrəsində otaqların bircərgəli yerləşdiyi binalar qrupuna daxildir. Bu iki qəsri müdafiə tikililəri qrupuna aid etmək lazımdır. Göstərilən əsərlərdən başqa, yaşayış evlərinin müəyyən xronoloji dövrlər və yerli məhdudiyyətlər səviyyəsində təsnifatına L.S. Bretanitski, C.Qiyasi, M.N. Məmmədbəyli, A.Y. Nuriyeva, R.D. Salayeva, A.V. Salamzadənin və digər tədqiqatçıların əsərlərində toxunulmuşdur.

Azərbaycanın müdafiə tikililərinin öyrənilməsi zamanı müdafiənin səciyyəsindən asılı olaraq qorunub-saxlanmış abidələr aşağıdakı şəkildə hissələrə bölünən binaların növləri səviyyəsində sistemləşdirilmiş və nəzərdən keçirilmişdir. Birincidə, onlar aşağıdakı qruplara bölünür: istehkam şəklinə salınmış şəhərlər /şəhər-qalalar/, müdafiə sədləri, feodal qəsrləri, gözətçi və görünüş qüllələri, istehkam şəklinə salınmış dini və mülki tikililər [14, səh.40]; ikincidə, dörd əsas qrup – istehkam şəklinə salınmış şəhərlər və kəndlər, çətin keçilən yerlərdə ucaldılan tikililər /dağ qalaları/, istehkam şəklinə salınmış ibadət kompleksləri, qüllələr /hərbi, gözətçi, yaşayış/ və Abşeronun dağ rayonları ayırd edilir [15, səh.42].

Nəzərdən keçirilmiş sistemləşdirmələrdən heç biri bütün müdafiə tikililərini tam əhatə etmir, belə ki, birinciyə dağ qalaları, ikinciyə isə feodal qəsrləri daxil edilməmişdir. Onlar üçün səciyyəvi olan çatışmazlıq, həm də istehkam şəklinə salınmış ibadət və mülki tikililərin səciyyəsi istehkam şəklinə salınmış yaşayış məntəqələrindən uzaqda ayrı yerləşməsi ilə şərtlənən müdafiə tikililəri qrupuna aid edilməsidir, onlar tipoloji təsnifatda ibadət və mülki binalar bölməsində müvafiq yer tutmalıdır.

Məscidlərin, əsas ibadət tikililərinin təsnifatı məsələsi tam olaraq nəzərdən keçirilməmişdir. A.Poup, E.Disa, E.Şreder, A.Qodarın əsərlərində [16, 17] məscidlər cəmi bir neçə üsluba bölünür: məscid-köşklər; məscid-eyvanlar; dörd eyvanlı daxili həyəti olan sütunlarla haşiyələnmiş məscidlər. Məscidlər Təbriz memarlıq məktəbi səviyyəsində C.Qiyasi tərəfindən öyrənilmişdir. O, qeyd etmişdir ki, əsas monumental məscidlər günbəzşəkilli-sentrik, eyvan-qübbəşəkilli və T-şəkilli olmuşdur [18, səh.16]. A.V. Salamzadənin "XVI-XIX əsrlər Azərbaycan memarlığı" monoqrafiyasında tədqiq olunan dövrün məscidlərinin müqayisəli cədvəli verilmiş, bu və ya digər üslubların meydana gəlmə səbəbləri göstərilmişdir. Qeyd olunan əsərlərdə nəzərdən keçirilən məscid üslubları tam tipoloji zənginliyi əks etdirməmiş, həmçinin hər üslubun mənşəyi məsələsi qismən nəzərdən keçirilərək onların yaranması və təşəkkül tapması səbəbləri müəyyən edilməmişdir.

Ticarət tikililəri arasında karvansaralar tipoloji baxımdan daha ətraflı nəzərdən keçirilmişdir. Ş.A. Qasımova karvansaraların "memarlıq formalarının və tikintilərin kompozisiya həllinin yerli əlamətləri üzrə" tipoloji təsnifatını tərtib etmişdir [19, səh.21]. Bu əsərdə karvansaralar şəhər və yol üslublarına bölünür, şəhər karvansaraları funksional təyinatından asılı olaraq, göstərildiyi kimi, "müvafiq olaraq müxtəlif arxitektura-planlaşdırma həlli"nə malik olan üç qrupa bölünür [19, səh.8]. Göstərilən təsnifatın birinci qrupuna birinci mərtəbəsi malların saxlanması və satışı, ikinci mərtəbəsi isə yaşayış üçün istifadə olunan ikimərtəbəli karvansaralar (Qasım bəy və Bakının qala divarlarından xaricdəki karvansaralar) daxildir; ikinci qrupa yalnız yaşayış üçün nəzərdə tutulan birmərtəbəli karvansaralar (Bakıdakı Buxara karvansarası, Dərbənddəki Böyük karvansara), üçüncü qrupa – "seksiya həllinə malik olan,

yuxarı mərtəbəni tutan əsas yaşayış hissəsi ilə yanaşı, malların saxlanması üçün nəzərdə tutulan, qalereya həllinə malik aşağı, kürsülük mərtəbəyə malik olan karvansaralar" [19, səh.9] (Bakıdakı Böyük və Multani karvansaraları) təşkil edir. Bizim fikrimizcə, göstərilən təsnifatın üçüncü qrupu qalereya həllinə malik kürsülük mərtəbəsi ilə səciyyələnən ayrıca tipoloji qrupu təşkil edə bilməz. Bu qrupun hər iki nümunəsində, "Böyük" və "Multani" karvansaraları, aşağı qalereya yerləşkələri xronoloji baxımdan karvansara binaları ilə müqayisədə daha erkən hesab olunur və onlarla vahid tam planlaşdırma əlaqəsinə malik deyil. Bu qalereyalardan karvansaraların tikintisindən sonra istifadə etmək olardı. Ş.A. Qasımovanın özündə eyni (seksiya memarlıq üslubunu əks etdirən təsnifatında) Buxara, Multani, Qasım bəy karvansaraları müxtəlif tipoloji qruplara aid edilir.

Elmi ədəbiyyatda orta əsr Azərbaycan hamamının təsnifatının üç variantı mövcuddur.

Birincisi, hamamlar planlı həll əsasında iki növ qrupa bölünür, onlardan birində "əksər hallarda planın kompozisiyasının təməlinə kvadrat (bəzən qoşa) qoyulmuşdur. Həmin kvadratlar binanın daxili künclərində dörd kiçik yerləşkə yaratmaqla mərkəzdə öz aralarında kəsişən iki xətlə ayrılır" [20, səh.89]; hamamların digər qrupunda isə "uzunsov formalı yerləşkələr öz qısa oxları üzrə bir-birinə birləşir" [20, səh.89].

Hamamların təsnifatının ikinci variantında [19, səh.12-14] birincidən fərqli olaraq, bütün tipoloji zənginliyi tam ifadə etməyən səkkiz qrup ayırd edilir, bu təsnifat qarışıq şəkildə bölünmüşdür, belə ki, bəzi ayırd edilmiş üslublar digər növ qrupların növ müxtəlifliyidir, "qeyri-növ" adlanan səkkizinci qrupa isə müxtəlif memarlıq-planlaşdırma həllinə malik olan Kürdəxanı və Nardaran kəndlərində yerləşən hamamlar aiddir.

Təsnifatın üçüncü variantı [21, səh. 147] məqsədə daha yaxındır, burada hamamın zallarının memarlıq-planlaşdırma həllindən və onların ahəngi metodlarından asılı olaraq, dörd qrup ayırd edilir. Amma mövcud olan abidələrin əksəriyyətini əhatə edən bu təsnifat yalnız kiçik birkameralı hamamlardan və Nardaran kəndində yerləşən Xan bağındakı hamamdan ibarət deyil.

Təsnifat baxımından hidrotexniki qurğulara yarımçıq baxılmışdır, burada bölgü çox vaxt funksiyaların növləri səviyyəsində aparılmış, binaların növləri daxilində bir sıra tikililərin - ovdanların, körpülərin təsnifatı həyata keçirilmişdir.

Nəzərdən keçirilən tikililər və binalarla müqayisədə memorial memarlıq – məqbərələr bölməsi tipoloji baxımdan daha hərtərəfli işlənib-hazırlanmışdır. Bu sahədə daha ətraflı tədqiqatla akademik A.V. Salamzadə məşğul olmuşdur [22, 23]. O, məqbərələrin aşağıdakı üslublarını ayırd etmişdir: qülləvari, günbəzşəkilli, qüllə-günbəzşəkilli və son dərəcə böyük qülləvari məqbərələr. Qeyd edilən qruplarda kompozisiya həlli əsasında bu və ya digər növ müxtəlifliyi ayırd edilir. Təbriz memarlıq məktəbi məqbərələrinin təsnifatına C.Qiyasinin əsərində baxılmışdır [24].

Problemin öyrənilmə səviyyəsinə baxıldıqdan sonra belə nəticəyə gəlmək olar ki, tipoloji təsnifat məsələsinə hər hansı müəyyən abidələr qrupu: yaşayış məskənləri, karvansaralar, hamamlar, məqbərələr, müdafiə tikililəri və hidrotexniki qurğular çərçivəsində nəzərdən keçirilmişdir. Burada, çox vaxt təsnifat aparılmış və binaların növü həddində abidələr tədqiq edilmiş, ancaq binaların növünün özünün daxilində həcm-planlaşdırma həlli üzrə təsnifat aparılmamışdır. Beləliklə, memarlıq irsinin tipoloji zənginliyini göstərən, Azərbaycanın bütün orta əsr memarlığı miqyasında tipoloji təsnifat praktiki olaraq həyata keçirilməmişdir.

SSRİ mədəniyyəti tarixinin abidələri toplusunun [25] hazırlanması üçün təklif olunan, tipoloji təsnifatın tərtib olunması çərçivəsində funksional xüsusiyyətlər əsasında müxtəlif bölmələrlə təqdim edilən memarlıq abidələrinin təsnifatı gələcəkdə yenidən işlənib-hazırlanmanı tələb edir. Burada müxtəlif regionların xarakterik xüsusiyyətləri nəzərə alınmır. Azərbaycanın müxtəlif təyinata malik memarlıq tikililəri bu səbəbdən həmin təsnifatın eyni bölməsinə aid edilir.

Memarlıq irsinin öyrənilməsində memarlıq abidələrinin həcmi-fəza struktur üslubları üzrə təsnifatı təcrübəsi var. Azərbaycan üzrə bu cür təsnifat Azərbaycan alimlərinin əsərlərində aparılmışdır. Burada həcmi-fəza strukturlar memarlıq-məkan təşkilat prinsipi üzrə təsnif edilir.

L.Y. Mankovskaya bu cür təsnifatın təhlilini apararaq, onun bina və ya tikilinin funksional təyinatından uzaqlaşması ilə nəticələnən çatışmazlığını qeyd edir [6,səh.33]. Lakin bununla yanaşı, göstərilən təsnifatın müsbət tərəfləri də var, belə ki, o, müxtəlif funksiyalara hansı həcmi-fəza struktur çərçivəsində icazə verildiyini göstərir, daha doğrusu, çoxfunksiyalı memarlıq üslubunun müəyyən olunmasına kömək edir. Sonuncu məscidlərin, məqbərələrin, hamamların və digər binaların tikintisində istifadə olunan, yaşayış məskənləri, karvansaralar, mədrəsələr, xəstəxana və ya sentrik, çarpaz-günbəzşəkilli sistemin funksiyasının həll olunduğu qapalı xətti kompozisiyanın misalında müşahidə edilir.

Orta Asiya regionunun memarlıq irsinin spesifikasını və ilk tam təsnifatını nəzərə alan tipoloji tədqiqat sahəsində maraqlı əsər L.Y. Mankovskaya tərəfindən [6] yazılmışdır. Həmin əsər aşağıdakı mərhələlər üzrə işlənib-hazırlanmışdır: ümumi forma yaratma sistemində tipologiyanın yerinin müəyyən olunması; memarlıq tipologiyasının sistem-təsnifatının yaradılması; sistem-təsnifatın tərtib olunmasında funksiya və formanın əsas götürüldüyü, bina üslublarının təkamülünün təşəkkülü proseslərinin üzə çıxarılması. Daha iri bölgülər funksional xüsusiyyətləri nəzərə almaqla, daha kiçik bölgülər isə başlıca tipoloji amil olan həcmi-fəza strukturu nəzərə almaqla həyata keçirilmişdir. Bu tədqiqat Azərbaycanın memarlıq abidələrinin tipoloji təsnifatının öyrənilməsinə böyük təsir göstərmişdir ki, bu da Azərbaycanın və Orta Asiyanın memarlıq irsinin bir çox xüsusiyyətlərinin invariantlılığı ilə izah edilir.

## § 2. Azərbaycanın memarlıq abidələrinin tipoloji təsnifatının əsasları

Memarlıq binalarının və tikililərinin tipoloji təsnifatı zamanı səciyyəvi memarlıq üslublarını müəyyən etmək lazımdır. Bununla əlaqədar olaraq, ilk növbədə “memarlıq əsəri” və “memarlıq üslubu” anlayışlarını müəyyən etmək, həmin anlayışların oxşarlıq dərəcəsini üzə çıxarmaq və onlar arasında müvafiq hədd qoymaq lazımdır.

Memarlıq əsərinin öyrənilməsi memarlıq elminin predmetidir. Hər bir memarlıq əsəri bu və ya digər dərəcədə aşağıdakı məsələləri həll edir: funksional, ideoloji və bədii-estetik. Bu məsələlərin həlli müvafiq konstruktiv və bədii vasitələrlə reallaşdırılan müəyyən həcm-qeyri-məkani forma vasitəsilə həyata keçirilir. Memarlıq kompozisiyası – bütöv sistemdir, onun vacib şərti onu təşkil edən hissələrin qarşılıqlı əlaqəsidir. Bu təqdimat funksional, estetik tərəfləri və konstruktiv təməli təsdiq edən memarlıq kompozisiyasının vahidliyi barədə qanundan irəli gəlir.

Memarlıq kompozisiyası bir tam kimi, elementlərə və hissələrə bölünən çox-saylı komponentlərdən ibarətdir. Dialektik-materializm fəlsəfəsində belə bir mövqe əsaslandırılmışdır ki, ona əsasən, hissə (element) və hətta onların mexaniki məcmusu predmetin komponenti olmaqla müəyyən sistemin təşkili olmadan onun mahiyyətini əks etdirə bilməz, halbuki hissə məhz həmin tamın spesifik xüsusiyyətlərindən törəyir [26, 27].

Tam obyektin öyrənilməsinin əsas çətinliyi onu bir sıra digər obyektlərdən ayıran keyfiyyət xüsusiyyətlərinin aydınlaşdırılması ilə nəticələnir [28, səh.30-31]. Hissələr memarlıq kompozisiyasını təşkil edir, memarlıq kompozisiyası nəzəriyyəsində memarlıq əsərinin keyfiyyət səciyyəvi xüsusiyyətlərinin daşıyıcıları kimi müəyyən edilir.

Memarlıq kompozisiyası öz xüsusiyyətlərinə görə müəyyən edilmiş üslubi qruplardan birinə mənsubdur, o isə öz növbəsində bir memarlıq üslubu ilə səciyyələnir. Sonuncu müəyyən memarlıq kompozisiyasını əks etdirir, beləliklə, həm də elementlərin və ya, daha dəqiq desək, bu elementləri əks etdirən kateqoriyaların məcmusundan ibarət olan bütöv sistemdir. Memarlıq kompozisiyasının aşağıdakı kateqoriyaları mövcuddur: həcmi-fəza struktur, tektonika, harmonallıq vasitələri, memarlıq kompozisiyasının əlavə vasitələri [29]. Bu kateqoriyalardan hər biri memarlıq tipinin keyfiyyət səciyyəvi xüsusiyyətini daşıyır ki, bunun da rolu onun strukturunun müəyyən edilməsindən sonra aydınlaşacaq. Memarlıq üslubu nədir?

Üslub anlayışının təyin edilməsi ilə memarlıqdan başqa, həm də maddi mədəniyyətin etnoqrafiya və arxeologiya kimi bölmələrində məşğul olurlar. Bu elmlərdə üslub anlayışının tərifini təhlil edək. Etnoqrafiyada ənənəvi-məişət mədəniyyətinin öyrənilməsi zamanı üslub “analoji komplekslərlə qeyri-funksional əlaqələndirilmiş və formal-morfoloji əlamətlərin

təsvirinin ümumi istiqamətini aşkar edən xüsusi areala malik olan davamlı komplekt" hesab edilir [30].

Etnoqrafik üslub üç səviyyədə müəyyən edilir: yuxarı, orta və aşağı. Göstərilən səviyyələrdən hər biri müvafiq olaraq, aşağıdakı əlamətlərlə səciyyələnir: birinci – şərt əlamətləri – davamlılıq və reallıq; ikinci – qarşılıqlı tipoloji təsir əlamətləri – təsviretmənin izofunksional əlaqəliliyi və istiqaməti; üçüncü – normal-morfoloji əlamətlər yığımı. Burada üslubu müəyyən edən səviyyə qarşılıqlı tipoloji təsir səviyyəsidir.

Arxeologiyada "üslub" anlayışının tərifi çoxmənalıdır. Elmi ədəbiyyatda bu məsələyə baxılmış və müasir arxeologiyada "tip" anlayışının hakim mövqeyi təyin edilmişdir [31]. M.P. Qryaznovun tərifinə görə, arxeologiyada üslub: "Taksonomik anlayışdır; əsas təsnifat vahididir; hər hansı bir əlamət üzrə deyil, öyrənilən obyektin bütün mümkün... xüsusiyyətləri üzrə təyin edilir" [32, səh.19]. Arxeoloji obyekt, arxeoloji üslub özündə bütöv sistemi təşkil edir. Q.S. Lebedev üsluba məhz bu yolla yanaşaraq onu təşkil edən əlamətləri dörd səviyyəyə ayırır.

Birinci – funksional əlamətlər (f) əsas texniki (funksional) təyinatdan asılıdır və onun material ifadələrinə xidmət edir. İkinci səviyyə – konstruktiv əlamətlər (k), "daha doğrusu, əşyanın elə funksional əsaslandırılmış element və xüsusiyyətləridir ki, onları funksional təyinatlarını dəyişdirmədən təsvir etmək mümkündür". Üçüncü səviyyə – dekorativ əlamətlər (d) dedikdə "verilən konstruksiyanın bədii həlli" nəzərdə tutulur. Dördüncü səviyyə – semantik əlamətlər (s) "dekoru tamamlayan və zənginləşdirən, konstruksiya ilə bilavasitə əlaqəli olmayan əşyalar" [33, səh.79-80]. Beləliklə, yuxarıda deyilənlərdən belə nəticə çıxır ki, "üslub bütün dörd səviyyənin əlamətlərinin sabit ahəngidir, daha doğrusu, T=S (f, k, d, s)"[33,səh.80].

Çıxarılan tərif arxeoloji tədqiqat sahəsində işlədilir, Q.S. Lebedevin memarlıq abidələrini də daxil etdiyi arxeoloji obyektlər üzrə yayılır. Memarlıq əsərinin spesifikasından çıxış edərək, onu arxeoloji üslubun göstərilən tərifindən çıxarmaq lazımdır, belə ki, onlara mədəniyyət elementi kimi deyil, arxeoloji irsin bir hissəsi, memar və mühəndis təfəkkürünün sintezinin məhsulu kimi baxılır.

Bundan əvvəl qeyd olunduğu kimi, memarlıq əsəri özündə bütöv, yəni: "öz aralarında qarşılıqlı əlaqədə olan və bir neçə tam vahidi əmələ gətirən çox sayda elementlərin müəyyən obrazı ilə nizamlanmış sistemi" təşkil edir [34,səh.173] və qarşılıqlı əlaqəli olan dörd komponentdən, memarlıq kateqoriyasından ibarətdir. Memarlıq üslubunun nəzəri modeli memarlıq kompozisiyalarının kateqoriyaları arasında mövcud olan əlaqələrdən asılı olaraq, aşağıdakı şəkildə təqdim oluna bilər (Şəkil 1). Təqdim olunan modeldə həcmi-fəza struktur tektonik sistem, harmonallıq vasitələri, memarlıq kompozisiyasının əlavə vasitələri ilə bağlıdır və həmin hissələrin elementlərinə təsir göstərir. Tektonik sistem harmonallıq vasitələri və memarlıq kompozisiyasının əlavə vasitələri ilə bağlıdır və onlara təsir göstərir,

həmçinin həcmi-fəza struktur ilə əks əlaqəyə malikdir. Harmonallıq vasitələri əlavə vasitələr kateqoriyası ilə əlaqəyə malikdir və ona təsir göstərir. Memarlıq kompozisiyasının əlavə vasitələri öz növbəsində, harmonallıq vasitələri ilə əks əlaqəyə malikdir, belə olan halda, əgər bu və ya digər ornament, yaxud digər vasitələr seçilərsə, heykəltəraşlar bir neçə kateqoriya xüsusiyyətləri – harmonallıq vasitələrini müəyyən edirlər.

Memarlıq kompozisiyasının əlavə vasitələri və harmonallıq vasitələri arasındakı əks-əlaqə ayrıca tədqiqat predmetidir və bu əsərdə baxılmır.

Memarlıq üslubunun təqdim edilən nəzəri modelində bu və ya digər komponentin çıxarılması sistemin və onun strukturunun tamlığının pozulmasına gətirib çıxaracaq. Memarlıq üslubunun modelinin komponentləri arasında baxılan əlaqələrdən belə nəticə çıxarılır ki, onun strukturunda geniş yeri həcmi-fəza struktur, daha sonra tektonik sistem, harmonallıq vasitələri və memarlıq kompozisiyasının əlavə vasitələri tutur. Beləliklə, memarlıq üslubunun nəzəri modelinin strukturunda onun keyfiyyət səciyyəvi xüsusiyyətinin əsas daşıyıcısı özündə daxil edilmiş konstruktiv və estetik sistemi təcəssüm etdirən və öz əməli təyinatına cavab verən həcmi-fəza strukturdur.

Qeyd edilənləri nəzərə alaraq, memarlıq əsərinin həcmi-fəza strukturu memarlıq üslubunun başlıca amilləri ilə müəyyən edilir və memarlıq abidələrinin tipoloji təsnifatı zamanı əsas kimi seçilir.

Həcmi-fəza struktur ilkin memarlıq elementi, memarlıq kompozisiyasının əsas hissəsidir.

Azərbaycanın və Orta Asiyanın memarlığının tədqiqi zamanı memarlıq kompozisiyasının kateqoriyalarına Azərbaycanlı alimlərin, eləcə də L.Y. Mankovskayanın əsərlərində ətraflı baxılmışdır [6].

Memarlıq əsərinin məhz həcmi-fəza strukturunda onun təmin edilmələri məqsədilə yaradıldığı funksional və sosial tələblərin həlli baş verir.

Orta əsrlər Azərbaycan memarlığında həcmi-fəza strukturun aşağıdakı növləri mövcud olmuşdur: a) yalnız daxili məkanın aid olduğu kompozisiyalar: yeraltı (ovdan, buzxana, kəhriz və s.), lakin burada elementlər – xarici məkanı daxili məkanla əlaqələndirən girişlər və dəhlizlər var; qayaiçi (mağara üslublu ibadət tikililəri, yaşayış evləri); b) özündə yalnız həcmi əks etdirən və daxili məkanı olmayan kompozisiyalar (körpülər, qala divarları, bulaqlar, ayrıca duran portallar), amma Azərbaycandakı körpülər arasında özündə bu qrupda olmayanları əks etdirən, daxili məkana malik olan üslublar da var (Qırmızı körpü, XII əsr və s.); həm daxili məkan, həm də xarici tutumu özündə əks etdirən kompozisiyalarda kiçik birkameralı evlərdən başlayaraq çoxkameralı binalara qədər daha geniş təqdim olunmuşdur; q) tətbiqi və estetik funksiyaları həll edən məkanların aid olduğu kompozisiyalar (həyətlər və meydanlar).

Orta əsr Azərbaycan, eləcə də bütün Yaxın Şərq memarlıq təcrübəsində həcmi-fəza strukturun yuxarıda göstərilən iki və daha çox kompozisiyasından ibarət olan qarışıq üslublara da rast gəlinir. Binaların həcmi-fəza strukturu elə məkanların qruplaşdırılması yolu ilə düzəlir ki, onların əsas əlaməti yaradılan memarlıq əsərinin funksional-texnoloji proseslərinin təşkilidir. A.İkonnikova və Q.Stepanova əsasən, məkanların qruplaşdırılmasının mümkün ahəngləri beş əsas üsluba gətirib çıxarır: özək, dəhliz, əlaqələndirilmiş dəhlizsiz, anfilada, zal sistemi [35, səh.19].

Dövrümüzə qədər gəlib çatmış Azərbaycan memarlığı abidələrində məkanların qruplaşdırılmasının bütün göstərilən üslublarının müxtəlifliyi izlənilir, burada həcmi-fəza strukturlar məkanların üfüqi, həm də şaquli müstəvilərdə qruplaşdırılması yolu ilə əmələ gəlir.

Həcmi-fəza struktur ilə, onun, həlli üçün yaradıldığı funksiya arasında qarşılıqlı əlaqə dialektik baxımdan mürəkkəbdir. İ.Arauxo qeyd edir ki, memarlıq məkanı öz ekzistensial səciyyəsindən əlavə, həm də üstünlük təşkil edən qərəzli səciyyəyə malikdir və belə nəticəyə gəlir ki, "memarlıq məkanı özündə sifarişçinin tələblərini ödəməyə imkan verən çox və ya az açıq həndəsi sxemlərin köməyi ilə təşkil edilən, bir çox ekzistensial xüsusi məkanların aid olduğu ekzistensial ictimai məkanı əks etdirir" [36, səh.72].

Beləliklə, "sifarişçinin tələbləri"nin ödənilməsi üçün ilk əvvəl qoyulmuş məsələnin həllinə də yardımçı olan həcmi-məkan tələb olunur. Seçilmiş həcmi-məkan bu və ya digər konstruktiv vasitələr yolu ilə müəyyən memarlıq formasını əldə edir. Deməli, həcmi-fəza strukturun yaradılmasında əsas səbəblərdən birini onun obyektivləşdirilməsi üçün yaradıldığı gələcək təyinatı oynayır.

Memarlıq kompozisiyasının kateqoriyalarının qarşılıqlı əlaqəli həlli bundan əvvəl də göstərildiyi kimi, memarlıq əsərinin funksional, konstruktiv, estetik məsələləri yerinə yetirməsini təmin edir. Bu məsələlərin necə həll ediləcəyi, çox və ya az aparıcı rolun necə təyin ediləcəyi, onların qarşılıqlı əlaqəliliyi və mütənasib əlaqəsi forma yaradılması zamanı həll olunacaq. Memarlıqda forma yaradılmasının aydınlaşdırılması yaranma zəncirində elə həlqələri tapmağa imkan verir ki, onlarda spesifik, üslubi xüsusiyyətlər toplanır.

Memarlıq formasının təşəkkülü obyektiv və subyektiv amillərin dar qarşılıqlı təsiri yolu ilə baş verir. Obyektiv amillər – konkret dövrdə tapılan təbii məlumatlar və elm və texnikanın əldə olunan inkişaf səviyyəsidir; subyektiv amillər – cəmiyyətin tələbləri, onun müxtəlif sosial-iqtisadi sistem şəraitində spesifikası, eləcə də yaradıcı memarlıq imkanları ilə bağlıdır.

Hər ölkə üçün amil-təbiət praktik olaraq stabildir və iqlimin, tikinti materiallarının və landşaftın təsirindən formanın yaranmasında öz əksini tapır [6, səh.25]. Tikinti materialı bu və ya digər konstruksiyanın meydana gəlməsini təyin edir, müəyyən edilən tektonik sistemlərin təkmilləşdirilməsinə yardım edir.

Ölkənin iqlim şəraiti həcmi-fəza strukturun yaranmasına təsir göstərir, müxtəlif iqlim şəraiti bir-birindən fərqlənən memarlıq formalarını əmələ gətirir. Bütün həndəsi fiqurlardan kürə öz həcminə görə ən kiçik səthə malikdir ki, bu da onu hədsiz qızmaqdan qoruyur [37]. İsti iqlim şəraitində memarlıqda günbəzdən geniş istifadə olunur. Bu məsələ mübahisəlidir, lakin ehtimal edilir ki, digərləri ilə yanaşı bu amil də Şərqdə günbəzlərin geniş yayılmasının əsasını təşkil edir.

Subyektiv amil necə də olsa, formanın yaranmasında ikiqat öz əksini tapır: birbaşa və ya dolayısı ilə. Onun birbaşa təsiri onda özünü göstərir ki, incəsənətin digər növlərindən fərqli olaraq, memarlıqda əsərlər müəllifin ixtiyarı ilə yaradıla bilməz. Yalnız cəmiyyətin bu və ya digər tələbi memarlıq tikilisi və binasının yaradılması zərurətini təyin edir. Sosial sifariş – funksional-məkani məsələnin həlli formanın yaranmasında tipologiyanın təməlinə çevrilir (38, səh.96].

Dolayısı ilə, subyektiv amil formanın yaranmasında yaradıcılıq prosesinin özəlliyinə görə özünü göstərir. İnsanların şüuru praktik fəaliyyətin gedişində, onların yaşadıqları sosial mühit ilə qarşılıqlı təsir prosesində formalaşır [39, səh.16-17]. Memarlıq fəaliyyətinin subyekti - insan sayəsində hər bir tarixi dövrdə obyektiv amillərin bina və tikililərin layihələrində təkrarolunmaz birləşmiş əksi baş verir. İnsan – yaradıcı şəxs bu və ya digər həcmi-fəza strukturun, bu və ya digər tektonik sistemin seçimini müəyyənləşdirir ki, bunun çərçivəsində sosial-tətbiqi məsələnin həlli mümkün olur.

Qeyd etmək lazımdır ki, bədii təfəkkürün təbiətində tipləşdirmə prinsipi mövcuddur, bunun mahiyyəti ona gətirib çıxarır ki, bədii təfəkkürdə çox sayda daha səciyyəvi, üslubi həmcins və ya oxşar hadisələrdən seçim mexanizmi fəaliyyət göstərir [40, səh.25]. Cəmiyyətin tələblərinin ödənilməsi üçün ilk əvvəl inkişaf prosesində lazımi cizgiləri əldə etməklə öz görünüşünü dəyişən müxtəlif formalar yaradılırdı. L.Y. Mankovskaya haqlı olaraq qeyd edir ki, "daha yaxşı formaların axtarışı, seçimi və ictimai təsdiqi tədricən aparıcı kompozisiya əlaməti memarlıq üslubu anlayışını da təyin edən stereotipi yaradır" [6, səh.20]. Tikilən hər bir bina özünəməxsus tipoloji xüsusiyyətlərə malikdir ki, bunun da dərin anlamında memarlıq sənəti kök salır [41, səh.9].

Memarlıq üslubu anlayışını aşağıdakı yolla müəyyən etmək olar: bu, konkret konstruktiv və bədii-estetik vasitələrlə müəyyən sosial funksiyaların obyektivləşdirilməsi üçün nəzərdə tutulan həcmi-fəza struktur üslubudur.

Memarlıq kompozisiyası və memarlıq üslubu anlayışlarından istifadə etməklə aydınlaşdırmaq lazımdır: memarlıq kompozisiyası və memarlıq üslubu anlayışları arasında fərq nədir?

Memarlıq üslubu anlayışı memarlıq kompozisiyası anlayışından daha genişdir. Eyni bir memarlıq üslubu bir neçə oxşar memarlıq kompozisiyasını təşkil edə bilər, həmin

kompozisiyalardakı kiçik fərqlər isə bu üslub daxilində növ müxtəlifliyi yaradacaq. Bu, təbiidir, belə ki, bütövün hər bir əsas üslubu hissələrin xarakterindən (memarlıq kompozisiyasının kateqoriyasından), onların qarşılıqlı əlaqəsindən və digər əlamətlərdən asılı olaraq, öz növbəsində bir sıra yarımtiplərə bölünür [42, səh.34].

Üslub şüurda birincisi, həmişə son dərəcə sərt cızılmış konkret əyaniliyin olması ilə əlaqəlidir; ikincisi, həmin əyaniliyin unikallığı, onun digər "oxşar" realilərlə, tamın daxilindəki digər tiplərlə uyğunsuzluğu güman edilir [43, səh.240].

Memarlıq kompozisiyasını bütöv sistem kimi götürməklə onun öytənilməsində "obyektlərin sistem kimi təqdim edilməsi, öyrənilməsi və təşkil edilməsi ilə bağlı olan müasir elmin metodoloji istiqamətlərindən biri kimi" sistemli yanaşma metodunu tətbiq edirik [44, səh.41]. Sistemli araşdırmada obyektə sistem kimi baxıldıqdan sonra sistemin ətraf mühit ilə qarşılıqlı əlaqədə öyrənilməsi nəzərdə tutulur. Sistemli araşdırmanın ikinci başlıca məqamı onun digər daha geniş sistemin elementi kimi obyekt-sistemin öyrənilməsinə istiqamətlənməsidir [45, səh.64].

Bu tədqiqatda memarlıq üslubu obyekt-sistem kimi özündə daha geniş sistemi (Azərbaycan memarlıq irsi) əks etdirir, həmin sistemdə üslub mürəkkəb tamın daxilində vahid kimi konkret əyaniliyi və digər "oxşar" realilərdən əhəmiyyətli dərəcədə fərqlənməsi ilə qeyd olunur.

Tipoloji tədqiqatda üç əsas istiqamət ayırd edilir: 1. Ayrıca götürülmüş tipin quruluşu, konstruksiyası, təhlili; 2. Ümumi tipoloji sistemin quruluşu; 3. Ayrı-ayrı üslubların qurulmuş nəzəri sxem üzrə təyini, "ikinci dəfə" təhlili [43, səh.247]. Tipoloji tədqiqatın göstərilən istiqamətlərinə əsasən, birinci bənd əsasında memarlıq irsinin onu təşkil edən bina və tikili üslublarının təyin edilməsinə yardım edən ilkin təhlili aparılır. Bunun ardınca sistem-təsnifat tərtib olunur ki, bunun əsasında aşkar edilən üslubların ayrı-ayrı memarlıq üslublarının formasının yaradılması səbəblərini aydınlaşdırmağa və onlar arasında mümkün əlaqələri müəyyən etməyə yardım edən "ikinci dəfə" təhlili aparılır.

Tipoloji tədqiqatın əsas məsələlərindən biri ümumi tipoloji sistemin qurulmasıdır. Beləliklə, bu halda tipoloji təsnifat məsələsinin həlli üçün vacib bənd məlum material əsasında sistem-təsnifatın tərtib olunmasıdır. Həmin material elə qurulmalıdır ki, tədricən yeni aşkara çıxan üslublar sistemi və onun strukturunu pozmadan onlara uyğun olan özəyi tutsun.

Zoologiyada müəyyən strukturun ümumi qəbul olunmuş kateqoriyalarla (taksonlarla) cəmləşdiyi sistem-təsnifatın nəzərdən keçirilməsi tipoloji təsnifatın quruluşu baxımından maraqlı olacaq. Zooloji təsnifatın ümumi səciyyəvi xüsusiyyətini aşağıdakı şəkildə vermək olar: "bu, heyvanların oxşarlıq və qohumluq əsasında sonuncu sözün ən geniş anlamında qruplara bölünməsidir" [46, səh.73]. Zoologiyada mütləq pillələrlə, daha doğrusu başlıca

ali kateqoriyalarla (növ, cins, ailə, dəstə, sinif,) yanaşı, həmçinin böyük sayda aralıq (yarımnöv, üstsinif, altsinif, üstdəstə, altdəstə, yarımailə, triba, yarımcins, yarımnöv və s.) kateqoriyalar mövcuddur [47, səh.57]. Ümumilikdə ən yüksək taksondan – "aləm"dən başlayaraq ən aşağı – "yarımnöv"ə qədər olmaqla ierarxik qaydada bölünən ümumi qəbul olunmuş on səkkiz kateqoriya var, burada alilər filogenetik ağacın əsas qollarını təmsil edir. Zoologiyadakı sistem-təsnifatın qurulması metodu qismən, memarlıqda tipoloji təsnifatın tərtib olunmasında da istifadə edilə bilər.

Elmdə təsnifat cədvəllərinin tərtib olunmasının iki yolu var: deduktiv və induktiv. Bilik sahələrinin sistemləşdirilməsində deduksiyaya, faktiki materialın, işlənib-hazırlanması və onun sxem və cədvəllər şəklində tərtib edilməsində induksiyaya üstünlük verilir [48, səh.269].

Memarlıq abidələrinin tipoloji təsnifatını əks etdirən sistem induktiv metodla yaradılacaq ki, burada memarlıq əsərinin funksiya və forması təsnifat üçün əsas kimi çıxış edəcəkdir. Müasir memarlıqda böyük bölgülər funksional bölünmə əsasında baş verdiyi üçün, ilkin funksional bölünmə Orta Asiyanın memarlıq irsinin üslubiliyinin öyrənilməsinə həsr olunmuş xüsusi tədqiqatda da qəbul edilmişdir [6].

Binanın növünün funksiya əsasında böyük dərəcələrə- taksona qədər bölünməsindən sonra, memarlıq kompozisiyasının həcmi-fəza strukturu əsasında memarlıq səviyyəsində bölünmə baş verir, belə ki, tamın hər başlıca üslubi hissələrin səciyyəsindən (memarlıq kompozisiyasının kateqoriyalarından) asılı olaraq, onların qarşılıqlı əlaqəsi çox sayda daha kiçik dərəcələrə bölünür. Orta əsrlər Azərbaycan memarlıq irsinin tipoloji təsnifatını əks etdirən sistemin qurulması üçün aşağıdakı taksonomik vahidlər müəyyən edilmişdir: şöbə, sinif, bölmə, funksiyaların növü, binaların növü, növ və növ müxtəlifliyi. Orta Asiya memarlıq tipologiyasının öyrənilməsində L.Y.Mankovskaya tərəfindən təklif edilən quruluş strukturundan istifadəni saxlamaqla, sinif daxilində bölgünü müəyyən edən əlavə "bölmə" kateqoriyasını daxil edirik. Bu kateqoriyanın vacibliyi təklif edilən sistem-təsnifatın strukturunda öz təsdiqini tapır.

Tipoloji təsnifatın qurulmasına hazırkı yanaşma Azərbaycanın memarlıq irsinin tipoloji zənginliyini hərtərəfli göstərməyə imkan verir.

Azərbaycanın memarlıq abidələri beş şöbəyə bölünür: şəhərsalma, mülki memarlıq, hərbi memarlıq (bu halda yalnız müdafiə tikililəri), dini, memorial memarlıq. Hazırkı tədqiqat son dörd şöbənin öyrənilməsi ilə məhdudlaşır.

# II FƏSİL

# MÜLKİ MEMARLIQ VƏ MÜDAFİƏ TİKİLİLƏRİ

## § 1. Yaşayış məskəni

Yaşayış məskəni – hər bir xalqın mədəniyyətində məişətin ən mühüm tərəflərindən biridir və buna görə də təsadüfi deyil ki, o, memarlıq, etnoqrafiya, tarix, arxeologiya, coğrafiya, incəsənət elminin tədqiqat obyektidir. Yaşayış məskəninin inkişafına bir çox amillər, ilk öncə etnik, coğrafi və sosial-iqtisadi amillər təsir göstərir. Tarixi planda sosial və iqtisadi amillərlə müqayisədə ilk iki amilin nisbətən sabitliyi müşahidə olunur. Sosial və iqtisadi amillərin inkişafı və dəyişməsi yaşayış məskəninin inkişafında özünü əhəmiyyətli dərəcədə büruzə verir.

Yaşayış məskəninin dəfələrlə dəyişikliklərə məruz qalmağına baxmayaraq, o, ümumilikdə hər bir müəyyən bölgədə özünə xas olan xüsusiyyətləri və uzun müddət ərzində yaranmış və nəsildən-nəslə ötürülən ənənələri qoruyub saxlayır. Azərbaycanın xalq yaşayış məskənlərinin mövcud olduğu dövrə qədər nəzərdən keçirilən material XVII və XX əsrin əvvəllərinə aid olan və dövrümüzə qədər gəlib çatmış tikililərə əsaslanır. Yuxarıda qeyd edilənləri nəzərə alaraq, müzakirə edilən material yüzilliklər ərzində yaranan tikinti ənənələri barədə məlumatın daşıyıcısıdır ki, bu da öz növbəsində xalq yaşayış məskəninin tarixi təşəkkül prosesini müəyyən etməyə imkan verəcək.

İnsan tərəfindən yaradılan ilk tikili soyuqdan, pis havadan qorunmaq və heyvanlardan müdafiə olunmaq üçün nəzərdə tutulan yaşayış evidir. Yaşayış evi həm də insanın gələcək memarlıq fəaliyyətinin əsas nöqtəsi olan, memarlıq təfəkkürünün ilk məhsuludur.

Mədəniyyətin inkişafı, bununla bərabər isə yeni tələblərin meydana gəlməsi - inşasına yaşayış yerinin tikinti ənənələrinin təsir göstərdiyi yeni tikililərin olmasını öz həlli üçün tələb edir. Yaşayış məskəninin inkişafı ilə etnik və coğrafi amillər hər bir müəyyən etnos üçün onun yaşadığı ərazidə tikinti ənənəsi şəklində formalaşan müəyyən istiqaməti və səciyyəvi xüsusiyyəti yaradır. Formalaşmış tikinti ənənəsi zamanla xalq yaşayış məskənlərinin inşasında istiqamətverici üsluba çevrilir. Digər memarlıq binalarının və tikililərinin yaradılmasında qeyd olunan üslubdan istifadə bu və ya digər xalqın memarlığında milli üslubun formalaşmasına köməklik göstərir. Bu, yalnız tikinti texnikası, materialı və konstruksiyası sahələri ilə məhdudlaşmayan memarlıqda xalq yaşayış məskəninin öyrənilməsinin böyük əhəmiyyətə malik olduğunu göstərir. Yaşayış məskəninin formalaşması, tədqiq edilən

bölgə və ya xalq üçün onun məlum olan tiplərinin yaranmasına təsir göstərən sosial, etnik, coğrafi səbəblərin nəzərdən keçirilməsi həmçinin vacib əhəmiyyətə malikdir.

İstər memarlıq, istərsə də etnoqrafiyada yaşayış məskəninin öyrənilməsi zamanı əsas məsələlərdən biri tipologiya ilə bağlı məsələlər idi [49, səh.4]. Lakin bu məsələnin həlli etnoqrafiyada və memarlıqda fərqlidir.

Bu, bir sıra səbəblərlə izah olunur, bunlardan biri memarlıqda və etnoqrafiyada tip anlayışının (bundan əvvəl nəzərdən keçirilmişdir) izah edilməsinin fərqli olmasıdır. Yaşayış məskəninin təsnifatı onun ictimai inkişafının müxtəlif tarixi dövrlərində dəyişməsinin qanunauyğunluqlarının dərk edilməsinin zəruri vasitəsidir. "Digər mədəniyyət sahəsi kimi, yaşayış məskəninin də təsnifatının öyrənilən hadisənin dərk olunmasının vacib hissəsi olduğunu, bunun da onun forma və xüsusiyyətlərinin bütün müxtəlifliyini ümumiləşdirməyə və müəyyən əlamətlər (bölmənin əsasları) yolu ilə sistemə daxil etməyə imkan verdiyini" qeyd edən tədqiqatçıların əsərlərində bu anlayış öz əksini tapır [50, səh.31].

Orta əsr Azərbaycanında sosial-mədəni həyat tərzi yaşayış məskəninin inkişafını stasionar və qeyri-stasionar yaşayış məskəni ilə səciyyələndirilən iki sərbəst istiqamətdə şərtləşdirmişdir.

Qeyri-stasionar yaşayış məskəni stasionar yaşayış məskənləri kimi, onun yaradıcılarının funksional tələblərinin ifadə olunması, qısamüddətli və ya mövsümi yaşamaq üçün nəzərdə tutulan qeyri-stasionar tikililərinin böyük qrupunun bir hissəsidir. Onlar maldarlıqla məşğul olan və öz əməyinin səciyyəsinə görə yarımoturaq həyat tərzi keçirən əhali tərəfindən tikilirdi. Qeyri-stasionar tikililər həmçinin tədbirlərin keçirilməsi, eləcə də "saray" evləri kimi qısamüddətli istirahət zamanı hökmranlıq edən zadəganlar üçün yaradılırdı, bu da daha çox Hülakülər sülaləsinin hökmdarlarına məxsus idi.

Elmi ədəbiyyatda qeyri-stasionar tikililərin arxitektura fəaliyyətinin növü kimi qəbul olunmadığı bir fikir mövcuddur. Bu fikirdə, "arxitekturanın yaranması üçün tikilinin obrazı, onun davamlılığı ideyası, landşafta daxil olması kimi şərtlərin birləşməsinin tələb olunduğu qeyd edilir. Bunların birləşməsi üçün isə daha bir şərt lazım idi: arxitektura oturaq həyat tərzinin bərqərar olmasından daha öncə meydana gələ bilməzdi" [51, səh.10]. Bu yanaşma müzakirələrin yaranmasına səbəb ola bilər, çünki "müasir tarix, arxeologiya və etnoqrafiyada köçəri xalqların ictimai quruluş və idrak xüsusiyyətlərini səciyyələndirən anlayış kimi "köç mədəniyyəti" termini möhkəmlənmişdir" [52, səh.12].

D.Maydar və D.Pürveyevanın "Köç memarlığından səyyar memarlığa" monoqrafiyasında söylənilən fikirlə razılaşmaq lazımdır: "bir halda ki, arxitektura cəmiyyətin maddi və mənəvi mədəniyyətinin bir hissəsidir, bizim köç memarlığı haqqında köç mədəniyyətinin elementlərindən biri kimi danışmaq haqqımız var" [52, səh.12]. Bu halda söhbət çadır və ya

daxmalardan getmir, ağacdan ucaldılan mühəndis təfəkkürünün tikililərini qeyd etmək lazımdır. Qısamüddətli yaşayış üçün kiçik müvəqqəti tikililərlə yanaşı, hökmdarların ehtiyacları üçün çoxkameralı tikililər ucaldılırdı. XIV əsr fars tarixçisi Vassafın təsvirinə görə, "onun üstündəki səma (alaçıq - R.B.) türkmən köçərisinin alaçığını xatırladırdı" [53, səh.64]. Məgər bu ideyalardan, ağacdan və yapışdırılmış oduncaqdan hazırlanmış konstruksiyalardan bu gün istifadə olunmur? Lakin əgər tikintisi böyük xərc və zaman tələb edən qeyri-stasionar sökülüb-quraşdırılan səyyar yaşayış evi, hökmdarların çoxkameralı monumental alaçıqları barədə söhbət gedirsə, onda onları memarlıq və mühəndis təfəkkürünün məhsuluna məxsus olan tikililər hesab etmək lazımdır. Bu gün, müasir memarlıqda – qısamüddətli istifadə üçün qurulan səyyar tikililər və konstruksiyalar onun bölmələrindən birini təşkil edir.

Qeyri-stasionar yaşayış məskəninin inkişafı onların istifadəsinin uzunmüddətliliyi ilə şərtlənən iki istiqamətdə baş verirdi: qısamüddətli və mövsümi yaşama üçün yaşayış məskəni. Qeyri-stasionar yaşayış məskəninin inkişafının ümumi sxemini aşağıdakı şəkildə təqdim etmək olar:

- Qeyri-stasionar yaşayış məskəni
- Qısamüddətli yaşama üçün yaşayış məskəni
- Mövsümi yaşama üçün yaşayış məskəni
- Talvarlar, çadırlar, alaçıqlar
- Əvvəlcədən hazırlanmış taxta-gövdəli struktura malik sökülüb-quraşdırılan qurğular.

Qeyri-stasionar yaşayış məskəni ilə müqayisədə, inkişafını birkameralı, sonra isə çoxkameralı yaşayış evinin təşəkkül tapması, sonrakı tərəqqisi ilə təyin etmək mümkün olan stasionar yaşayış məskənində daha mürəkkəb və uzun sürən təkamül baş vermişdir. Stasionar yaşayış məskəninin meydana gəlməsi və sonrakı təkamül dəyişikliyi sosial-iqtisadi və ictimai şəraitin dəyişməsi ilə şərtlənir. Tarixən birkameralı yaşayış evi çoxkameralıdan daha çox üstünlüklərə malikdir, lakin buna baxmayaraq, sonralar onlar birlikdə mövcud olub və inkişaf etmişdirlər. Stasionar yaşayış məskəninin ümumi sxemini aşağıdakı qaydada müəyyən etmək olar:

- Stasionar yaşayış məskəni
- Birkameralı yaşayış evi
- Çoxkameralı yaşayış evi
- Birkameralı yaşayış evinin müxtəlif növləri
- Çoxkameralı yaşayış evinin bir çox müxtəlif növləri

Əgər birkameralı yaşayış evi çərçivəsində onların müxtəlif variantları konstruktiv xüsusiyyətlər yolu ilə təyin edilirsə, çoxkameralı yaşayış evində planlaşdırmanın variantlarının sayı artır və növlərin geniş müxtəlifliyi ilə təyin edilir.

Azərbaycan ərazisində ən qədim yaşayış məskənləri Tovuz rayonunun Qovlər qəsəbəsi yaxınlığındakı Göytəpə kəndində eramızdan əvvəl V-VI minilliklərdə çiy kərpicdən ucaldılmış tikililərin qalıqları hesab olunur. Erkən orta əsrlərə aid yaşayış məskənləri sırasında Örənqalada aşkar olunmuş IX-X və XII-XIII əsrlərə aid yaşayış evlərinin qalıqlarını göstərmək lazımdır [55, səh.51]. XII-XIII əsrlərin Örənqala yaşayış məskəni daxili həyəti olan çoxkameralı struktura malik idi, bu yaşayış məskəninin səciyyəvi xüsusiyyəti mənzillərin yarımzirzəmi şəklində yerləşməsi idi [54, səh.55].

Azərbaycanın xalq yaşayış məskənlərinin öyrənilməsinə çox sayda elmi ədəbiyyat həsr olunmuşdur ki, burada onlar ayrıca təbii-iqlim regionları üzrə olduğu kimi, bütün ölkə üzrə də nəzərdən keçirilir. Məlum faktik material əsasında yaşayış məskəninin ümumi tipoloji təsnifatı buraya monumental saray tikintisini və qeyri-stasionar yaşayış məskənini daxil etməklə verilir. Tipoloji təsnifat üçün əsas kimi konstruktiv və kompozisiya xüsusiyyətlərinin bu və ya digər üslub çərçivəsində növ müxtəlifliyini müəyyən etdiyi bina və tikililərin həcmi-fəza strukturu seçilir.

## Birkameralı yaşayış evləri

Xalq tikintisində ta qədimdən bəri məlum olan, əhalinin kasıb təbəqəsinə mənsub olan birkameralı yaşayış evi üslubu XVIII əsrin sonunadək yayılmışdır. Bu, tipoloji qrupun ilk nümunəsi “qazma-qaradam” – dağ yamaclarında qazılan çuxurlarda yaradılan, divarları təbii qrunt olan, mağaradan süni dam örtüyünə malik olması ilə fərqlənən yaşayış evi hesab edilə bilər [55,səh.73]. Birkameralı yaşayış evinin inkişafının növbəti mərhələsi birincidən fərqli olaraq, süni divarlara və səciyyəvi dam örtüyü konstruksiyasına malik olan “qaradam”dır.

Birkameralı yaşayış evlərinin tipoloji qrupunda maraqlı növ müxtəlifliyini xalq arasında “günbəzli ev” kimi tanınan, XVII-XVIII əsrlərdə Gəncədə yayılmış evlər təşkil edir. Bu yaşayış evlərini elmi ədəbiyyatda yer tutan sərbəst tipoloji qrupa ayırmaq lazım deyil. Onlar öz planlaşdırma xüsusiyyətlərinə görə birkameralı yaşayış evləri üslubuna aid edilməli, ya da otaqların bircərgəli yerləşdiyi çoxkameralı ev üslublarının otaqlarından birini təşkil etməlidir, məsələn: Gəncə şəhərindəki (əvvəllər Komsomol küç. 24a; Əzizbəyov küç. 168-də yerləşən) çox təəssüf bizim dövrümüzə qədər gəlib çatmayan “günbəzli ev” yaşayış evi. Günbəzşəkilli evlər kvadrat və ya düzbucaq planlaşdırma əsasına malikdir ki, onların günbəzşəkilli konstruksiyasının səciyyəsi bundan asılıdır. Gəncənin kvadrat planlı yaşayış evlərinin günbəzləri dörd tağdan ibarət daşdan yonulmuş çatma tağ konstruksiyaya malikdir, onların kəsişməsindən yaranan kvadratın üzərində kiçik günbəz ucaldılır (Gəncə şəhəri, Vorovski küç. 8-də yerləşən yaşayış evi). Düzbucaq planlı evlər

çox sayda köndələn tağlara malikdir və iki cür əyri örtüklü elementlərin təkrarlanması ilə fərqlənir [56, səh.65-66].

Günbəzli evlərə həm də Türkmənistanda, Şərqi Xorasanda, Şimali Əfqanıstanda rast gəlinir [57, 58]. Beləliklə, artıq XI-XIII əsrlərdə Mərv şəhərinin bir çox yaşayış evləri günbəzşəkilli örtüklərə malik idi [57, səh.26]. Onların müqayisəli şəkildə nəzərdən keçirilməsi günbəz örtüklü yaşayış evlərinin ucaldılma səbəbinə aydınlıq gətirməyə kömək edəcək.

Meşənin olmamasından əlavə, yaşayış evlərinin günbəz üslubunda örtülməsini doğuran digər səbəblər də var. Məsələn, meşə olmayan Abşeronda evlər tağtavan ilə örtülürdü.

Q.P.Vasilyeva Türkmənistanın günbəzşəkilli evləri ilə bağlı genezisi nəzərdən keçirərkən (araşdırarkən) hesab edir ki, "günbəzşəkilli evlərin ucaldılması ənənələrinin daşıyıcıları qədim türkdilli (ola bilsin ki, qismən farsdilli) əhalinin nəsilləri olmuşlar..." [58, səh.205] və onların mənşəyini qamışdan ucaldılmış günbəzşəkilli tikililərlə bağlamağı tələb edir [58, səh.206]. İ.V. Nilsen qeyd edir ki, günbəzşəkilli evin yayılması oturaq həyata keçən xalqlarda köçəri həyat ənənəsinin qorunub saxlanması ilə bağlıdır, həmçinin "əlverişsiz iqlim şəraitlərinin mülayimləşdirilməsi üçün ayrı-ayrı memarlıq formalarından istifadə etmək bacarığını" da sübut edir [59, səh.39]. Artıq qeyd olunduğu kimi, günbəz digər həndəsi cisimlər ilə müqayisədə günəşlə ən az şüalanma səthinə malikdir.

Nəzərdən keçirilən yaşayış evlərinin birkameralı tipoloji qrupu daxilində növü kimi birkameralı ant üslublu evlərini də ayırd etmək lazımdır. Həmin evlərə Gəncə şəhəri, Nizami küç. döngə 5-də yerləşən 33 saylı evi misal göstərmək olar.

Bəzi birkameralı yaşayış evlərinin girişi qarşısında Azərbaycandakı yaşayış evlərinin əksəriyyəti üçün səciyyəvi olan eyvan var idi. Eyvanın meydana gəlməsini geniş, işıqlı otaqlara ehtiyacı olan ev-məişət işlərinin və sənətlərin sonrakı inkişafı ilə əlaqələndirirlər [55, səh.77].

Birkameralı yaşayış evinin təsnifatı zamanı onun "qazma-qaradam"dan "otaqlı ev"ə, yəni qazmadan yerüstü düşünülmüş evə qədər tədrici inkişafı izlənilir, bunun nəticəsində daxili görünüşün dəyişməsi, təndirin mənzildən kənarda inşa edilməsi, pəncərələrin yaranması və s. baş verir. Birkameralı yaşayış evinin göstərilən təkamülü şübhəsiz, sosial və mədəni həyat tərzinin inkişafı ilə bağlıdır.

## Çoxkameralı yaşayış evləri

**1. Otaqları bir cərgədə yerləşən yaşayış evi üslubu**

Bu tipoloji qrupda yaşayış evlərinin planlaşdırılmasının üç variantını qeyd etmək olar [13, səh.52]: bina oxu boyunca uzununa yerləşən mənzillər; əsas ox boyunca qarışıq, daha doğrusu uzununa və köndələn yerləşən otaqlar; bina oxu boyunca köndələn yerləşən otaqlardan ibarət evlər.

Əlverişli istiqamətlənməyə yardım edən bircərgəli bloka salınma bir neçə, əksər hallarda iki və ya üç otaqla həyata keçirilirdi, belə ki, həddən artıq uzun olan bloka salınma birindən digərinə eyvan və yaxud açıq qalereyanın köməyi ilə bilavasitə mövcud olan mənzillər arasında əlaqəni pisləşdirirdi.

Bu tipoloji qrupda həmçinin mənzillərin bircərgəli, lakin perpendikulyar oxlar boyunca yerləşdiyi "Г" və "П" şəkilli yaşayış evlərini ayırd etmək lazımdır, Abşeron [60, səh.148] və Lahıcda [61, səh.12] çox sayda bu cür yaşayış evlərinə rast gəlinir.

Hazırkı tipoloji qrupun növbəti növ müxtəlifliyini mənzillərin (otaqların) (iki və ya üç) bircərgəli yerləşdiyi ant tipli yaşayış evləri təşkil edir, burada ant üslublu yaşayış evlərinin irəli çəkilməsi yolu ilə mənzillərin qarşısında eyvan meydana gəlmişdir. Bu tikili üslubu əksər hallarda iki anta malik idi. Elmi ədəbiyyatda əsasını yay otağı səciyyəsini təşkil edən ant üslublu evlərin ətraflı təsnifatı verilir.

**2. İkicərgəli yaşayış evləri**

Yaşayış evlərinin bu cür üslubu əksər hallarda iki mərtəbədə yerləşən, çox sayda yaşayış mənzilləri tələb edən şəhər əhalisinin imkanlı təbəqəsinə xidmət göstərirdi. Yaşayış evlərinin bu üslubunun meydana gəlməsini elmi ədəbiyyatda XIX əsrin əvvəlinə aid edirlər [13, səh.64;12,səh.152]. "Hər bir yaşayış evi üslubu uzun sürən təkamülün nəticəsidir" kimi prinsipindən çıxış edərək [12, səh.152], belə güman etmək olar ki, mənzillərin ikicərgəli yerləşdiyi yaşayış evi tipi XIX əsrdə meydana gələ bilməzdi, onun yaranma prosesi bir qədər əvvəl, XVIII əsrdə, şəhərlərin xanlıqların mərkəzləri kimi müəyyənləşdiyi və formalaşdığı vaxtda baş vermişdir. İkicərgəli yaşayış evlərinin yaranmasının ilkin mərhələsi onların feodallar tərəfindən istifadəsindən öncə, sənətkar və ya tacirin fəaliyyətinin "çox vaxt emalatxana və ya dükanın yardımçı yerlərlə bilavasitə əlaqəsini tələb edən" (buna bircərgəli tikilidə həmişə nail olunmurdu) yaşayış evində baş verirdi [61, səh.11]. Nəzərdən keçirilən mənzillərin ikicərgəli yerləşdiyi yaşayış evləri XIX əsrə aiddir, çünki, daha erkən dövrlərə aid yaşayış evləri bu günə qədər gəlib çatmamışdır. Lakin daha öncə qeyd olunduğu kimi, onlar əvvəllər mövcud olmuş yaşayış evlərinin ənənələrinin varisləri və daşıyıcılarıdır.

Nəzərdən keçirilən yaşayış evi üslubu arasında Şuşada Əsəd bəy və Natəvanın mərtəbələrin birində qəbul zalı kimi istifadə edilən "T"-şəkilli mərkəzi özəyə malik olan yaşayış evləri (hər ikisi XIX əsrə aiddir) maraqlı növ müxtəlifliyi təqdim edir. Hərçənd ki, bu yaşayış evləri XIX əsrə aid edilir, "T"-şəkilli mərkəzi özəyin yaranmasını bu dövrə aid etmək lazım deyil, çünki, həmin mərkəzi özək XVIII əsrin memarlıq abidəsi olan Şəki xanları sarayında da mövcuddur. "T"-şəkilli mərkəzi özəyə aid genezis ilə əlaqədar olaraq bu formanın Yaxın Şərqdə (Dəməşq, Hələb, Qahirə) yayılmış və ədəbi mənbələrdə "qala" adlandırılan yaşayış evləri, təntənəli həyəti ilə qarşılıqlı əlaqəli olması barədə fikir irəli sürülmüşdür [13, səh.57]. Bu yaşayış evləri, həmçinin tağlı mənzillərin – lociyaların üç tərəfdən kvadrat günbəzşəkilli və ya tağlı zala (giriş həyətinə) birləşdirilməsi yolu ilə yaranan "T"-şəkilli özəyə malikdir.

Eyvandan "T"-şəkilli mərkəzi özəyin əmələ gəlməsi yolunu aşağıdakı şəkildə izah etmək olar. Yaşayış evinin eyvanı üç tərəfdən mənzillərlə əhatə olunan "P"-şəkilli plan strukturu yolu ilə "daxil"ə əlavə edilir. Küncdəki mənzillərin eyvanla əlaqəsi üçün, ona köndələn olan mənzillərin təcrid olunmasını qoruyub saxlamaqla, qeyd edilənlər köndələn ox boyunca qısaldılır və "T"-şəkilli mərkəzi özəyin yaranmasına yardım edir ki, bu da Natəvanın və Əsəd bəyin Şuşadakı yaşayış evlərində yaxşı izlənilir.

### 3. Həyət kompozisiyalı yaşayış evləri

Nəzərdən keçirilən yaşayış evləri üslublarından fərqli olaraq, bu tipoloji qrupda evlər mənzillərin (otaqların) kiçik sahə perimetri üzrə yerləşməsi yolu ilə yaranan daxili həyətin olması ilə seçilir. Həyəti əhatə edən (bağlayan) mənzillərin (otaqların) yerləşməsindən asılı olaraq, həyət kompozisiyalı yaşayış evlərinin iki müxtəlif növünü ayırd etmək olar. Birinci növdə yaşayış mənzilləri yerdə qalan hissənin divarla tamamlandığı həyətin perimetri boyunca "Г", "П" şəklində yerləşirlər. Bu üslub, aşağıdakı tikililərlə səciyyələnir: Ordubad şəhəri, Bağırova küçəsində yerləşən 4 saylı yaşayış evi (XVIII əsr); Bakıdakı Mehralı bəy, Əbdürrəhim bəy, Mehdiqulu bəyin yaşayış evləri (hamısı XVIII əsrə aiddir). İkinci növdə, sahibin yaşayış mənzilləri və xidmət göstərən işçi heyətinin otaqları ilə olan xidməti mənzillər həyətin qarşı-qarşıya-üzbəüz tərəflərində yerləşirlər, mənzillərdən ayrı olan iki tərəf divarla kifayətlənir. Hazırkı həyət kompozisiyası öz aralarında bağ ilə ayrılan iki funksional, giriş və xidməti zonaların dəqiq paylanmasına yardım edir. Həyət kompozisiyalı yaşayış evinin bu üslubu üçün səciyyəvi olan planlaşdırma XVII əsr Cənubi Azərbaycandakı yaşayış evlərində və Bakı xanının sarayında (XVIII əsr) dəqiq ifadə edilmişdir.

Əhalinin nəinki kasıb, eləcə də varlı təbəqələrinin kənd və şəhər üslublu yaşayış evlərinin aid olduğu xalq yaşayış məskəninin nəzərdən keçirilən təsnifatı yaşayış evlərinin

mövcud üslublarını və onların növ müxtəlifliyini müəyyən etməyə imkan vermişdir. Burada tədqiq olunan material ümumilikdə bütün Azərbaycan üzrə müzakirə edilirdi. Bu, planlaşdırma strukturuna əhəmiyyətli dəyişiklik gətirmədən təbii-iqlim və yerli ənənəvi xüsusiyyətlərin fasadlar, interyerlər, yay evlərinin həllinə, tikinti konstruksiyalarına təsir göstərdiyi Azərbaycanın hüdudlarında yaşayış məskəninin tipoloji ümumiliyini təyin etməyə imkan vermişdir.

Eyni yaşayış səviyyəsinə malik olan əhalinin şəhər və kənd üslublu yaşayış evi öz aralarında nəzərə çarpacaq dərəcədə fərqlənmirdi, bu barədə A.fon Qaksthauzenin Bakıdakı yaşayış evlərinin təsvirlərinə əsasən mühakimə yeritmək olar:

"...Kiçik buxtanın ortasında qara qatranla örtülmüş yastı damlı, hamısı divarlarla əhatə olunmuş külli miqdarda qarışıq boz rəngli evlər təqdim olunur". Küçəyə tərəf açılan pəncərə yoxdur. Bütün daxili tərəfləri həyətə və ya bağa doğru istiqamətlənən evlər qeyri-şəffaf taxta qəfəsdən ibarətdir, bu qəfəsdən ayrı-ayrı hissələr kənara çıxır və bu yolla yaranan oyuqlar pəncərələri və qapıları təşkil edir [12, səh.174].

Azərbaycandakı yaşayış evlərinin əksəriyyəti mənzillərin tərkib səciyyəsinə görə bir və ya bir neçə yaşayış otaqlarından ibarətdir. Lakin ayrı-ayrı coğrafi bölgələrdə tərkibində yaşayış otaqlarından əlavə, digər otaqlar, məsələn: mətbəx, dəhliz, vanna otağı da olan yaşayış evləri yaranırdı. Həmin otaqların mövcudluğu göstərilən yaşayış evlərinin arxitekturasının tədqiqatında sərbəst üslublara aid edilməsinə səbəb olmur, halbuki etnoqrafiyada onlar ayrıca yaşayış evi üslublarını təşkil edə bilər.

Ordubadın yaşayış evlərinin səciyyəvi xüsusiyyəti vestibülün olmasıdır. Vestibülü olan yaşayış evləri həyətli kompozisiyaların (Bağırova küçəsindəki 4 saylı yaşayış evi) tipoloji qrupunda və ya bircərgəli evlər qrupunda növ müxtəlifliyini təşkil edə bilər. Vestibüllər planlaşdırma xüsusiyyətlərinə görə düzbucaqlı və səkkizbucaqlı ola bilər, onların üstündə bəzi hallarda "bala-xana" (qonaqlar üçün otaq) yerləşirdi. Səkkizbucaqlı vestibüllər küçə ilə birbaşa əlaqəyə malik idi və zəngin bəzədilmiş portalla tərtib olunurdu (Bağırova küçəsindəki 4 saylı yaşayış evi). Düzbucaqlı vestibüllər yaşayış otaqları arasında bir cərgədə yerləşirdi və eyvanla əlaqəyə malik idi (Ordubad rayonu, Yuxarı Əylis kəndindəki Məmmədov Məmmədəlinin yaşayış evi). Vestibül bölüşdürücü rolunu oynayır və yaşayış evinin dəqiq funksional bölgüsünə və otaqların təcrid olunmasına kömək edir.

Azərbaycanın digər rayonlarındakı yaşayış evlərindən fərqli olaraq, Abşerondakı yaşayış evlərinin səciyyəvi xüsusiyyəti ocaq və təndirin yerləşdiyi mətbəxin ayrıca bir otaq kimi ayrılmasıdır, bunu tez-tez əsən küləklər və yanacaq qıtlığı ilə əlaqələndirirlər [12, səh.175]. Abşeronun yaşayış evlərinin digər səciyyəvi fərqi su novu ilə təchiz edilmiş Xanəgahlar üçün nəzərdə tutulan taxçaların olmasıdır [60, səh.150].

Azərbaycanın tədqiq edilən dövrə aid olan yaşayış evləri eyvanı olan və ya olmayan yay evlərinin səciyyəsi ilə də fərqlənirlər. Məsələn: Gəncənin yaşayış evlərində eyvanın yaranması daha sonrakı dövrlərə aid edilir və bu, "bəlkə də evlərin planlaşdırılmasına əlavə edilən yeganə dəyişiklikdir" [56, səh.68]. Abşeronda eyvanın olmaması açıq meydança ilə əvəzlənirdi.

Yaşayış evinin genişləndirilməsi və dəyişməsi, həm də ailənin sosial-demoqrafik səciyyəsindən asılı idi. Adətən ailə üzvlərinin artması, yeni ailənin yaranması ilə yaşayış evinin genişləndirilməsi bəzi hallarda əlavə otaqların inşa edilməsi vasitəsilə baş verirdi. XIX əsrdə Quba rayonunun Xaşi kəndində "qoşa ev"in yaranması sosial səbəblərlə əlaqəlidir və etnoqrafiya baxımından maraq kəsb edir. Həmin evin özünəməxsus xüsusiyyəti evin (yaşayış və yay otaqları) köndələn divarla iki hissəyə bölünməsi və iki ailənin ayrıca otaqlarda yaşaması idi. İki hissəyə ayrılan bu cür yaşayış evləri üslubuna Bolqarıstanda da "ikiqat" və ya "qardaşlıq" adı altında rast gəlinir ki, burada evin bir hissəsi onun digər yarısını təkrarlayır [62, səh.35]. Geniş ailəli yaşayış evinin yaranması Azərbaycanda olduğu kimi, Bolqarıstanda da memarlıq baxımından yeni tip yaşayış evlərinin yaranmasına gətirib çıxarmamışdır.

Deyilənlərə yekun vuraraq, Azərbaycanın yaşayış evlərinin məlum üslublarının yaranması və onların dəyişməsi təkamülünü göstərəcək sxemi təklif etmək olar.

## Saray yaşayış evi

Saray komplekslərinin mütləq komponenti olan saray yaşayış tikililərinin inşası aparılan tədqiqatda xalq yaşayış məskənlərindən və feodalların yaşayış evlərindən ayrılmışdır, çünki, öz planlaşdırma strukturu və təyinatına görə onlar birincilərdən daha çox fərqlənirlər. Saray yaşayış tikililəri hökmdarlar tərəfindən qalalar, şəhərlər, yay iqamətgahlarında tikilirdi və malik olduqları əhəmiyyətdən asılı olaraq, bu və ya digər ölçüləri və memarlıq həllini əldə edirdilər. Ən hündür hissələrdə yerləşən Əlincə qalası və Şamaxı yaxınlığındakı Gülüstan qalasında [63, səh.44-49] saraylar mövcud idi. Gülüstan qalasının saray yaşayış evi hər hansı qanunauyğunluğa tabe olan otaqların dəqiq təşkil olunmuş yerləşmə sisteminə malik deyildir [11, səh.57]. Əlincə qalasının saray yaşayış binası "səciyyəvi çarpazşəkilli planı və böyük pəncərələri, eləcə də otaqları və qonaq otaqlarını xidməti otaqlarla birləşdirən dar dəhlizləri olan" mənzillərə malik idi[11, səh.70].

Mövcud olmaları barədə ədəbi mənbələrdə məlumatın göstərildiyi Elxanilərin hökmranlığı dövründə sarayların böyük qismi müxtəlif yerlərdə inşa edilirdi[64, səh.190,191].

Təbrizdə mövcud olan çoxsaylı saray tikililəri arasında [65, səh.165-166] ən böyüyü 1434-ci ildən 1478-ci ilə qədər [65, səh.199]. Sahidabad meydanı yaxınlığında inşa edilmiş "Həştbehişt" sarayı idi. 1506-cı ildə Təbrizə səfər edən adı məlum olmayan italyan səyyah

sarayı belə təsvir edir: "Mən böyük sultan Əssam bəy (Ağqoyunlu hökmdarı Uzun Həsən R. B) tərəfindən ucaldılmış möhtəşəm saray barədə danışmadan keçə bilmərəm. Şəhərdə onun sələfləri tərəfindən ucaldılmış çox sayda böyük və gözəl tikililərin olmasına baxmayaraq, bu təqlidedilməz saray hələ uzaq məsafədən onların hamısını geridə qoyur" [12, səh.100]. "Həştbehişt" sarayı səkkizbucaqlı planlaşdırmaya malik idi və hər bir tərəfində səkkiz otaq yerləşirdi [65,səh.199]. Bu saray, öz arxitektura-planlaşdırma həllində İsfahandakı "Həştbehişt" saray pavilyonunun (XVII əsr) memarlıq sələfi ola bilən səkkizbucaqlı mərkəzi-günbəzşəkilli tikilini əks etdirirdi.

Qorunub saxlanmış saray yaşayış tikilisinə Şirvanşahlar sarayı (XIII-XV əsrlər) ansamblına daxil olan sarayın binası aiddir, onun tikintisinin müxtəlif vaxtlarda aparılması planın mürəkkəb konfiqurasiyası və otaqların özünəməxsus yerləşməsində iz buraxmışdır [11, səh.190]. Tikinti işləri aparıldıqca digər mənzillərin (otaqların) birləşdiyi və vestibül kimi çıxış edən mərkəzi səkkizbucaqlı zal ən qədim hissədir [11, səh.190]. Səkkizbucaqlı vestibül Ordubaddakı yaşayış evlərinin vestibülləri ilə bənzərlik təşkil edir, hazırkı ənənənin saray tikintisinə xalq yaşayış yerlərindən keçdiyi ehtimal olunur. Saray, planda mürəkkəb cizgiyə sahib olmaqla bəzi planlaşdırma xüsusiyyətlərinə malikdir. Birinci və ikinci mərtəbələrin uyğunluğu (birinci xidməti, ikinci isə giriş üçün nəzərdə tutulmuşdur); mərkəzi zal-vestibülün ayrılması; planın münasib olması, bu da otaqların çox işıqlandırılması ilə izah edilir [11, səh.190,191].

Təxti Süleymaniyyə şəhərində Elxanilər dövrünün saray səciyyəli tikililəri mövcud idi. Onlardan biri atəş məbədindən qərb tərəfdə yerləşməklə mərkəzi-günbəzşəkilli planlaşdırmaya malik idi. Burada mərkəzi zala mərkəzi ox üzrə taxt-tac salonu birləşirdi. Böyük ehtimala görə, həmin saray Elxanilərin yaşayış və onların qəbul zalı kimi xidmət göstərmişdir.

D.Uilber Təxti Süleymanda monumental tağlı zalın qorunub saxlanmış xarabalıqlarının sarayın Abaqa xan (1265-1281) tərəfindən bərpa-təmir işlərinin aparıldığı taxt-tac zalı (salonu) olduğunu hesab edir [64, səh.112]. Tağlı zalın xarabalıqlarının sarayın bir hissəsi olduğunu güman edərək, bu sarayın Sasanilər üslubu üzrə, yəni binanın mərkəzi oxu üzərində tağlı zal-eyvan yerləşməklə, tikildiyini hesab etmək olar.

Göstərilənlərdən əlavə, daha sonrakı dövrlərə aid iki kiçik saray həmçinin qorunub saxlanmışdır. Bunlar öz planlaşdırmasında xalq yaşayış evinin arxitekturasını əks etdirən Ağdamdakı Pənah Xan imarəti (XVIII əsr) və Bakıdakı Xan sarayıdır (XVIII əsr).

Bütün göstərilən saray yaşayış tikililəri öz arxitektura-planlaşdırma həllində təşkil etdikləri tipoloji qrupun genişliyini göstərməklə, müxtəlif üslubları təqdim edir. Həmin qrup aşağıdakı şəkildə təsnif edilə bilər:

— mərkəzi günbəzşəkilli zalı olan saraylar (Təxti Süleymandakı saray, Təbrizdəki "Həştbehişt" sarayı);
— mürəkkəb plan konfiqurasiyasına malik olan saraylar (Bakıdakı Şirvanşahlar sarayı, Əlincə qalasındakı Gülüstan qalalarındakı saraylar, Bakı xanının sarayı), burada ayırıcı dəhlizə malik Bakıdakı xan sarayını qeyd etmək olar;
mərkəzi ox üzərində yerləşən eyvana malik olan saraylar.

## Yay saray tikililəri

Monumental saray yaşayış tikililəri ilə yanaşı, istirahət üçün nəzərdə tutulan kiçik yay tikililəri – pavilyonlar mövcud idi. İnkişaf etmiş pavilyonların inşasına qədər onlardan əvvəl bilavasitə memarlıq nümunələri deyil, ümumi təkamül zəncirində onların yalnız sələfləri olan, ağac və tekstil materiallarından ucaldılan kiçik, nisbətən davamsız tikililər mövcud olmuşdur. Orta əsrlər Azərbaycan miniatür materialları üzrə pavilyonların sələfləri müəyyən edilmişdir ki, onlar öz konstruktiv həllinə görə yaranma ardıcıllığı ilə aşağıdakı növlərə bölünür: talvar, çardaq, taxta köşk.

Talvar iki hissədən ibarət olan, bir taxta, adətən sökülüb-quraşdırılan dayaq üzərində kiçik çardağı özündə əks etdirir. Talvarın günlüyü (tenti) kiçik kölgə yaradırdı və kəndir vasitəsilə bərkidilirdi. "İsgəndər Nüşabənin yanında"[66,rəsm 30], "Oğuz qalasında məclis"[66, rəsm 34] miniatürlərində talvarlar təsvir olunmuşdur.

Çardaq talvarla müqayisədə kölgədə olan bir qədər böyük sahəni əhatə edir. Çardaq konstruktiv cəhətdən kvadratın küncləri üzrə dörd, habelə sökülüb-quraşdırılan dayaqların möhkəmləndirilməsi yolu ilə yaranmışdır ki, bu da meydanın bəzi hallarda taxt-tac yerləşən mərkəzi hissəsindən istifadəyə imkan vermişdir. Dörd dayağın üstündən, eləcə də kəndir vasitəsilə günlük dartılırdı. "Rüstəm Key-Kavus şahın yanında" [66, rəsm 20], "Oğuz xanın məclisi" və bir çox digər miniatürlərdə çardaqlar təsvir olunmuşdur.

Taxta köşk, konstruksiyasına görə öz iki sələfindən daha təkmilləşdirilmişdir (mükəmməl idi). O, dörd dayaq üzərində yastı taxta dam örtüyünə və yer səviyyəsindən bir qədər qaldırılmış döşəməyə malikdir. Bu köşkün hər dörd tərəfi açıq olmuşdur. Hazırkı üslub bir çox Azərbaycan miniatürlərində yaxşı təsvir olunmuşdur.

Bir çox miniatürlərdə təqdim olunan eyvan, istirahət üçün nəzərdə tutulmuş ilk əsaslı tikili üslubu idi. Eyvan, bir tərəfdən (ön tərəfdən) açıq olan və qarşı tərəfdən girişə malik olan tağlı tikilidir. Eyvanın döşəməsi yer səviyyəsindən bir qədər hündürlükdə olurdu və hökmdarın əyləşdiyi meydançanı əks etdirirdi.

Eyvanları planda inkişaf etmiş yay xarakterli tikililər əvəz edir ki, onları öz həllinə görə aşağıdakı şəkildə təsnif etmək olar:

Birkameralı günbəzşəkilli –açıq tərəflər ilə dairəvi və səkkizbucaqlı plana malik ola bilər (XIII əsr Taxt-i Süleymandakı pavilyon);

“T”-şəkilli – otaqların üç tərəfdən mərkəzi günbəzşəkilli zala birləşdirilməsi yolu ilə əmələ gəlir/XIII əsr Təxti Süleymandakı pavilyon/;

Çarpaz-günbəzşəkilli – Nardarandakı xanın bağ evi/XV əsr/;

Mənzillərin bircərgəli yerləşdiyi üslub - ən gec yaranmış, xalq yaşayış məskəninin cizgilərini əks etdirən tipdir. Yay tikililərinin bu tipi yeganə nümunə ilə səciyyələnir (haqlı olaraq, yay sarayı-pavilyon hesab edilən XVIII əsr Şəki xanlarının sarayı) [11, səh. 317].

**QEYRİ-STASİONAR YAŞAYIŞ MƏSKƏNİ**

Stasionar tikililərlə yanaşı, müvəqqəti yaşama üçün qeyri-stasionar tikililər də mövcud idi. Həmin tikililərin inşa edilməsinin zəruriliyi və onlardan yaşayış üçün istifadə edilməsi yarımköçəri həyat tərzi sürən insanların məişəti ilə şərtləşdirilmişdir. Başqa sözlə, həmin strukturların meydana gəlməsinə əhalinin öz daimi, stasionar yaşayış yerindən uzaqda müvəqqəti yaşaması səbəb olmuşdur.

Ağac çubuqlardan, şüvüllərdən, keçələrdən, toxuculuq məmulatlarından – davamsız “tikinti” materiallarından tikilən qeyri-stasionar yaşayış məskəni şübhəsiz ki, qorunub saxlana bilməzdi. Yaşayış məskəninin üç “əsas sevincə - günəş, yaşıllıq və məkana” [67, səh.125] cavab verən bu növünün öyrənilməsi üçün material kimi Azərbaycan miniatürləri, tarixi məlumatları, eləcə də tədqiq olunan dövrün qeyri-stasionar yaşayış məskəninin bütün xüsusiyyətlərini tam şəkildə qoruyub saxlamış XIX və erkən XX əsrin yarımköçəri yaşayış məskənindən [68, 69] istifadə edilmişdir. Bu arxaikliyin qorunub saxlanması onların orta əsr miniatürlərində müvafiq təsvirlərinin olması ilə sübut olunur.

Bu halda qeyri-stasionar tikililərin inkişafı izlənilmir, çünki mövcud olan köhnə formalar yeni tələblərə cavab verir və buna görə də həcmi-fəza strukturun təkamülü baş vermir. Ola bilər ki, inkişaf yalnız konstruktiv hissə və detallara aiddir.

Bundan əvvəl göstərilmişdir ki, qeyri-stasionar yaşayış məskənini öz dövrünün, yəni onların yayılması dövrünün memarlığı hesab etmək lazımdır. Onların memarlıq abidələri kimi qorunub saxlanmaması isə memarlıqdan daha çox, etnoqrafiyanın tədqiqat predmetidir.

Orta əsrlər Azərbaycan memarlığını və yaşayış məskənlərini tədqiq edərkən, qeyri-stasionar tikililər məsələsinə toxunmamaq mümkün deyil. Onun heç olmazsa, iki növbəti mövqedən öyrənilməsi vacibdir. Birincisi – ona görə vacibdir ki, onlardan əhalinin müəyyən hissəsi istifadə etmiş, ikincisi isə, qeyri-stasionar və stasionar memarlığın birgə mövcud olması birinin digərinə təsiri olmadan ötüşə bilməzdi. Qeyri-stasionar memarlığın monumental memarlığa təsiri qeyri-stasionar yaşayış məskəni tiplərinin qısa səciyyəvi xüsusiyyətlərinə

baxıldıqdan sonra nəzərdən keçiriləcəkdir. Artıq qeyd edildiyi kimi, qeyri-stasionar yaşayış məskəni istifadə müddətinə görə iki qrupa bölünür: birincisi – qısamüddətli yaşayış üçün nəzərdə tutulan tikililər; ikincisi – mövsümi yaşayış üçün nəzərdə tutulan tikililər. Birinci və ikinci qrupun tikililəri konstruktiv xüsusiyyətlərindən asılı olaraq bir neçə müxtəlif növə malikdir.

**Qısamüddətli yaşayış üçün nəzərdə tutulmuş tikililər**

Talvarlar bir qayda olaraq, qısamüddətli istirahət zamanı kölgə yaratmaq üçün nəzərdə tutulurdu. Talvarın üç növü mövcud idi: birdayaqlı, ikidayaqlı, dörddayaqlı, bunlar orta əsrlər Azərbaycan miniatürlərində kifayət qədər dolğun təsvir edilmişdir [66].

Çadırlar yolda dayanaraq günün işıqlı vaxtı yaşayış və gecələmək üçün nəzərdə tutulurdu. Gündüz yaşayış üçün nəzərdə tutulan çadırlar divar və dam örtüyü rolunu oynayan parça örtüklü konusşəkilli və yaxud qoşaçatılı strukturlara malik idi. Çadırları konstruktiv xüsusiyyətlərinə görə aşağıdakı növlərə bölmək olar: ikidayaqlı, yuxarı konstruktiv çarxlı birdayaqlı. İkidayaqlı çadırlar içərisində ən qədim variant "P"-şəkilli karkasın xüsusi materialla örtülməsi yolu ilə yaradılan "kolux" [55, səh.121] adlı çadırdır. "Kolux" çadırı monqol çadırı olan "mayxan"la [70, səh.83] oxşardır. Sonralar çadır təkmilləşdirilir, dam örtüyü yerdən açılır, konstruktiv baxımdan yuxarı konstruktiv çarxlı birdayaqlı sistemə malik, parça çəpərləmədən ibarət çadır meydana gəlir. Parça səthlər, talvarların və çadırların çəpərləri kəndir vasitəsilə dartılırdı.

**Mövsümi yaşayış üçün nəzərdə tutulmuş tikililər**

Bu qrupdan olan tikililər birinci qrupdakılardan fərqli olaraq, daha uzunmüddətli yaşayış üçün nəzərdə tutulmuşdur, buna görə də "dəyə" və "alaçıq" adlı iki üsluba bölünən davamlı karkas struktura malik idilər. Bu tiplərdən hər birinin daxilində kiçik konstruktiv fərqləri olan bir neçə müxtəlif növ var.

Dəyə. Uzunluğu 3-5 m olan çubuqdan düzəldilən dəyələrin dörd növü məlumdur. Dəyənin ölçüləri onun növündən asılı olaraq diametri 2 m-dən 4 m-ə, hündürlüyü 1,5 m-dən 2 m-ə qədər olmaqla dəyişir.

Birinci növ, dəyə-I aşağıdakı qaydada hazırlanırdı. Çubuqlar yerə bərkidilir, sonra qarşı-qarşıya duran çubuqlar əyilərək bir-birinə bağlanırdı. Beləliklə, karkasın üfüqi müstəviyə proyeksiya elementlərinin 90° bucaq altında kəsişdiyi kürəşəkilli səthi əmələ gətirən sərt karkas əldə olunurdu. Yaradılan ağac struktur aşağıdakı şəkildə örtülürdü: Yaranan karkasın aşağısı bayır tərəfdən qamışdan olan həsirlə, yuxarısı isə keçə ilə örtülürdü. Kiçik konstruksiyalar bir bütöv üzlüklə, böyük konstruksiyalar yan tərəflər üçün nəzərdə tutulmuş bir neçə trapesiya formalı, yuxarı isə bir bütöv kvadrat və ya dairəvi örtüklə örtülürdü.

İkinci növ, dəyə–II quruluşuna görə birinciyə bənzəyir, lakin diametrinə görə böyükdür, davamlı olması üçün ortadan sütunla bərkidilmişdir və keçənin ağırlığı altında çubuqların əyilməsinin qarşısını alır.

Üçüncü növ, dəyə–III birinci iki növ kimi düzəldilir, lakin onlardan fərqli olaraq planda üçbucaq olur.

Dördüncü növ, dəyə-IV "alaçığa" keçid tipi rolunu oynayır və konstruktiv baxımdan birinci üç növdən fərqlənir. Dəyə-IV-ün düzəldilməsi üçün ölçüləri təqribən 4-6 m olan eyni uzunluqda çubuqlar seçilir. Çubuqlar yerə düzgün dairə şəklində bir-birindən eyni məsafədə bərkidilir. Bütün çubuqlar mərkəzə doğru əyilərək bir-birinə bağlanır. Yaranan kürəşəkilli səthin mərkəzindən 1/2 metr məsafədə çubuqlar iplə bağlanır, aşağıda isə təməldən bir metrlik məsafədə "örkən"lə hörülür (xalça məmulatı ilə–eni 15 sm-ə qədər olan lentlə). Karkasın əsasını təşkil edən bağlanmış çubuqlar daha böyük çapma çubuqlardan düzəldilən dayağa söykənir.

Alaçıq. Tikililərin bu üslubu həm də mövsümi yaşama üçün nəzərdə tutulur, lakin konstruktiv bünövrəsinə görə dəyədən daha mükəmməldir. Alaçığın dəyədən nəzərəçarpacaq fərqi ondan ibarətdir ki, o, detalları qabaqcadan xüsusi ustalar tərəfindən düzəldilən və uzun müddət istifadə edilən sökülüb-quraşdırılan konstruktiv sistemə malikdir. Alaçığın fərqləndirici və ayrılmaz hissəsi, qurşağında alaçığın lövhələrinin qoyulması üçün dəliklər açılan, diametri təqribən bir metrə qədər olan yuxarı konstruktiv çarx – "çatmax"dır.

Konstruktiv xüsusiyyətlərinə görə alaçığın iki növünü ayırd etmək olar:

Birinci növ, alaçıq-1 yerə düzgün dairə ilə bərkidilən əvvəlcədən hazırlanmış düzgün əyilmiş formalı yastı lövhələrdən düzəldilirdi, yuxarıda isə yuxarı konstruktiv çarxda dəliklər açılırdı. Alaçığın bu növünün ağır və iri çatmaxı iplərlə bağlandığı dayaq üzərində bərkidilirdi. Dəyə-IV-də olduğu kimi, alaçığın lövhələri də yuxarıdan və aşağıdan bağlanırdı.

İkinci növ, alaçıq-2 növbəti dəyişikliyə məruz qalır və birinci növdən fərqli olaraq, öz konstruktiv strukturuna görə daha mükəmməldir. Burada aparıcı sütun yoxdur, yuxarı konstruktiv çarx yüngülləşdirilmişdir. Alaçıq-2 ağac çubuqlardan hörülmüş tor şəklində divar konstruksiyasına malikdir. Həmin çubuqlara kürəşəkilli səthin yuxarıda konstruktiv çarxa keçirdilmiş şüvülləri bərkidilirdi. İkinci növ alaçığın divarları iki konstruktiv müxtəlifliyə malik idi (yerə perpendikulyar bərkidilmiş şüvüllərə və divarın qəfəsşəkilli əsasını yaradan maili bərkidilmiş şüvüllərə malik olan alaçıq).

Sadalanan kiçik qeyri-stasionar konstruksiyalarla yanaşı, hökmdarlar üçün nəzərdə tutulan çox iri tikililər də ucaldılırdı. Bu xan çadırlarının böyüklüyü barədə Rəşidəddinin təsvirlərinə əsasən mülahizə irəli sürmək olar: "Arqun ağa hökmdarın qəbulu üçün qızılı naxışla toxunmuş ipəkdən çadır, padşahın imarətinə uyğun olan, bütün xidmətləri yerinə

yetirən, daşınan və yeri dəyişdirilən zaman olduqca yüngül olan gözəl yaşayış çadırı və ona uyğun olan, yığıncaqlar üçün çadır düzəltməyi əmr etdi; Qazan xan bağın mərkəzində giriş çadırı və xüsusilə onun üçün nəzərdə tutulan talvarları olan qızıl çadır qurmağı əmr etdi. Bütün qulluqçular və memarlar toplaşdılar və onların sayı son dərəcə çox olduğu üçün təkcə bir ay ərzində başa çadıra bildilər" [71, səh.24,194].

Təəssüf ki, bu tikililər barədə qrafik materiallar qorunub saxlanmamışdır. Elxanilərin böyük vəzirinin hazırkı təsviri əsasında mülahizə irəli sürsək, onda onlar həqiqətən mühəndis təfəkkürünün şah əsərləri olmuşdur və yəqin ki, bu gün metal və yapışqanlı oduncaqdan tikilən məkanı strukturlardan heç nə ilə geri qalmamışdırlar.

Köçəri yaşayış məskəninin nəzərdən keçirilən bir çox üslublarına nəinki Azərbaycanda, eləcə də Orta Asiyada, Monqolustanda, Anadoluda rast gəlinir. Onların arasında ən qədimləri planda dairəvi olan "dəyə"lərdir. Yapon laklı kasasının üzərindəki qədim türk üslubu hesab olunan alaçıq təsviri bu üsluba çox oxşardır (756-cı ildən gec olmayaraq) [72, səh.48]. Orta əsrlər Azərbaycandakı qeyri-stasionar yaşayış məskəninin, qeyd olunduğu kimi, iki istiqamətdə gedən tədrici inkişafını aşağıdakı qaydada təsvir etmək olar: qısamüddətli və mövsümi yaşayış üçün, burada daha böyük və daha dinamik inkişaf sonuncuda baş vermişdir ki, bu yeni üslubların meydana gəlməsində deyil, mövcud olan üslubların dəyişməsində özünü göstərmişdir. A.N. Bernştamın qeyd etdiyi kimi: "Alaçığın təkmilləşdirilməsi formaların müxtəlifliyinə səbəb olmadı, əksinə, onları azaltdı"[73,səh.28].

- Mövsümi yaşayış üçün qeyri-stasionar yaşayış məskənləri
- Şüvül bünövrəli yığılan günbəzşəkilli ağac-karkas tikililər
- Şüvül bünövrəli və bir mərkəzi dayaqlı yığılan günbəzşəkilli ağac-karkas tikililər
- Yığılan günbəzşəkilli ağac-karkas tikililər (alaçıq, çadır)

Bundan əvvəl qeyd olunduğu kimi, stasionar və qeyri-stasionar yaşayış məskənlərinin birgə mövcud olması onların inkişafını qarşılıqlı əlaqəsiz və təsirsiz buraxa bilməzdi. Mərkəzi Asiyada bir sıra xalqların həyat tərzindən asılı olaraq, köçəri həyat tərzinin oturaq həyat tərzini üstələdiyi bir çox hallarda bu amil danılmazdır.

Köçəri qeyri-stasionar tikililərin monumental memarlığa təsiri aşağıdakı istiqamətlərdə baş vermişdir: 1) qeyri-stasionar memarlığın məkani formalarının monumental tərəfdən alınması; 2) konstruktiv sistemin alınması; 3)bədii-estetik cəhətdən formalaşma elementlərinin alınması.

Nəzərdən keçirilən təsirlərin birinci tərəfini aşağıdakı nümunələr əsasında müəyyənləşdirmək olar.

Elmi ədəbiyyatda qülləvari türbələrin yaranması barədə vahid rəy yoxdur. Mövcud olan ehtimallar arasında ən düzgünü onların mənşəyini köçəri tikililəri ilə əlaqələndirən rəydir.

Bu məsələ qüllәvari türbələrin mənşəyinin öyrənilməsi ilə əlaqədardı və daha sonra ətraflı şəkildə nəzərdən keçiriləcəkdir. Araz çayının axını boyunca torpaqlarda qorunub saxlanmış, tarixi məlum olmayan bir sıra türbələr Azərbaycan köçəri tayfalarının zadəganları üçün inşa edilmişdir [22, səh.236]. Onların memarlığına şübhəsiz, qeyri-stasionar yaşayış məskəninin memarlığı təsir göstərmişdir. Azərbaycan köçəri tayfalarının yaşayış məskəni formalarını monumentallaşdırmaq cəhdini əks etdirən Cimcimli kəndindəki türbəni buna misal göstərmək olar [74, səh.130].

Türbələrdən əlavə, qeyri-stasionar yaşayış məskəni formasından digər tikililərdə də istifadə olunmuş və monumentallaşdırılmışdır. A.N.Bernştamın ehtimalına görə, "günbəz köçərilər arasında meydana gəlmiş, praktik olaraq isə oturaq əkinçiliklə məşğul olan əhali arasında reallaşmışdır, monumental memarlıqda ilk dəfə olaraq geniş yayılmışdır..." [73, səh.130]. Bu ehtimalı Gəncə şəhərinin XVII-XVIII əsrlər günbəzşəkilli yaşayış evləri təsdiq edə bilər. Günbəzin monumentallaşdırılması ideyasından başqa, qeyri-stasionar yaşayış məskənindən stasionara keçid zəncirində, Gəncənin günbəzşəkilli yaşayış evləri qeyri-stasionar memarlığın monumental memarlığa təsirlərinin ikinci istiqamətini, yəni konstruktiv formaların alınmasını təsdiq edən məlumatın daşıyıcılarıdır.

Gəncənin günbəzşəkilli yaşayış evləri qabırğa şəklində çıxıntı konstruksiyaya malikdir. Təməldə kiçik diametrə malik bu günbəzləri qabırğa şəklində çıxıntılar olmadan da tikmək olardı. Beləliklə, hazırkı halda günbəz, onun konstruksiyasının üslubu alınmışdır. Bu üslubda qabırğa şəklində çıxıntılar qeyri-stasionar yaşayış məskəninin kürəşəkilli karkas strukturunun şüvüllərini, dörd qarşılıqlı perpendikulyar qabırğa şəklində çıxıntılar – yuxarı yarımkürəvi konstruktiv çarxın kəsişməsindən yaranan kvadrat üzərində ucaldılan kiçik günbəz isə qeyri-stasionar yaşayış məskəninin inkişaf etmiş tiplərini xatırladır (alaçıq-2).

Yuxarıda deyilənlər belə zənn etməyə əsas verir ki, monumental memarlığın qabırğa şəklində çıxıntılar konstruksiyalarının prototipi kürəşəkilli qabırğa şəklində çıxıntılar və karkas konstruksiyaya malik olan qeyri-stasionar tikililərdir.

Monumental memarlıqda bədii-estetik tərəfdən formalaşma elementlərinin yaranması köçəri və oturaq əhalinin sıx təması zamanı baş vermişdir ki, bu da özünü oturaq həyat tərzinə keçid dövründə daha güclü büruzə vermişdir. Bu, fasad və interyerlərin dekorativ həllində öz əksini tapmışdır.

Orta əsrlər yaşayış məskəni memarlığının müxtəlifliyi barədə sistem şəklində təqdim edilən tipoloji təsnifat (bax: cədvəl №1) üzrə mülahizə yeritmək olar.

Təqdim edilən sistem faktiki mövcud olan material əsasında aşkar edilən yaşayış məskəni üslublarını əhatə edir və təsnifatın strukturunu dəyişmədən yeni aşkar edilmiş üslubları daxil etməyə imkan verir.

## § 2. İctimai binalar

Cəmiyyətin inkişafının müəyyən pillələrində tikintisi və inkişafı həmin cəmiyyətin iqtisadi və mədəni səviyyələrinin dərəcəsindən bilavasitə asılı olan, ictimai təyinatlı bu və ya digər binaların yaradılmasına tələbat yaranır. Belə ki, məsələn, məktəblər, ictimai iaşə, müalicəxana, hamam üçün nəzərdə tutulan binalar və bir çox digər bina və tikililər ucaldılır. Yeni sosial tələblərin təmin edilməsi üçün müvafiq surətdə, yeni binaların inşası tələb olunur. Yeni yaranan tələblər və mövcud olan köhnə tikililər arasındakı bu impuls, rezonans müəyyən arxitektura üslubunda formalaşan yeni keyfiyyətli binanın yaradılmasına şərait yaradır.

Memarlıqda inkişaf cəmiyyətin iqtisadi vəziyyəti ilə sıx əlaqədədir. Məhz bu vəziyyət ilk növbədə ictimai təyinatlı mülki binaların inkişaf imkanını həm kəmiyyət, həm də keyfiyyət baxımından müəyyən edir, tipoloji müxtəlifliyini şərtləşdirir.

İqtisadi və mədəni amillər ümumilikdə və bütövlükdə öz aralarında qarşılıqlı əlaqə yaradır və nəticədə memarlığın inkişafını müəyyən edirlər.

İctimai təyinatlı mülki binaların təkamülünə şəhərlərin inkişafı birbaşa təsir göstərmişdir. Orta əsrlərdə şəhərlər iqtisadi, inzibati, mədəni, elmi mərkəzlər idi, bu isə ən vacib ictimai və mülki binaların inkişafına və həmin şəhərlərdə cəmləşməsinə səbəb olmuşdu. Belə ki, bazarlar müəyyən vaxta qədər şəhər ərazisindən kənarda yerləşirdi, lakin şəhərlərin inkişafı ilə bazarların şəhər ərazisinə daxil edilməsinə başlanılmışdı, bu isə şəhərsalma sisteminin ayrılmaz komponentləri rolunu oynayan ticarət komplekslərinin yaranmasına gətirib çıxarmışdır. Ticarət nəinki şəhər hüdudlarında, eləcə də onun hüdudlarından kənarda, şəhərə aparan karvan yollarının üstündə bina və tikililərin yaranmasına şərait yaratmışdır.

Cəmiyyətin tələbatının artması və güclənməsi nəticədə ictimai əhəmiyyətli mülki bina və tikililərin geniş tipoloji müxtəlifliyinə gətirib çıxardı. Bu və ya digər funksional tələbatın yaranması tez və ya daha sonra lazımi memarlıq formasının, onun həlli üçün həcmi-fəza strukturunun meydana gəlməsinə səbəb olur.

Azərbaycanda orta əsrlərdə, Elxanilərin hökmranlığı dövründə ictimai əhəmiyyətli mülki binaların tikintisinə lazımi diqqət yetirilirdi, bu barədə Rəşidəddinin məlumatlarına [75;71] əsasən fikir irəli sürmək olar. Dini, memorial, müdafiə memarlığı abidələri ilə müqayisədə mülki memarlıq abidələrinə bir qədər pis yanaşmışlar, buna görə də daha əvvəllər mövcud olan tipoloji zənginliyi nümayiş etdirmir. Lakin yazılı mənbələr sayəsində bu məsələni həll etmək mümkündür.

**Ticarət tikililəri**

Azərbaycan əlverişli coğrafi mövqeyi sayəsində cənubla şimal, qərblə şərq arasında ticarət zəncirinin bir həlqəsi olmuşdur. Bir çox karvan yollarının Azərbaycanda kəsişməsi, sənət növlərinin artması, istehsal edilən məhsulların bolluğu və müxtəlifliyi, şübhəsiz ki, ölkənin iqtisadi həyatının əsas amillərindən biri olan ticarətin inkişafına xidmət etmişdir. Ticarətin inkişafı vacib ticarət tikililərinin və komplekslərinin yaradılması və inşasına kömək etmişdir.

**Ticarət kompleksləri (bazarlar).** Orta əsrlərdə Azərbaycan bazarları böyüklüyü və müxtəlifliyi ilə bir çox səyyahları təəccübləndirmişdir. X əsrdə Bərdənin, Ərdəbilin bazarları Şərqdə ən iri bazarlardan hesab edilirdi. Bərdənin "Kurkiy" bazarı I farslar tərəfindən (6-8 km) şəhər darvazalarının yanında yerləşirdi və üstüörtülü şəkildə inşa edilmişdir [76, səh.89,131]. İbn Battuta Təbrizə səfər edərkən qeyd etmişdir: "Dünyanın bütün şəhərlərində gördüyüm bazarlar sırasında ən yaxşısı Təbrizdəkidir" [65, səh.49].

Azərbaycanın şəhərlərində mərkəzi bazarlarla yanaşı, şəhərətrafı və məhəllə bazarları da mövcud idi. Təbrizdə hər məhəllənin "bazarça" (kiçik bazar) adlanan öz bazarı var idi [65, səh.57]. Bazarlar həmçinin satılan məhsulların növlərinə görə bölünürdü, sənət birlikləri öz məhsullarını xüsusi tikililərdə satırdılar. Bazarlar onları inşa edən inşaatçıların və yaxud orada satılan məhsulların növlərinin adlarını daşıyırdılar. Bazar, ticarətin inkişafı ilə iqtisadi mərkəzdən təsərrüfat, maliyyə və mədəniyyət mərkəzinə çevrilmişdir, bu ənənə günümüzə qədər də yaşayır. Onlar, şəhərin planlaşdırma və həcmi-fəza strukturunda aparıcı mövqeyə malik olmaqla kənar ərazilərdən şəhərin mərkəzi hissəsinə köçürülmüşdür, əsas küçələr ticarət magistralına çevrilmişdir. Bazar şəhərin işgüzar mərkəzi olaraq bir çox ticarət səciyyəli tikililərdən ibarət idi.

Orta əsrlərdə Azərbaycanın ticarət tikililərini aşağıdakı tiplərə bölmək olardı.

**Dükanlar.** Ticarət tikililərinin ən sadə növü əksər hallarda birkameralı binalar (çox vaxt eyvanlı) idi. Dükanlar ayrıca inşa edilə və ticarət tikililəri zəncirini yaradaraq bir-biri ilə qrup şəklində düzülə bilərdilər. Onlar həmçinin karvansaralara və ticarət kompleksində yerləşən digər tikililərə birləşmiş şəkildə inşa oluna bilərdilər. Övliya Çələbi Azərbaycanın şəhərlərində dükanların sayının çox olmasını göstərmişdir, onun məlumatlarına əsasən Naxçıvanda 1000, Mərənddə 600, Təbrizdə 7000, Şamaxıda isə 200 dükan olmuşdur [1].

**Örtülü ticarət küçələri.** Azərbaycanda ticarət küçələri bir çox ticarət komplekslərinin komponenti olan rastabazar adlanırdı, burada onlar adətən iri ticarət tikililərinin oxları üzərində yerləşirdi. Örtülü ticarət küçəsinin hər iki tərəfində dükanlar yerləşirdi. Adam Oleariy Şamaxını təsvir edərək göstərir ki: "...şəhərin cənub tərəfində bir neçə müxtəlif növ örtülü küçələr olan böyük bazar mövcuddur, həmin küçələrdə bazarların içərisində

müxtəlif məhsullar olan dükanları yerləşir..." [12, səh.133]. Örtülü ticarət küçələri ticarət kompleksində yerləşməklə iri kompleks tikililəri arasında əlaqələndirici həlqə idi.

**Keysəriyyə**. Orta Asiyada "tim" (pasajlar), "tok" (ayrıca tağtavan və günbəzşəkilli tikililər), "çarşı" (küçələrin yol ayrıcında dayanan) adlanan örtülü mərkəzi-günbəzşəkilli ticarət tikililəridir [77, səh.48]. Keysəriyyə bir çox bazarların vacib komponenti idi. Ticarət tikililərinin nəzərdən keçirilən növləri içərisində ən iri bina Təbrizdəki keysəriyyə binası idi. XV əsrdə inşa edilmiş Təbriz keysəriyyəsi planda tağtavan və günbəzlərlə örtülmüş səkkizbucaqlı formaya malik idi [65, səh.75]. Ö.Çələbi həmin binanı aşağıdakı şəkildə təsvir edir: "Bu, heç yerdə bənzəri olmayan çox böyük günbəzli bedestandır (Türkiyədə ticarət tikililəri belə adlanır – R.B.). O, ticarət sıraları tərəfinə açılan dörd dəmir darvazaya malikdir" [1, səh.126]. Beləliklə, belə nəticəyə gəlmək olar ki, Təbrizin səkkizbucaqlı mərkəzi-günbəzşəkilli keysəriyyəsi ticarət küçələrinin yolayrıcında yerləşirdi.

Ticarət küçələrinin yolayrıcında yerləşən binaların növbəti səciyyəvi tipinə həmçinin öz planlaşdırma strukturuna görə dövrələmə qalereya ilə mərkəzi-günbəzşəkilli zalı olan kvadrat binanı təşkil edən Ordubad şəhərindəki (XVII-XVIII əsrlər) qorunub saxlanmış keysəriyyəni hesab etmək olar.

Göstərilən iki, Ordubad və Təbrizdəki keysəriyyələrdən fərqli olaraq, Ərdəbildəki keysəriyyə yolayrıcında yerləşmirdi və öz əsas fasadı ilə ticarət küçəsinə birləşirdi. Ərdəbil keysəriyyəsi özündə dördbucaqlı günbəzşəkilli tikilini əks etdirirdi, onun mərkəzi zalından "üç portal vasitəsilə daha sadə mallar satılan örtülü "dalan"lara keçmək olardı" [12, səh.109]. Dördüncü portal keysəriyyə küçə ilə əlaqəni yaradırdı. Ticarət binalarının yerləşməsinin buna bənzər nümunəsinə məsələn: Buxaranın ticarət mərkəzindəki Abdulla xan timi (XVI əsr) Orta Asiyada da rast gəlinir.

Beləliklə, biz keysəriyyənin azsaylı nümunələri sırasında şəhərsalma strukturuna münasibətdə onların yerləşməsinin iki variantını: yolayrıcında və simmetrik müşahidə edirik. Onlar öz arxitektura-planlaşdırma həllinə görə planın təsviri əsasında səkkizbucaqlı (Təbrizdəki keysəriyyə), kvadrat (Ərdəbil və Ordubaddakı keysəriyyələr) olan mərkəzi-günbəzşəkilli tikililəri özündə əks etdirir.

**Karvansaralar**. Karvansaraların meydana gəlməsi ticarətin inkişafı ilə əlaqədardır. Ticarət tikililərinin digər üslublarından fərqli olaraq, karvansaralar ticarət funksiyası ilə yanaşı, yaşayış yeri funksiyasını da daşıyırdı. Karvansaranın əsli və mənşəyi barədə elmi ədəbiyyatda aşağıdakı fikirlər mövcuddur. A.Qodar qeyd edir ki, karvansara memarlıq obrazının meydana gəlməsi prosesindən əvvəl yaranmış mədrəsəyə Xorasandakı yaşayış evini misal göstərmək olar. V.D.Lavrov hesab edir ki, sərhədboyu ribatlar öz xüsusiyyətlərini karvansaralara ötürmüşlər [78, səh.122]. Yuxarıda qeyd edilən fikirlərdən əlavə, karvan-

saranın genezisi barədə başqa mülahizələr də mövcuddur, həmin mülahizələrə əsasən, mənzillərin kiçik həyət perimetri üzrə yerləşdiyi yaşayış evləri [12, səh.65]; Roma imperiyasının sərhədlərində ucaldılan istehkamlar - kastellumlar; Əhəmənilərin irriqasiya sistemləri üzərində nəzarət üçün istila edilmiş ərazilərdəki istehkamlar karvansaranın nümunələridir [6, səh.60].

Qeyd etmək lazımdır ki, orta əsrlər memarlığının müxtəlif binalarının arxitektura üslublarının formalaşması formal-tipoloji "qarşılıqlı təsirlər"lə deyil, hər şeydən öncə "müəyyən ictimai müəssisələri və öz təşkilinə eləcə də zahiri ifadəsinə görə onlara uyğun olan memarlıq tikililərini həyata səsləyən müəyyən ictimai tələblər kompleksi" ilə qabaqcadan təyin edilirdi [79, səh.341].

Ehtimal edilən nümunələr ilə karvansaralar birmənalı genetik əlaqəyə malik deyildilər. Onların birliyi yaşayış məskəninin müəyyən dövrdə və müəyyən şəraitdə qeyri-variantlılığı ilə müəyyən edilir. Yaşayış evinin funksiyası yaşayış hicrləri şəklində formalaşan kiçik təcrid edilmiş otaqların olmasını tələb edir, onların eyni tərəfə çıxışı olmaqla bir cərgədə yerləşməsi onların qarşılıqlı bağlılığı ilə şərtlənir. Hicr-mənzillərin daxili həyətin perimetri boyunca yerləşməsi aşağıdakı amillərdən asılıdır: birincisi, ayrıca qapalı məkanın yaradılması; ikincisi, hazırkı planlaşdırma-çox sayda mənzillərin yerləşməsi üçün optimal variantdır, onların sayı artdıqda planlaşdırma strukturunun müxtəlif variantlarına malik çox həyətli strukturlar yaradılır.

Nəzərdən keçirilən həcmi-fəza strukturların yaradılması məntiqini aşağıdakı şəkildə təsəvvür etmək olar: yaşayış hicrlərinin bir ox boyunca yerləşməsi; bir hicrin yerinin giriş üçün ayrıldığı qapalı fəzanın yaradılması; künc məkanlardan istifadə etməklə daha mükəmməl formanın yaradılması. Beləliklə, nəzərdən keçirilən tiplərin həcmi-fəza strukturlarının təşkili zamanı yaşayış hicrlərinin daxili həyət perimetri üzrə yerləşdirilməsi funksiyanın tələb etdiyi əsas məsələdir. Karvansaranın ehtimal edilən "nümunə"lərlə həm ümumiliyi, həm də fərqliliyi onların yerinə yetirdiyi funksiyalarla izah edilir. Karvansaralarda öz "nümunə"lərindən fərqli olaraq, ticarət, anbarlar, yük heyvanları üçün yerlərin olması zərurəti yaranırdı.

Şəhər karvansaraları ilə yanaşı, həmçinin karvan yolları üstündə inşa edilən və birbirindən bir günlük yol qədər məsafədə yerləşən yol kənarındakı karvansaralar da mövcud idi. Karvansaralar yerləşdiyi yerdən (şəhərdə və ya karvan yolları üstündə) asılı olaraq, öz daxili həllinə görə fərqlənirdilər. Karvanın gecələmək məqsədilə dayanması üçün nəzərdə tutulan yol kənarındakı karvansaralarda mal-qara və mallar üçün çox sayda yerlərin olması tələb edilirdisə, şəhər karvansaralarında müvəqqəti yaşayış, daha doğrusu, qonaq otaqları üçün yerlərin olması zərurəti yaranırdı.

Orta əsrlərdə Azərbaycanda mövcud olan karvansaraları arxitektura-planlaşdırma həllindən asılı olaraq, birkameralı və həyət üslublarına bölmək olar. Tədqiq edilən dövrdə Azərbaycan ərazisində yalnız bir həyətli kompozisiyalar məlumdur, halbuki çox həyətli kompozisiyaların da mövcud olması istisna edilmir. Bir həyətli kompozisiyalar planlaşdırma həllindən asılı olaraq bir neçə müxtəlif növlərə bölünür.

**Birkameralı karvansaralar**. Karvansaraların bu üslubu ikinci dərəcəli və uzun ticarət yolları üstündə tikilirdi və az sayda yük, heyvan və yolçuların yerləşdirilməsi üçün nəzərdə tutulurdu. Onlara misal kimi Bakı yaxınlığında Balaxanı kəndindəki karvansara və Şamaxı rayonunun Pir-Mərdəkan kəndindəki xanəgahın yanındakı karvansaranı göstərmək olar. Müzakirə edilən üsluba aid karvansaralar çatma tağtavanı yaylar altı tağlarla bərkidilən, düzbucaqlı plan formasına malik idi.

**Karvansaraların həyət üslubu**. Yaşayış hücrələrinin, xidməti-təsərrüfat və anbar otaqlarının həyətin perimetri boyunca yerləşməsi ilə səciyyələnir, beləliklə qapalı həyət strukturunu yaradır. Artıq qeyd edildiyi kimi, otaqların səciyyəsindən (kiçik otaqların - hicrlər və ya qalereyaların həcmi-fəza strukturunda müvafiq surətdə öz həllini tapan yaşayış və yaxud anbar üslubundan asılı) olaraq, karvansaraların həyət üslubu aşağıdakı növlərə bölünür: seksiya, qalereya, seksiya-qalereya.

Həyət üslublu karvansaraların seksiya növü yaşayış hicrlərinin-seksiyaların daxili həyətin perimetri boyunca yerləşməsi ilə səciyyələnir. Bu tikililərin ən səciyyəvi qrupunu inkişaf etmiş giriş sisteminə malik olan Bakı karvansaraları (XV əsr Buxara, XIV əsr Moltanı, XVII əsr Qasım bəy karvansaraları) təmsil edir. Karvansaranın seksiya üslubu ikimərtəbəli ola bilər, burada mərtəbələrin planında fərq birinci mərtəbənin hər hicri qarşısındakı fərdi eyvanlardan fərqli olaraq, ikinci mərtəbədə ümumi dövrələmə qalereyasının olmasında öz əksini tapır.

Karvansaraların nəzərdən keçirilən növünə həm də XVI əsrin qorunub saxlanmamış, Bakının qala divarları xaricində yerləşən, A.V.Salamzadə tərəfindən aşkar edilən ölçmə çertyojlarına görə tanınan karvansaranı aid etmək olar [12, səh.71]. Həmin karvansara azsaylı anbar və təsərrüfat yerlərində təzahür edən yol kənarı karvansaraların bəzi səciyyəvi xüsusiyyətlərini daşıyır. Yaşayış hicrləri ilə bərabər bütün mənzillər həyət perimetri boyunca yerləşmiş və dövrələmə qalereya ilə birləşmişdir.

Karvansaraların seksiya növünü planda kiçik fərqlərin olmasından asılı olaraq, bir neçə müxtəlif növə bölmək olar. Bu, birgirişli (Bakıdakı Moltanı və Buxara karvansarası); ikigirişli, bir ox üzərində yerləşən (Bakıdakı ikimərtəbəli və xan karvansaraları) dördeyvanlı (C.Qiyasinin rekonstruksiyasındakı Sultaniyyə yaxınlığında) karvansaradır. Sonuncuda iki girişin olmasını karvansaranın ticarət tikilisi ilə əlaqəsinin olmasını tələb edən ticarət küçəsi ilə sahilboyu zona arasında yerləşməsi ilə izah edilə bilər.

Həyət üslublu karvansaraların qalereya növü malların və heyvanların yerləşdirilməsi üçün nəzərdə tutulan qapalı qalereyaların həyət perimetri üzrə yerləşməsi ilə səciyyələnir. Bu növ, yol kənarı karvansaralar arasında yayılmışdır və yaranma tarixinə görə ən erkən dövrlərə aid edilməlidir, belə ki, ilk əvvəl yol kənarı karvansaralar öz funksional təyinatının həlli üçün qapalı qalereyaların olmasını tələb edirdi. Azərbaycan ərazisində xalis qalereya üslublarının olması bizə məlum deyil, amma qorunub saxlanmış bir sıra yol kənarı karvansaralar özündə qalereya üslubunun xüsusiyyətlərini daşıyır. Bunlar Füzuli rayonunun Qarğabazar kəndindəki karvansaralar (XVII əsr), Miəcik kəndindəki "Qaraçı" (XV əsr), Səngəçal kəndindəki (XV əsr) karvansaralardır. Sonuncu qeyd edilənlər ikinci mərtəbəsində yaşayış evləri yerləşən iki ikimərtəbəli karvansaradır. Hazırkı halda onların sayı az olduğundan və ayrıca inşa edilməsi zərurəti hiss edildiyindən onlar ikinci mərtəbədə yerləşdirilmişdir.

Həyət üslublu karvansaraların seksiya-qalereya növü nəzərdən keçirilən ilk iki növün (seksiya və qalereya növlərinin) sintezi yolu ilə yaranmışdır, həmin növlər onun həyətə açılan yaşayış hicrləri və qapalı qalereyaların olması ilə səciyyələnən strukturunda iz qoymuşdur. Yeni arxitektura strukturunun meydana gəlməsi üçün iki memarlıq strukturunun sintezi sonuncu qeyd edilənlərin, eyni vaxtda həm yaşayış, həm də anbar otaqlarının olmasını tələb edən funksional səciyyəliliyi ilə şərtləşdirilmişdir. Bu tipoloji qrup üçün Qəzvindəki XVI-XVII əsrlərə aid üç karvansara daha səciyyəvidir. Bu qrupda, iki tərəfdən qalereyanın yerləşdiyi (Xilmilli kəndindəki XV əsrə aid karvansara) və həyətin bütün perimetrində yaşayış hicrlərinin inşa edildiyi (Cuqa kəndindəki XIII əsrə aid karvansara) karvansaralar vardır.

Ticarət tikililəri barədə nəzərdən keçirilən materiala yekun vuraraq, belə nəticəyə gəlmək olar ki, onların funksional məzmun əsasında bölünməsi Türkiyə, İran və Orta Asiyanın dükanları, qapalı ticarət küçələri, günbəzşəkilli ticarət tikililəri, karvansaraları kimi ticarət binalarına uyğundur.

Azərbaycandakı bir çox ticarət tikililərinin arxitektura həllində qonşu ölkələrin qorunub saxlanmış abidələri ilə müqayisədə, bir sıra ümumi və fərqli xüsusiyyətlər müşahidə olunur. Belə ki, Təbrizdəki keysəriyyə ticarət küçələrinin yolayrıcında yerləşməklə Orta Asiyadakı qarşılığı ilə ümumi cəhət daşısa da, səkkizbucaqlı formaya malik olmaqla planın strukturunun həll edilməsində onlardan fərqlənir. Qalereya, seksiya və qalereya-seksiya tikinti variantları olan həyət üslublu karvansaralar geniş şəkildə yayılmağa başlamışdır. Bu növlər həmçinin Orta Asiyada yayılmışdır, onlardan fərqli olaraq, Azərbaycanda mövcud olan növlər həcmi-fəza strukturun həllində bir sıra yerli xüsusiyyətlərə malik idi. Seksiya tikintisinə malik olan Bakı karvansaraları onlara məxsus inkişaf etmiş giriş qrupuna malikdirlər, bu, Moltanı, Buxara, Xan karvansaraları timsalında aydın şəkildə görünür. Azərbaycandakı bir sıra yol kənarı karvansaraların növbəti səciyyəvi yerli xüsusiyyəti "balaxanın" giriş hissəsi üzərində

yerləşməsidir (Səngəçal və Miəcikdəki karvansaralar). Azərbaycanın bəzi rayonlarında (Ordubad, Abşeron, Cənubi Azərbaycan) xalq yaşayış məskəninin bir hissəsi olan, ikinci mərtəbədə yerləşən, yay və qonaq otağı kimi istifadə olunan "balaxana" karvansaraların tikintisində digər arxitektura mədəniyyətindən istifadə olunmuşdur. Azərbaycandakı bəzi karvansaralar üçün həyətin mərkəzində hündür (Sultaniyyə yaxınlığındakı karvansara), yaxud planda çoxtərəfli formaya malik meydançanın olması səciyyəvi idi. Həmin meydançalar elmi ədəbiyyatda axşamlar əyləncə məqsədilə oraya yığılmaq üçün çardaq kimi nəzərdə tutulurdu [12,səh.66] Orta Asiya memarlığında onların oxşarına rast gəlinmir. Türkiyədəki karvansaralarda da həyət mərkəzindən istifadə edilmişdir. Lakin burada Azərbaycandan fərqli olaraq, çardaq yerinə açıq tərəfləri olan kiçik günbəzşəkilli məscidlər yerləşdirilmişdir [80,səh.434].

**İctimai xidmət binaları**

**Hamamlar.** Orta əsrlərdə Azərbaycanda hamamlar sanitar-gigiyenik funksiyalarla yanaşı, həm də bir sıra ictimai funksiyaları yerinə yetirirdi, xüsusilə, onlar bir növ, insanların istirahət etdiyi, məlumat mübadiləsi apardığı klub rolunu oynayırdı. Hamamların tikintisinə lazımi diqqət yetirilirdi. Rəşidəddin qeyd etmişdir: "Rəis Əbu Əli (Sina) dediyi kimi, "Ən yaxşı hamam - sanballı tikinti, yaxşı hava, şəfalı su və geniş sahəyə malik olan hamamdır", həmçinin, sənin qədim bina, şəffaf su, təmiz havaya malik və geniş sahəsi olan hamam axtarmağın lazımdır" [75,səh.160].

Rəşidəddinin söylədikləri, belə nəticəyə gəlməyə imkan verir ki, Elxanilər hakimiyyətə gəlməzdən əvvəl Azərbaycanda inkişaf etmiş arxitektura-planlaşdırma və həcmi-fəza struktura malik olan hamamlar mövcud idi. Bu ehtimal arxeoloji qazıntılar vasitəsilə təsdiq edilir. Örənqalada arxeoloqların aşkar etdiyi hamam xarabalıqları XI əsrə aiddir [54,səh.63]. Təəssüf ki, bu hamamın arxitektura-planlaşdırma xüsusiyyətləri, bundan başqa, müxtəlif səviyyələrdə yerləşən bir neçə otaqdan ibarət olması barədə məlumat yoxdur [54,səh.63].

Hamamlar, məscidlər və ya şəhər darvazalarının yanında inşa edilən şəhər və məhəllə əhalisinə xidmət göstərmək üçün nəzərdə tutulan məhəllə hamamlarına bölünürdü.

Hamamın funksional-texniki sxemi giriş - ön; zal-soyunma otağı; keçid tamburu; çimmə zalı; bir qayda olaraq ayrıca otaqlarda yerləşdirilən içərisində qaynar su olan sisternlər; qızdırılma otaqları qarşılıqlı əlaqədə olan həlqələrdən ibarətdir. Funksional-texnoloji strukturun göstərilən həlqələri və onların həcmi-fəza həlli üçün nəzərdə tutulan otaqların yerləşdirilməsi üsulları əsasında hamamların arxitektura üslubu kimi formalaşması baş verir.

Orta əsrlər Azərbaycan hamamlarının tipoloji təsnifatını aşağıdakı şəkildə təsvir etmək olar.

**Birkameralı**. Hamamların üslubu bir kamerada bütün funksional tələblərə icazə veril-

diyi kiçik tikilini özündə əks etdirir. Buna Nardarandakı hamamı (XV əsr) misal göstərmək olar. Bu kiçik birkameralı hamamlar ictimai səciyyə daşımırdı, bir evin və yaxud ailənin tələbatı üçün nəzərdə tutulmuşdur.

**Çoxkameralı.** Hamamların bu tipoloji qrupunun yaranması hər biri üçün bu və ya digər funksional həlqənin həlli nəzərdə tutulmuş bir neçə tektonik strukturun bloka salınması yolu ilə baş verir. Artıq qeyd edildiyi kimi, qoşa otaqların tektonik strukturundan asılı olaraq, çoxkameralı hamamların aşağıdakı üslublarını ayırd etmək olar:

— əsas otaqları (soyunma və yuyunmaq üçün nəzərdə tutulmuş otaqları) birkameralı həcmi-fəza həllə malik olan hamam üslubu. Hazırkı üslubda həmin otaqlar arasındakı əlaqə hamamın səciyyəvi xüsusiyyəti ilə tələb edilən və köndələn yerləşmiş tambur vasitəsilə həyata keçirilir. Hamamların göstərilən üslubu iki nümunə ilə səciyyələnir: bunlar Kürdəxanı (XIV əsr) və Corat kəndlərindəki (XVIII əsr) hamamlardır;

— soyunma və yuyunma üçün nəzərdə tutulmuş otaqları nisbətən mürəkkəb plan konfiqurasiyasına malik olan hamam üslubu. Bu halda malik olan iki zal yan tərəflər üzrə yerləşmiş, döşəməsi ümumi döşəmədən kiçik hündürlüklə ayrılan divar taxça-otaqlarla mürəkkəbləşdirilmişdir. Bu hamam üslubu ayrıca otaq-vestibüllərə malikdir. Nəzərdən keçirilən üslubun səciyyəvi nümunələri Basqal (XVII əsr) və Nardaran (XIV əsr) kəndlərindəki hamamlardır;

— iki çarpaz-günbəzşəkilli sistemin birləşdirilməsi yolu ilə yaranmış üslub. Bu üslub geniş yayılmışdır, bu da künc otaqların və xaçın qollarının tağtavan formalı sahəsinin müxtəlif məqsədlər üçün istifadə edildiyi çarpaz-günbəzşəkilli sistemin üstünlük təşkil etməsi ilə izah olunur. İki çarpaz-günbəzşəkilli sistemin birləşdirilməsi yanaşı künc sahələr vasitəsilə baş verir ki, burada onların bloka salınması üsulundan asılı olaraq, bir neçə müxtəlif növü ayırd etmək olar. Hamamların bu üslubunu əmələ gətirən strukturlar bir və ya birləşdirilmiş oxlar üzərində yerləşə bilər;

— Yuyunmaq üçün nəzərdə tutulmuş otağın planda xaç-günbəzşəkilli, soyunma otağının isə kvadrat, dördsütunlu mərkəzi-günbəzşəkilli struktura malik olduğu üslub. Bu, müzakirə edilən əvvəlki üslubun təkamülündə soyunmaq üçün nəzərdə tutulmuş otağın öz memarlıq həllini dəyişdiyi növbəti mərhələdir. Nəticədə, məkan baxımından bütöv zal əldə olunur, onu Lənkərandakı Hacı Qurban hamamının timsalında müşahidə etmək olar. Bu növ hamamlarda əvvəlki kimi iki zal arasında tambur-şlüz rolunu xaç-günbəzşəkilli strukturun künc otaqlarından biri icra edir;

— günbəzaltı konstruksiyalar vasitəsilə günbəzin dörd sütun üzərində dayandığı, mərkəzi-günbəzşəkilli sistemin xanəgahlar və soyunmaq otaqları üçün istifadə ilə səciyyələnən üslub. Bu üslub, hamamların üçüncü üslubunun təkamülünün sonuncu mərhələsidir,

böyük ehtimala görə, XVIII əsrin ikinci yarısında yayılmağa başlamış və XIX-XX əsrlərin əvvəllərində tikintidə geniş istifadə edilmişdir;

— soyunmaq üçün istifadə edilən otağın planda dairəvi formaya, örtülü günbəzə, xanəgahlar üçün nəzərdə tutulmuş otağın isə əvvəlki növün formasına malik olduğu hamam tipi. Hazırkı üslub yeganə nümunə - Naxçıvandakı hamam (XVIII əsr) ilə səciyyələnir, bu hamam plan strukturunun inkişaf etmiş həllinə malikdir, lakin planın zahiri təsvirinin həllində düzbucaqlı formanı qoruyub saxlayır.

Orta əsrlərdə Azərbaycanda ən geniş yayılmış hamam üslubları əsas həcmləri (soyunma və xanəgahlar üçün nəzərdə tutulmuş otaqlar) çarpaz-günbəzşəkilli tektonik strukturda həll olunduğu hamamlardır, onların geniş yayılması artıq qeyd edildiyi kimi, planlaşdırmanın rahatlığı ilə izah olunur.

Çarpazşəkilli plana malik olan hamamlar nəinki Azərbaycanda, eləcə də Krım, Volqaboyu, Türkiyə və Orta Asiyada yayılmışdır. V.L.Voronina çarpazşəkilli plana malik olan hamamların mənşəyini nəzərdən keçirərək ehtimal edir ki, onun mənbələri İran yaylasının orta əsrlər tikinti ənənəsinə gedib çıxır, plan həllində isə “Azərbaycan hamamları nəinki niqardakı hamamın ikiqat çarpazını, eləcə də xaçşəkilli zalların hər ikisi üçün ümumi olan bir künc kamerasına birləşən keçid künc kameraları kimi səciyyəvi xüsusiyyəti təkrar edirlər” [21, səh.166]. Bu ənənənin yayılması Azərbaycan ərazisində məskən salmaqla “niqar və yerli hamamların planının üst-üstə düşməsi”nə səbəb olan Səlcuqların yerdəyişməsi ilə əlaqədardır [21, səh.167]. Çarpazşəkilli plana malik olan hamamların müəyyən mərhələdə meydana gəlməsi daha əvvəl mövcud olmuş binalarda həmin planlaşdırmanın götürülməsindən (mənimsənilməsindən) əlavə, həm də hamamların formalaşma spesifikada əks olunan xalis funksional xüsusiyyətləri ilə şərtləşdirilə bilərdi. Bu da aşağıdakı şəkildə izah edilir.

Yüksək su buxarı kondensasiyası olan hamam otaqlarında təpə hissədə dəlikli günbəzşəkilli örtüyün olması daha məqsədəuyğundur. Hazırkı otaqlar – soyunmaq və Xanəgahlar üçün nəzərdə tutulmuş adi otaqlara xas olan bir çox funksiyaların öz həllərinin həyata keçirildiyi “kvadrat üzərində günbəz” üsulu ilə həll edilirdi. Hər funksiyanın ayrıca tək məhdud zonanın olmasını tələb etdiyi bir bütöv məkanda bir çox funksiyaların həll edilə bilməsi nəticədə kvadratın hər tərəfi ətrafında əlavə dörd sahənin yaranmasına gətirib çıxardı. Funksiya ilə şərtləşdirilmiş bu yeni formalar konstruktiv nöqteyi-nəzərdən də bəraət qazanırdı. Çarpazın künclərində sonralar otaqların meydana gəlməsi hamamların formalaşması prosesinin məntiqi inkişafı idi. Bu cür inkişaf nəticəsində giriş künclər üzrə yerləşməklə həmin otaqları zalın mərkəzi hissəsi ilə bilavasitə birləşdirirdi. Həmçinin çarpaz-günbəzşəkilli tektonik strukturlarda icazə verilən digər təyinatlı binalardan fərqli ola-

raq, hamamlar üçün səciyyəvi olan, künc otaqların girişinin həlli artıq qeyd olunduğu kimi, zonal paylanma tələb edən, nəticədə vahid tam struktur yaradan funksional xüsusiyyətlərlə bağlıdır.

**İCTİMAİ İAŞƏ BİNALARI**

Azərbaycanın ictimai tikililəri arasında funksional təyinatına görə iki üsluba: ictimai yeməkxana və qəhvəxana üslublarına bölünən ictimai iaşə binaları da yer tutmuşdur.

**İctimai yeməkxanalar.** Ö.Çələbi [1, səh.164] və Rəşidəddin [75,səh.229] Şamaxı və Həmədan şəhərlərində bu binaların mövcud olması barədə məlumat vermişlər. Bir neçə növ yeməklərin satıldığı ictimai yeməkxanalar əsasən bazarlarda yerləşirdi. Onlardan "gəlmə subay sənətkarlar" və "hər bir şeydə qənaət etməklə yaşayanlar" istifadə edirdilər [1, səh.135].

**Qəhvəxanalar.** Şamaxıda onlar "xoş söhbətlərin aparılması üçün nəzərdə tutulmuş çox təmiz yer" idi [1, səh.164]. Təbrizin qəhvəxanaları küçələrdə və bazarda yerləşirdi [65, səh.141].

İctimai iaşə binalarının arxitektura görünüşü barədə məlumat yoxdur, bununla belə, ehtimal etmək olar ki, onlar xidməti otaqlarının birləşdirildiyi ümumi zalı olan kiçik birmərtəbəli tikililəri təşkil edirdilər. İctimai yeməkxanalardan fərqli olaraq, qəhvəxanalar birkameralı tikililər şəklində inşa edilə bilərdi.

**İnzibati idarələr**

Orta əsrlərdə bir sıra inzibati və dövlət məsələləri bu məqsədlər üçün xüsusilə ayrılmış binalarda həll edilirdi. Həmin binalar prinsip etibarilə aşağıdakı tipoloji təsnifatla əhatə olunurdu.

**Dövlətxana** – hərfi mənası "hökumət binası" idi, əsas inzibati idarə hesab edilirdi. Bu idarələr bir çox xanlıqların mərkəzlərində və ölkənin paytaxtında mövcud idi. Tarixi məlumatlarda tikintisi Şəmsəddin Eldəgəzin hakimiyyəti dövrünə (1136-1174-cü illər) aid edilən Naxçıvandakı dövlətxananın [81, səh.209] mövcud olması göstərilir [74, səh.377]. Sultan Üveys tərəfindən XIV əsrdə Təbrizdə inşa edilmiş dövlətxana öz dövrünün möhtəşəm binalarından biri hesab olunurdu. Həmin binanın ölçülərini onu öz gözləri ilə görmüş Klavixonun təsvirinə əsasən təsəvvür etmək olar. Klavixon qeyd edir ki, bu binada "iyirmi min aramgah və ayrıca otaqlar olmuşdur" [74, səh.413]. Bu, Təbrizdəki dövlətxananın özündə böyük çoxkameralı binanı əks etdirdiyini sübut edir. Hakimiyyətinin ilk illərində Misirdən alınmış bütün xərac Sultan Üveys tərəfindən onun tikintisinə sərf olunmuşdur [65, səh.198].

**Qanun evi**, məhkəmə işlərinin aparılması üçün nəzərdə tutulmuşdur. Qanun evlərinin inşasına başlanması prosesini IX əsrə, xəlifə əl-Muxtadi tərəfindən "ədalət məhkəməsi sarayı" adlandırılan, dörd girişli, günbəzli binanın tikintisinin həyata keçirildiyi dövrə aid

etmək olar [82, səh.197]. Ö.Çələbi Ərzurumda şəriət qanunu üzrə məhkəmə sarayının olmasını qeyd edir [1, səh.91]. Azərbaycan ərazisində Təbrizdəki Şam-Qazan kompleksində qanun evinin (beytül-qanun) mövcud olması haqqında məlumatlar vardır [65, səh.198]. Məlumatların olmaması və qorunub saxlanmaması səbəbindən nəzərdən keçirilən binaların memarlıq obrazı barədə fikir söyləmək çətindir. Əl-Muxtadinin “ədalət məhkəməsi sarayı”nı bundan öncə göstərilən təsviri əsasında köşk tipli birkameralı günbəzşəkilli bina kimi təsəvvür etmək mümkündür.

**Divanxana**, bir çox hallarda ayrıca tikilidə icazə verilən qəbul zalı rolunu yerinə yetirirmiş. Ö.Çələbi Mərənd şəhərinə səfər edərkən şəhərin xanı onu divanxanada qəbul etmişdir [1,səh.119]. Saray yanında qəbul zalı kimi qəbul edilən tikililər məlumdur: onlardan biri Taxti-Süleymaniyyə şəhərində yerləşən, tikintisi XIII əsrə aid edilən, günbəzi dörd sütun üzərində dayanan mərkəzi-günbəzşəkilli tikilidir.

**Nağaraxana**. Bu, Şərq şəhərlərində qarşıdan gələn hadisələri xəbər verən, eləcə də hökmdarı, şahı tərif etmək üçün çağırılan dövlət orkestrləri üçün nəzərdə tutulan xüsusi binadır [83, səh.145]. Şotlandiyalı həkim, səyyah Con Bell 1722-ci ildə Şamaxıya səfər edərkən qeyd etmişdir ki, orada, dağın zirvəsində, şəhərdən yüksəklikdə çoxlu pəncərələri və qalereyaları olan, gündə iki dəfə günəş çıxanda və batanda “dəhşətli səs-küy qaldıran uzun truba, baraban və tütəklərlə konsert verilən” xüsusi bina var idi [12, səh.136]. Tavernyeyə görə, Təbriz nağaraxanası barədə də məlumatlar mövcuddur: “meydanda və ya böyük bazar meydanında axşam günəş batanda və səhər günəş doğanda yarım saat truba və barabanlarda çalaraq böyük səs-küy yaradan xüsusi insanlar toplaşırlar. Onlar bunu meydanın bir tərəfində, xüsusi təpə üzərində edirlər və buna bənzər hal bütün mərkəzi fars şəhərlərində baş verirdi” [83, səh.146].

Bu ənənə ərəb istilası zamanı qorunub saxlanmış, İran üçün müqəddəs qalan Zərdüştilik hesab edilir [84]. Görünür, musiqiçilərin günəşin doğması və batması vaxtında ifası əhalini iş gününün başlanğıcı və sonu barədə xəbərdar edirdi, belə ki, konsertdən - səs-küydən sonra nağaraxanada, şəhərin küçələrində barabançalan gəzirdi və şəhər mühafizə dəstəsinin əlinə keçirdi [65, səh.139].

Nağaraxana arxitekturası barədə məlumat yoxdur. Onu da nəzərə almaq lazımdır ki, nağaraxana üçün heç də bütün hallarda Şamaxıdakı kimi ayrıca bina nəzərdə tutulmurdu. Nağaraxana, başqa binaların otaqlarında da yerləşə bilərdi, məsələn: İsfahan nağaraxanası keysəriyyəyə əsas girişin üst hissəsində yerləşirdi və musiqiçilərin qalereyası adlanırdı [84, səh.320].

**Elm-tədris müəssisələri**

Otra əsrlərdə Yaxın və Orta Şərqdə elmin inkişafı bir sıra xüsusi tikililərin inşasını tələb edirdi. Kitabların saxlanması ilə yanaşı, bir sıra digər funksiyaların birləşdiyi yeni müəssisələr meydana gəlirdi, "elm evləri" və "şəxsi akademiyalar" inşa olunurdu [82, səh.151].

**Kitabxanalar**. Kitabxanalar kitabların saxlanması ilə yanaşı, kitab istehsalı ilə də məşğul olan ilk elmi müəssisələr idi. Burada xəttatlar tərəfindən əlyazmaların üzü köçürülür, nəqqaşlar və rəssamlar tərəfindən müəyyən şəklə salınırdı. Sonra yeni işıq üzü görmüş kitabların bir hissəsi rəflərdə yerləşdirilir, qalan hissəsi isə başqa şəhərlərə göndərilirdi [85, səh.55]. Kitabxanalar özündə oxu zallarını, kitab saxlanılan yerləri, emalatxanaları birləşdirən müəssisələr idi. Onların ştatına alimlər, xəttatlar, şairlər, rəssamlar, cildçilər və başqa mütəxəssislər daxil idi.

Kitabxanalar sərbəst tikililər sırasına aid edilə bilər və ya digər binaların bir hissəsini təşkil edirdilər. Təhsilin səciyyəsindən və ədəbiyyatda təyinindən asılı olaraq, kitabxanaların saray kitabxanaları; ayrı-ayrı şəxslərə (vəzir, feodal) məxsus olan şəxsi kitabxanalar; məktəb və mədrəsələr yanında kitabxanalar [85, səh.54] kimi növləri ayırd edilirdi. Kitabxanaların daha iki kateqoriyasının adını çəkmək lazımdır: məscidlər yanında kitabxanalar, çünki öz kitablarını məscidlərə vəsiyyət etmək adəti mövcud idi [82, səh.148] və elmi müəssisələr nəzdində kitabxanalar (rəsədxanalar).

XIII-XIV əsrlərdə Azərbaycanda ən böyük kitabxanalar Qazan xan tərəfindən Şam-Qazanda inşa edilmiş, "beytü-l-kütub" adlanan iki kitabxana (kitab evi), həmçinin Rəşidəddin tərəfindən Rab-i Rəşidi məhəlləsində tikilmiş, nəzdində 60 min müxtəlif kitab və minlərlə Quran olan iki kitabxana hesab olunurdu [75, səh.275]. Marağa rəsədxanasının kitabxanası özündə təqribən 330 kv.m. sahəni tutan və 400 mindən artıq kitabı olan ayrıca mövcud olan tikilini əks etdirirdi [86, səh.12].

Müsəlman şərqi ölkələri üçün hadisələr sırasında eyni tələbata cavab verilməsi üçün nəzərdə tutulan binaların, məsələn: karvansaralar, mədrəsələr, hamamlar, məqbərələr və s. memarlıq-planlaşdırma həllində ümumilik müşahidə olunurdu. Xəlifə Ədud-əd-Daulanın kitabxanasının X əsrin ərəb coğrafiyaşünası Əl-Müqəddisi tərəfindən verilən təsviri bu nöqteyi-nəzərdən maraq doğurur: "kitabxana xüsusi binada yerləşirdi; kitabxana böyük vestibüldən və hər tərəfindən yan otaqlar tikilən uzun günbəzşəkilli zaldan ibarət idi" [82, səh.149]. Təsvirə əsasən ehtimal etmək olar ki, göstərilən vestibül eyni zamanda, dəhlizin köməyi ilə kitab saxlanılan yerin otaqlarına birləşən oxu zalı da olmuşdur. Hazırkı rekonstruksiya A.Metsin tərcüməsi əsasında edilmişdir.

Elə həmin kitabxananın rekonstruksiyasını L.Y.Mankovskaya V.V.Bartolda əsaslanaraq vermişdir. Onun fikrincə, kitabxana binası özündə ön tərəflərdən tağ-günbəzşəkilli qalereya keçən "kitab saxlanılan yer"lərin zallarının anfiladasını əks etdirir [6, səh.77].

**Rəsədxanalar**. Astronomiya xüsusi alətlərin və tikili-rəsədxana tikilisinin anlaşılması üçün tələb olunan ilk elmlərdən biridir. IX əsrdə Bağdadda, Dəməşqdə rəsədxanalar var idi. Azərbaycanda rəsədxana tikintisi astronomiyanın Çingizilərdə olduğu kimi böyük məşhurluqla istifadə edildiyi Elxanilərin hakimiyyəti ilə bağlıdır. Rocer Bekonun (1211-1292) qeyd etdiyi kimi, "orada başçılar xalqı insanlara gələcək barədə məlumat verən, yaxud astronomiya və təcrübə haqqında elm kimi, fəlsəfənin də bir hissəsi olan, ya da bütün Şərqin sadiq olduğu və bütün Şərqə hopmuş sehrli sənətlər olan gələcəyi görmə və elmlərin köməyi ilə idarə edir" [87,səh.216]. O, həmçinin göstərir ki, "tartarlar astronomiya ilə başqalarından daha çox məşğul olurlar, buna görə də, bir çox xalqlarda astronom alimlər olduğu halda, dövlət başçıları dövləti yalnız onların köməyi ilə idarə etmirlər; tartarlar hər şeydə - həm gələcəyin qabaqcadan görülməsində, həm də fəlsəfi əsərlərdə astronomiyanın yolu ilə gedirlər" [87, səh.219].

Göstərilən dövrdə astronomiyanın xüsusi sosial əhəmiyyətə malik olması nəticəsində Nəsirəddin Tusi Hülaki xanın əmri ilə "əyalətdə, yararlı hesab etdiyi, ulduzların müşahidəsi üçün bina" inşa etməli idi [71, səh.48]. Tusi Marağa şəhərini seçmiş və rəsədxana üçün binanın layihəsini hazırlamışdır [88, səh.66].

Marağa rəsədxanası kompleksinə əsas astronomik qüllədən savayı, aşağıdakılar daxil idi: mədrəsə, kitabxana, alətlərin yerləşdirilməsi üçün kiçik günbəzşəkilli tikililər və onların hazırlanması üçün emalatxanalar. Kompleksin əsas tikilisi əsas astronomik qüllə-diametri 22 m olan rəsədxana binası idi. Qüllənin bütün diametri üzrə şimal-cənub istiqamətində əsas astronomik alətin-kvadrantın yerləşdiyi, eni 310 sm olan otaq yerləşirdi. Sonuncunun qorunub saxlanmış hissəsi 5,15 metrə bərabərdir, kvadrantın tam uzunluğu isə hesablamalara görə 18,10 m təşkil etmişdir [86,səh.7]. Kvadrant boyunca hər iki tərəfdən alətlər dəsti və elmi işlər üçün nəzərdə tutulan otaqlar yerləşirdi. Qüllənin diametri və kvadrantın ölçüləri əsasında güman etmək olar ki, rəsədxana binasının hündürlüyü təqribən 20-21 metrə bərabər olmuşdur.

Əsas qüllənin-rəsədxananın yaxınlığında yerləşən kiçik günbəzşəkilli tikililər silindrik formaya malik olub, günbəzində oyuq müşahidə edilir ki, günəş şüaları bu oyuq vasitəsilə xüsusi təpə üzərində yerləşən alətin üzərinə düşürdü [88, səh.78]. Marağa rəsədxanasının tikintisi təcrübəsindən sonralar Azərbaycanın hüdudlarından kənarda da istifadə edilmişdir, məsələn: Səmərqənd (XV əsrin əvvəlləri) və Pekin (XIII əsr) rəsədxanalarının tikintisində. Sonuncuda həm də Marağa rəsədxanasının bir sıra alətləri təkrarlanmışdır [89, səh.429].

İkinci Azərbaycan rəsədxanasının tikintisinə 1300-cü ildə başlanılmış və təxminən 1304-cü ildə başa çatdırılmışdır [90]. Təəssüf ki, bu rəsədxananın memarlığı barədə məlumat yoxdur, o, tikintinin təşəbbüskarı olan Qazan xanın ölümündən sonra baxımsız qalmışdır.

Marağa rəsədxanası Səmərqənd rəsədxanası ilə müqayisədə daha sadə plana malik idi, lakin bu tikililərdə bir sıra ümumi tipoloji xüsusiyyətlər müşahidə olunur. Həmin xüsusiyyətləri aşağıdakı şəkildə müəyyən etmək olar:

- əsas astronomik alət altında çəkilən, binanın planının diametri üzrə otağın yaradılması;
- binanın əsas həcminin elmi müəssisələr kimi istifadə olunan iki sərbəst hissəyə bölünməsi.

Müqayisə edilən rəsədxanaların fərqi aşağıdakı şəkildə özünü büruzə verirdi:

— əsas astronomik alətin yerləşdirilməsində (Səmərqənd rəsədxanasının sekstantının bir hissəsi yer səviyyəsindən aşağıda yerləşirdi, Marağa rəsədxanasının kvadrantı isə yerin səthində yerləşirdi);

— rəsədxana binasının yan hissələrinin planlaşdırma strukturunda (Səmərqənd rəsədxanası inkişaf etmiş plan sisteminə malik olduğu halda, Marağa rəsədxanasında otaqlar yalnız ikicərgəli yerləşmişdi).

**Quranın oxunması üçün evlər**. Bu tikili üslubu əhalinin ilahiyyatçının rəhbərliyi altında Quran oxuması üçün toplaşdığı oxu və dərs zalı funksiyasını özündə birləşdirirdi. Orta əsr şəhərlərində (Təbrizdə onların sayı iyirmiyə yaxın idi) [1, səh.125] çox sayda mövcud olan həmin tikililərin memarlığı barədə məlumat yoxdur, görünür, bunlar ilk əvvəl məscid tərəfindən yerinə yetirilən funksiyaların məsciddən ayrılmasından sonra meydana gələn kiçik birkameralı tikililər olmuşdur.

**Məktəblər** mədrəsəyə qəbul olunmaq üçün lazım olan ibtidai təhsili almaq üçün nəzərdə tutulmuşdur. Məktəblər orta əsr şəhərlərinin demək olar ki, bütün məhəllələrində, adətən məscidlərin, eləcə də məktəb sahiblərinin evlərinin və bəzən də mədrəsələrin yaxınlığında inşa edilmişdir. Məktəblər arxitektura-planlaşdırma baxımından aşağıdakı tiplərə bölünür:

— Birkameralı məktəblər ehtimala görə, kiçik tikililəri özündə əks etdirirdi, planda düzbucaqlı olurdu, məhəllələrdə və məscidlərin yaxınlığında yerləşirdi. Bu, məktəblərin ən geniş yayılmış üslubu idi.

— Seksiya tikintisinə malik həyət üslubu ayrıca otaqların-hücrələrin həyət perimetri üzrə yerləşməsi ilə səciyyələnir. Bu üslubun ən sadə variantı kiçik həyətin hər iki tərəfindən cəmi 6 hicrin yerləşdiyi, Bakıda, İçərişəhərdəki Cümə məscidi yaxınlığındakı məktəbdir; ən mürəkkəb variantı isə 100 müəllim üçün nəzərdə tutulan, Şam-Qazandakı məktəbdir.

**Mədrəsə** orta təhsil almaq üçün nəzərdə tutulurdu. Tarixi məlumatlar Azərbaycanın şəhərlərində təəssüf ki, qorunub saxlanmayan, bir çox mədrəsələrin mövcud olmasından xəbər verir. Təkcə Təbrizdə onların sayı 47-ə yaxın idi, bunlar bütün elmlərin tədris olunduğu gözəl tərtibata malik tədris müəssisələri idi [1,səh.125]. XIII əsrin əvvəllərində Naxçıvan-

dakı ibadət kompleksi yaxınlığında Azərbaycan Atabəyləri tərəfindən iki mədrəsə tikilmiş və Möminəxatın türbəsinin vəqf mülklərinə aid edilmişdir [91]. Atabəy Şəmsəddin Eldəgəz /1136-1172-ci illər/ tərəfindən Həmədanda da mədrəsənin tikilməsi məlumdur [61].

L.Y. Mankovskaya ön tərəfdən əsas fasada çıxışı olan ictimai otaqlar (vestibül, dərsxana, məscid) və açıq həyət ətrafında qruplaşan tələbə yataqxanaları olan həyət sahəvi təşkil forması şəklində memarlıq tərtibatına malik ali məktəb-internatı özündə əks etdirən mədrəsənin dəqiq səciyyəvi xüsusiyyətini verir [6, səh.83]. Baxılan dövrün qorunub saxlanan mədrəsələri içərisində bizə məlum olanlar bunlardır: Dərbənddəki (XV əsr) və Ordubaddakı (XVII əsr) mədrəsə. Mədrəsənin təsnifatı üçün faktik material olmadığından əvvəllər mövcud olmuş mədrəsələrin xüsusiyyətlərini daşıyan Qəzvindəki Heydəriyyə mədrəsəsi (XIX əsr) və Təbrizdəki (C.Qiyasi və D.Uilber) Əli şah məscidi yaxınlığındakı mədrəsənin rekonstruksiyası da buraya aid edilir. Mədrəsənin memarlıq tipologiyası həyətin kompozisiyası ilə qarşılıqlı əlaqəlidir. Ordubad, Təbriz, Qəzvindəki mədrəsələr birhəyətli sistemi təşkil edir. Dərbənddəki mədrəsə seksiya tikintisi ilə birlikdə həyət sistemini təşkil edir. Azərbaycandakı mədrəsələr seksiya tikintili həyət üslubunu əks etdirir. Mədrəsəni məscidlə qarşılıqlı əlaqədə təsnif edərək göstərilən üslub daxilində üç müxtəlif növü ayırd etmək olar:

— öz strukturu əsasında məscidə malik olan mədrəsələr (Qəzvindəki XIX əsrə aid Heydəriyyə mədrəsəsi). Qəzvində mədrəsəni tikintisi zamanı onun strukturuna XI-XIII əsrlərin məscidi daxil edilmişdir;
— məscidsiz mədrəsə qrupunun səciyyəvi nümunəsi Ordubaddakı mədrəsədir (XVII əsr);
— məscid yanında mədrəsə (Təbrizdəki Əli şah məscidi və Dərbənddəki Cümə məscidi yanında mədrəsə).

Mədrəsənin mənşəyi məsələsi bir çox alimləri maraqlandırmışdır. Mədrəsənin yaranması İslamın təşəkkül tapması, "tədris"in (şərh) üstünlük təşkil etdiyi yeni tədris üsullarının meydana gəlməsi ilə bağlı idi. "Onların yaranmasının başlıca səbəbi, görünür, həmin vaxtdan hamı tərəfindən qəbul edilən disputların (münazərə) tədrislə sıx bağlı olması faktı olmuşdur, məscid isə bunun üçün münasib yer deyildi" [82, səh.154].

Mədrəsənin memarlıq forması İslam dövründə meydana gəlmişdir, yoxsa o, əvvəllər mövcud olmuş tikililərin davamı yaxud uyğunlaşdırılmasıdır?

Akademik V.V. Bartoldun fikrincə, Orta Asiya budda monastrları – vixaralar mədrəsənin memarlıq formasının toplanması üçün göndəriş nöqtəsi idi [92, səh.144]. A.M. Pribıtkova bu mövqeyə tərəfdar çıxaraq, ehtimal edir ki, "Mədrəsə üslubu Orta Asiyadan İrana və sonralar Ön Asiyaya yayılmışdır" [92, səh.144]. L.Y. Mankovskayanın fikrincə, mədrəsə rabatın əsasında meydana gəlmişdir [6, səh.83]. Q.A. Puqaçenkova A.Qodarın bu tikili-

nin mənşəyini yerli yaşayış məskəni memarlığı ənənəsi ilə bağlamaq cəhdini haqlı olaraq tənqid edir [79, səh.341]. Q.A. Puqaçenkovanın mövqeyini fərqləndirərək, hesab edirik ki, mədrəsə memarlığının yaşayış yerləri memarlığından törəndiyini zənn etmək üçün tutarlı əsaslar mövcud deyil, planlaşdırma strukturunun ümumiliyi hələ alınma demək deyil.

Mədrəsə aşağıdakı funksiyaları yerinə yetirir: təlim, bunun üçün kiçik eyvanlar, tələbələrin yaşayış yerləri-hicrlər və məscidlər nəzərdə tutulurdu. Bütün bu komponentlər planda həyət ətrafında yığılaraq qapalı həyət sistemini yaradır. Qapalılıq mədrəsənin təcrid edilməsi və xüsusiləşməsi üçün vacibdir. Dərbənddəki mədrəsə bunun təsdiqidir. Bu tikili öz-özlüyündə xətti strukturu əks etdirir, hicrlər və eyvan həmin struktur boyunca yerləşir. Cümə məscidində olarkən əhatə edən tikintinin yanaşı tərəfləri ilə birgə vahid həyət sistemini yaradır.

**Dərülhədis** (peyğəmbərlərin hədislərinin şərh edildiyi evlər) - dini hüququn yüksək səviyyədə öyrənilməsi kolleci [93, səh.458]. Ö.Çələbi Təbrizdə 7 darülhədisin olduğunu qeyd edir [1, səh.125]. Darülhədislər dini hüquq üzrə mütəxəssislər hazırlayan ixtisaslaşmış ali təhsil müəssisələri idi.

**Universitet (darülfünun).** Ali təhsil verən bu tədris müəssisəsi XIV əsrin əvvəllərində Təbrizdə yaranmış və 7 mindən çox tələbənin təhsil aldığı, Yaxın Şərqin böyük elmi mərkəzlərindən biri hesab edilirdi [94, səh.52].

Tələbələrin yaşayışının və təhsilinin eyni binada cəmləşdiyi mədrəsədən fərqli olaraq, təbiətşünaslıq, fəlsəfə, tarix, təbabət, astronomiya, məntiq, ilahiyyat kimi şöbələrə malik olan universitet bir neçə binadan, yaxud bir çoxhəyətli strukturdan və tələbələrin yaşaması üçün nəzərdə tutulan ayrıca tikililərdən ibarət olan tədris zonasına bölünürdü.

Darülhədislər və universitetlər mədrəsədən fərqli olaraq, çox sayda tələbələrin bu vaxtadək bir həcmi-fəza strukturda icazə verilən yaşayış yerinin təhsildən ayrılmasının baş verdiyi ali təhsil müəssisələridir. Bu ayrılma bir neçə ayrıca binanın yaranmasına gətirib çıxardı. Buna bənzər üslubdan olan təhsil müəssisələri daha əvvəllər də mövcud olmuşdur. V.V. Bartold qeyd edir ki, kitabxana və auditoriyalardan ibarət olan Qaziyədəki Mahmud mədrəsəsində yaşayış hicrləri yox idi [95,səh. 621-622].

### Müalicə müəssisələri

Orta əsrlərdə Azərbaycanla həmsərhəd olan ölkələrdə xəstəxanalar stasionar və qeyri-stasionar xəstələr üçün otaqlardan, ruhi xəstələr üçün şöbələrdən, eləcə də digər köməkçi otaqlardan ibarət geniş komplekslər idi [80,səh.20]. Müalicə müəssisələrinin tikintisi həmçinin Azərbaycanda aparılırdı, Elxanilərin hakimiyyəti dövründə buna daha güclü diqqət yetirilirdi. Xəstələrə qayğı göstərmək müsəlman padşahların, vilayət və şəhər başçı-

larının vəzifə borcu idi, onlar müalicə binalarının tikintisinə səhlənkar yanaşmalı deyildilər, belə ki, "xeyriyyə müəssisələrinin-mədrəsə, xanəgah və hərbi müalicə müəssisələrinin dəbdəbəsi heç bir halda etinasızlığa və qayğısızlığa yol verilməməli olan vacib işlər sırasına aiddir" [75,səh.293].

Tarixi mənbələr Azərbaycanın bir sıra şəhərlərində müalicə binalarının mövcud olduğunu göstərir. Həmədan və Təbrizdəki hərbi müalicə müəssisələri məlumdur. Rəşidəddin oğlu, Rum hökmdarı Xoca Cəlaləddinə məktubunda "İran ölkəsində tikdirdiyimiz hərbi müalicə müəssisələrimiz üçün" lazım olan dərmanların göndərilməsini xahiş edir [75,səh.153]. Təbrizdəki Rubi Rəşidi məhəlləsinin əsas "həkimlər" küçəsində Hindistan, Çin, Misir, Şamdan gəlmiş tibb işçiləri yaşayırdılar. Onlar məhəllə hərbi müalicə müəssisələrində xəstələrin müalicəsi ilə məşğul olurdular [75,səh.344,345]. Həmin hərbi müalicə müəssisələrində xəstələrin müalicəsi ilə yanaşı, həm də bacarıqlı həkimlərə təhkim edilmiş tələbələrin tibbi təcrübə keçməsi də həyata keçirilirdi.

Elm və tibbi təcrübənin inkişafı çərçivəsində müalicə binalarının bu və ya digər profil üzrə ixtisaslaşması baş verirdi, bu barədə orta əsrlərdə Türkiyədə müxtəlif xəstəxana adlarının (bimarxana, darüşşifa, şəfaxana, timarxana, maristan) olmasına görə fikir söyləmək olar [93, səh.458].

Rəşidəddinin məlumatlarına əsaslanaraq, Azərbaycanda Elxanilər dövründə yayılmış bir müalicə müəssisəsi üslubunu-hospitalı qeyd etmək olar.

Hospitallar özündə stasionar və ambulator müalicə ilə yanaşı, tələbələrin-tibb işçilərinin tədrisinin, dərmanların hazırlanmasının həyata keçirildiyi çoxfunksiyalı binanı əks etdirirdi. Azərbaycan ərazisində orta əsrlərə aid müalicə binaları qorunub saxlanmamışdır. Bununla belə, Türkiyədəki buna bənzər tikililər əsasında hospitalların görünüşü barədə fikir söyləmək olar. Sivas şəhərindəki hospitallardan biri xüsusən, 1220-ci ildə Azərbaycan memarı Əhməd Məhəmməd oğlu Arani tərəfindən tikilmişdir [96,cədvəl 42]. Hospitallar həyət kompozisiyalı memarlıq-planlaşdırma strukturunu özündə əks etdirirdi, burada perimetr boyunca xəstələr üçün hücrələr və digər xidməti otaqlar yerləşirdi.

### Xeyriyyə müəssisələri

Xeyriyyə müəssisələri üçün binalar ayrı-ayrı feodal- hökmdarlar tərəfindən tikilirdi. Belə binalara adətən kimin vəsaiti hesabına tikilmişdirsə, həmin şəxslərin adları verilirdi.

**İmarətlər** - Yaxın Şərq ölkələrinin feodal şəhərlərində xeyriyyə məqsədləri üçün tikilən, evsizlərin yaşayış yeri kimi istifadə olunan sığınacaq evləri belə adlanırdı. Ö.Çələbinin Təbrizə gəldiyi vaxtda orada Sultan Uzun Həsən, Zübeydə xatun, Şah Yaqub, Xəlifə Mütəvəkkilin imarətləri var idi [1,səh.129].

**Uşaqlar üçün xeyriyyə müəssisələri** imarətlərlə yanaşı mövcud idi və yetimlər üçün nəzərdə tutulurdu, burada onlar tərbiyəçilərin nəzarəti altında saxlanırdılar və təhsil alırdılar. Bunlar darül-itam (yetimlər evi), beytül-təlim (tərbiyə evi) adlanan [97,səh.32] bir növ məktəb-internat idi. 100 uşaq üçün nəzərdə tutulan yetimlər üçün belə məktəblərdən biri Qazan xanın əmri ilə Təbrizdə tikilmişdir, onun ştatına müəllimlər, tərbiyəçilər və uşaqların saxlanması, tərbiyə edilməsi və onlara təhsil verilməsi üçün lazım olan digər işçi heyəti daxil idi [71,səh.239].

Zənn etmək olar ki, xeyriyyə müəssisələrinin binaları memarlıq-planlaşdırma həllinə görə şəhər karvansaralarına və mədrəsəyə yaxın memarlıq üslubunu özündə əks etdirirdi, belə ki, onların otaqlarının böyük qismini yaşayış hicrləri təşkil edirdi.

**İdman tikililəri**

Azərbaycanda keçirilən bayramların ayrılmaz komponenti idman yarışları idi. Bir çox idman yarışları açıq havada keçirilirdi və kiçik tikililərin olmasını tələb edirdi: "çovqan" oyunu (at polosu) üçün darvazalı meydançalar yaradılırdı, yaydan ox atmaq üçün yuxarı hissəsində nişangah olan hündür sütunlar inşa edilirdi. Xüsusi eyni adlı tikililərin olmasını tələb edən "zorxana" oyunları idman oyunları sırasında istisna təşkil edir. Mövcud məlumatlara görə, zorxanalar Azərbaycanın Bakı, Şamaxı, Şəki, Şuşa, Gəncə kimi bir sıra şəhərlərdə var idi. Təəssüf ki, sadalanan zorxana tikililərindən heç biri qorunub saxlanmamışdır, biz onlar barədə ədəbi mənbələrdəki təsvirlərə görə mülahizə irəli sürə bilərik, onların rekonstruksiyası əsasında aşağıdakı üslubları ayırd etmək olar.

Çarpaz və günbəzşəkilli üslub (bu üslubun təsviri A.V. Salamzadəyə görə verilir [12]. Bu üslubdan olan zorxana binaları otaq planında çarpazşəkilli formaya malik mərkəzi-günbəzşəkilli tikililəri özündə əks etdirirdi. "Bu planlaşdırma üslubuna məscidlər, hamamlar, məqbərələr və hətta bir sıra hallarda saray tikililərində rast gəlmək olar". Mərkəzi kvadrat otağın döşəməsində idman məşğələləri üçün nəzərdə tutulan, "qout" adlanan xüsusi səkkizbucaqlı meydança təşkil olunurdu. "Qout", burada keçirilən idman məşğələlərinə müvafiq olaraq xüsusi döşəmə quruluşuna malik idi.

**Birkameralı üslub**. Bu üslubdan olan zorxana binası planın təsvirinə görə kvadrat, yaxud dairəvi plana malik ola bilər. Bakıda Cümə məscidinin binası yaxınlığında kvadrat planlı, qapalı çatma tağ ilə zorxana var idi [98, səh.71]. Kvadratın hər tərəfi 10 metrə bərabər idi, binanın ortasında döşəmə səviyyəsindən aşağıda "sufra" meydançası yerləşirdi. Şuşada dairəvi planlı zorxana var idi [99, səh.560], burada divarların ətrafında gənclərin paltarlarını dəyişdiyi taxta skamya-yaruslar yerləşirdi. Aşağı yarus sirk səhnəsini xatırladırdı və ondan yarışlar üçün istifadə edilirdi. Şuşa zorxanasının örtüyü mərkəzdə işıqlandırma və havalandırma üçün oyuğa malik idi.

**Hidrotexniki qurğular**

Azərbaycanın təbii şəraitinin müxtəlifliyi şəhərlərin və yaşayış məntəqələrinin su təchizatının müxtəlif variantlarını müəyyən etmişdir. Təbii şərait və su mənbələri su təchizatı qurğularının tiplərini müəyyən edirdi. Qrunt sularının səthdə yerləşməsi halında su çəpəri üçün quyulardan istifadə olunurdu. Suvarma üçün kanallar sistemindən istifadə edilirdi, Mil düzündə qollara ayrılmış kanallar şəbəkəsi mövcud idi. Yaşayış məntəqələrinin və karvanların su ilə təmin edilməsi orta əsrlərdə hökumətin başlıca vəzifələrindən biri idi. Rəşidəddin oğluna məktubda yazır: "əvvəllər tikilmiş və köhnəlmiş su anbarlarını, susuz və təhlükəli yollarda tikilmiş açıq və qapalı su anbarlarını səliqəli vəziyyətə gətirmək lazımdır" [75,səh.149].

Əksəriyyətini su təchizatı tikililəri və su anbarları təşkil edən, Azərbaycanın orta əsrlərdəki hidrotexniki qurğularının tipoloji təsnifatını aşağıdakı kimi təsvir etmək olar.

**Arxlar**. Onların köməyi ilə yaşayış məntəqələrinə su gətirilirdi, arxlar sistemi həmçinin suvarma üçün nəzərdə tutulmuşdur. Bir sıra hallarda kanalların təməl qoyma layihəsi yeni kəndlərin yaradılması ilə həyata keçirilirdi, Rəşidəddinin yeni Rəşidi və Qazani arxlarının qazılması barədə yazdığı məktublarındakı layihələri bunu açıq-aydın nümayiş etdirir [75, səh.283,284].

**Su təchizatının kəhriz sistemi** dağ süxurlarının müəyyən qatında hərəkət edən yeraltı suların tunel-boru vasitəsilə saxlanmasını yerinə yetirirdi [100, səh.204]. Kəhriz tunelləri kəsimdə 0,5x0,75 yaxud 1,0x1,5 m ölçüyə malik idi, yastı və ya tağlı konstruksiya ilə örtülürdü. Kəhriz tunelləri daş, kərpiclə üzlənmiş, havalandırma və suyun çəpərlənməsi üçün nəzərdə tutulan, ilk öncələr qruntun çıxarılması üçün istifadə edilən mədən-quyulara malik idi [100,səh.205]. Su təchizatının kəhriz sistemi Şamaxı, Ordubad və Bakıda mövcud idi. XVIII əsrin sonuna kimi Bakı üç kəhriz tuneli ilə təchiz edilmişdir: Şah, Məmmədquluxan, Hüseynqulu xan [101,səh.226].

Bakı kəhrizləri üç elementdən ibarət idi: bərk qruntlarda açılan, yaxud yumşaq qruntlarda daşlardan döşənən tunel-kanallar; baxış quyuları və tağlı sisternlər. Bu sistemə suyun çəpərlənməsi üçün ovdanlar daxil edilirdi, suyun bir hissəsi isə şəhərin qala divarları arxasındakı su anbarlarında toplanırdı [100, səh.207].

**Çeşmə** su təchizatı ilə bağlı olan mühəndis tikilisi, özünəməxsus axar hovuzdur, Ordubaddan məlumdur [100, səh.205]. Çeşmə kəhrizdən gələn, daim dövran edən su axınına malik hovuzu özündə əks etdirirdi. Bu hovuz Ordubaddakı evin həyətində yerləşən, günbəzşəkilli yarımyeraltı otaqların döşəməsində yerləşirdi. Həmin otaqlardan çox vaxt məhsulların saxlanılması üçün istifadə edilirdi.

**Bulaqlar.** Bu tikililər bulaqların yer səthinə çıxdığı yerdə tikilən, bulaq sularının çəpərlənməsi üçün nəzərdə tutulurdu. Onlar su novunu dövrəyə alan tağşəkilli oyuğu olan

daş divarcıq görünüşünə malik idi. Bulaqlara həm də tikilinin ümumi kompozisiyası ilə birgə ona memorial səciyyə verən xatirə yazıları daxil idi [100, səh.205].

**Səbillər (su anbarları).** Təbrizdə XVII əsrə qədər suyun saxlanıldığı və pulsuz satıldığı çox sayda su anbarları mövcud idi, onlar arasında ən məşhurları Rüstəm xan, Şah İsmayıl, Kər Xudabəndə, Xoca şah, Reza, Yar Əli adları altında mövcud olan sebillər idi [1, səh.125-126]. Onların memarlığı haqqında anlayışımız yoxdur, böyük ehtimalla, onlar əhalinin su ilə təmin edilməsi kimi xeyirxah məqsədlərlə ianəçilərin vəsaiti hesabına ucaldılan kiçik tikililər idi [100, səh.205].

Dərbənddə boru kəməri vasitəsilə doldurulan, XVII əsrə aid su anbarı qorunub saxlanmışdır [102, səh.80]. Su anbarlarının səciyyəvi xüsusiyyəti onların tutumunun torpaqda yerləşməsidir. Su anbarlarının aşağıdakı üslublarını ayırd etmək olar: birkameralı (həldən asılı olaraq, planda günbəzşəkilli kvadrat və düzbucaqlı qübbəşəkilli otaq ola bilər); çarpaz-günbəzşəkilli üslub. Hər iki üslub qorunub saxlanmış Dərbənd nümunələri ilə səciyyələnir və orta əsrlərdə Azərbaycanda da mövcud olması mümkün idi.

**Buzxana** buzun saxlanması üçün nəzərdə tutulan, qübbəşəkilli otaqları özündə əks etdirən yarımyeraltı, birkameralı tikililərdir. İsmayıllı rayonu, Ordubad və Naxçıvandakı buzxanalar dövrümüzə qədər gəlib çatmışdır. Naxçıvandakı baxılan dövrün buzxana binaları (XIV əsrin sonu) Azərbaycan ərazisində qeydə alınmış buzxanalardan ən böyüyü idi [103,səh.4].

**Ovdanlar** Abşeronun yarımsəhra zonası üçün səciyyəvi olan özünəməxsus mühəndis tikililəridir. V.İ. Toçilovun bir sıra məqalələri ovdanların öyrənilməsinə həsr olunmuşdur [104,105,106]. Bu tikililər suyun toplanması səciyyəsindən asılı olaraq, iki növə bölünür: yağış suyunun toplanması, çəpərlənməsi və qrunt sularının çəpərlənməsi üçün. Bu kiçik fərq onların memarlıq və texniki həllində öz əksini tapır. Ovdan aşağıdakı komponentlərdən ibarətdir: yuxarı düzbucaqlı kamera-giriş, pilləli qübbəşəkilli tunel və yeraltı kamera. İcradan asılı olaraq, yuxarı düzbucaqlı kamera olmaya bilər, belə olan halda bayırdan tunel çıxır.

Yuxarıda göstərildiyi kimi, suyun çəpərlənməsi səciyyəsindən asılı olaraq, yeraltı hissənin iki müxtəlif növü var. Birinci halda yağış suyunun toplanması və çəpərlənməsi üçün ovdanların yeraltı hissəsi çatısı bərkidici tağlarla bərkidilən düzbucaqlı birkameralı tikilini əks etdirirdi. Yeraltı kameranın uzunluğundan asılı olaraq çatıda işıqlandırma və havalandırma üçün nəzərdə tutulan iki və ya üç dəlik olurdu. Bu halda xüsusi düzəldilmiş kiçik arxlar vasitəsilə toplanan yağış suyu daş novlardan yeraltı kameraya axırdı. İkinci halda tunel qrunt suyunun quyudan çəpərlənməsinə xidmət edirdi (Novxanı kəndi kənarındakı ovdan).

**Körpülər**. Ticarət və hərbi tələblər Azərbaycan ərazisində monumental körpüsalmanın inkişafına yardım etmişdir. Körpüsalmanın ən erkən nümunəsi kimi Tərtər çayının köhnə məcrasında tikilmiş onaltı aşırımlı körpünü (VI-VII əsrlər) göstərmək olar [11, səh.40].

Memarlıq kompozisiyasının öyrənilməsinə həsr olunmuş elmi ədəbiyyatda körpülər daxili məkana malik olmayan tutumlu kompozisiyalara aid edilir [29, səh.36]. Lakin Azərbaycanın sahil dayaqları üzərindəki bir sıra körpüləri yerlərə-karvansaralara malikdir. Belə körpülərin səciyyəvi nümunəsi Xramçay üzərindəki "Sınıq körpü"dür (XII əsr).

Şəhər tikintisi hüdudlarında yerləşən körpülər tətbiqi funksiyalardan əlavə, şəhər küçəsinin bir hissəsidir və bir neçə ictimai əhəmiyyətli digər funksiyaları da yerinə yetirir. Belə ki, körpülər giriş rolunu oynayır və əyləncə, gəzinti [80, səh.178], alış-veriş yeri (Təbrizdə Meydançay üzərindəki körpü) ola bilirdi [96, cədvəl 27].

Azərbaycanda körpülərin tikintisi zamanı onların memarlıq-bədii həllinə də texniki tələbləri ilə bərabər səviyyədə lazımi diqqət yetirilirdi.

Azərbaycan memarlığı tarixinin öyrənilməsinə dair ədəbiyyatda körpülərin müxtəlif: planlaşdırma, funksional, memarlıq-bədii, konstruktiv əlamətlər üzrə aparılan təsnifat təcrübəsi [19, səh.18] mövcuddur ki, bu da körpülərin daha dəqiq öyrənilməsinə kömək edir. Tipoloji səciyyə məsələsinin həllində, tipoloji təsnifat zamanı təsnifatın əsasına digər bina və tikililərin təsnifatı hallarında olduğu kimi, memarlıq kompozisiyasının əsas əlaməti-həcmi-fəza struktur qoyulmalıdır.

Orta əsrlərdə Azərbaycanda mövcud olmuş körpülər öz həcmi-fəza həllində körpülərin əsas funksiyası ilə izah edilən xətti strukturu əks etdirir. Körpülərin aşırımlarının sayı keçidin məsafəsi ilə müəyyən edilirdi, lakin onların çaylar üzərində qurulduğu, təbii qaya çıxışlarına-astanalara malik olan yerlərdə aşırımların ölçüləri astanalar arasındakı məsafə ilə təyin edilirdi, belə ki, onların üzərində daşıyıcı dayaqlar quraşdırılırdı [107, səh.91]. Aşırımların sayı Azərbaycandakı körpülərin vahid memarlıq üslubunun strukturundakı müxtəlif növləri müəyyən edir. Belə ki, onlar bir aşırımlıdan tutmuş (Naxçıvan MR-nın Qazançı kəndindəki XVI əsrə aid körpü) on beş aşırımlıya (Araz çayı üzərindəki XII əsrə aid Xudafərin körpüsü) qədər böyük müxtəlifliyə malikdir.

Hidrotexniki qurğular digər mülki tikililərdən fərqli olaraq, sırf tətbiqi funksiya daşıyır. Hidrotexniki qurğuların formalaşması onların məhz həlli üçün yaradıldığı funksiyası ilə təyin edilirdi.

İctimai əhəmiyyətli mülki tikililərin aparılmış tədqiqatı aşağıdakı sistem-təsnifatı tərtib etməyə imkan verir, bu, bizim fikrimizcə, onların tipoloji müxtəlifliyini əks etdirir (cədvəl 2-yə bax).

Yeni aşkara çıxarılmış memarlıq abidələri mülki memarlığın sonrakı öyrənilməsi zamanı təklif edilən sistem-təsnifatda onun strukturunu pozmadan müvafiq yer tuta bilər.

## § 3. Müdafiə tikililəri

Müdafiə tikililəri müdafiə, istehkam tikililəri ilə yanaşı, bir sıra mühəndis tikililərinin, körpülərin və qısamüddətli yaşama üçün nəzərdə tutulan yaşayış evlərinin aid olduğu hərbi memarlığın bir hissəsidir. Azərbaycanda müdafiə tikililərinin tikintisi qədim ənənəyə malikdir. VII əsrdə ərəblərin hücumu zamanı Azərbaycandakı fars canişini İsfəndiyar ibn Fərruxzad ərəblərə bəyan etmişdi ki, "Azərbaycan əhalisini tabe etmək çətin olacaq, çünki o, çoxlu qalalar olan dağlarda gizlənəcək və oradan basqın edəcək..." [108, səh. 80]. Ərəb coğrafiyaşünası Yaqut əl-Həməvi də orta əsrlərdə Azərbaycanın Xalxal mahalının alınmaz qalalarının adını çəkir [108, səh. 23].

Yeni müdafiə tikililərinin tikintisinə, mövcud olanların isə bərpa olunmasına Elxanilər də yardım etmişlər. Rəşidəddin öz məktublarından birində bu məsələnin vacibliyini qeyd edir: "Qüllələrin gücləndirilməsi, müdafiənin möhkəmləndirilməsi və qazıntıların qazılmasında xırda şeyi belə qaçırmayın...ondan ötrü ki, narahatçılığın əzəməti ilə yağışlar arasında fəlakət baş verdiyi zaman (o) bizim ardıcıllarımız və uşaqlarımız üçün sığınacaq yer, tərəfdarlarımızın və nəvələrimizin qaça bildiyi yer ola bilərdi" [75, səh. 188].

Azərbaycandakı müdafiə tikililərini müdafiənin təyinatına və prinsipinə görə aşağıdakı qruplara bölmək olar: hər biri öz tikili üslubuna məxsus olan, şəhərlərin və yaşayış məntəqələrinin müdafiəsi üçün nəzərdə tutulan tikililəri, müdafiə sədləri, ayrıca dayanan qalalar və qəsrlər, ayrıca dayanan müdafiə qüllələri.

**Şəhərlərin müdafiəsi.** Şəhərin müdafiə sistemi onun strukturuna uyğun idi və şəhərin özünün və içqalaların müdafiə sistemindən ibarət idi. Şəhərlərin müdafiəsi üçün həqiqətən divarların və müdafiə qüllələrinin özündən ibarət olan müdafiə, qala divarları ucaldılırdı. Bir qayda olaraq, şəhərlərin (Şəmkir, Bakı, Təbriz, Gəncə və s. şəhərlər) ətrafında bir sıra müdafiə divarları ucaldılırdı. Şəhər idarəetməsinin və zadəganların yerləşdiyi içqalasının da özünün müdafiə divarları və qüllələri var idi.

**Müdafiə divarları.** Bu üslubdan olan müdafiə tikililəri daha böyük ərazilərin müdafiəsi üçün nəzərdə tutulurdu və tez-tez zorla daxil olan düşmən kütləsinə qarşı sipər kimi ucaldılırdı. Üç müdafiə səddi silsiləsinə (Dərbənd müdafiə səddi, Beşbarmaq və Gilgilçay müdafiə sədləri) malik olan Azərbaycan ərazisinə şimaldan hücumların qarşısını almaq üçün ucaldılmış müdafiə sədlərini misal göstərmək olar. Bu qrupu səciyyələndirən daha sonralar inşa edilmiş nümunə kimi Əsgəran müdafiə səddini (XVIII əsr) göstərmək olar. Bir qayda olaraq, müdafiə sədləri və çəpərləri nəzarət və kiçik qarnizonun yerləşdirilməsi üçün istifadə edilən, ayrıca dayanan kiçik qala ilə müşayiət olunurdu.

**Ayrıca dayanan qalalar.** Bu, müdafiə tikililərinin ən geniş yayılmış üslubudur, burada yaxınlaşan təhlükə zamanı qonşuluqdakı rayonların əhalisi müdafiə oluna bilirdi. Ayrıca da-

yanan qalalar müdafiə üçün daha əlverişli, mürəkkəb relyefdə tikilirdi. Bir çox hallarda yerin relyefini qalanın planlaşdırma təsviri müəyyən edirdi. Ayrıca dayanan qalalar həm mərkəzi hakimiyyət, həm də yerli feodallar tərəfindən tikilə bilirdi [110, səh. 128], tikilmiş qalanın ölçüləri və gücü bundan asılı idi.

Çoxsaylı əhalinin ayrıca ucalan qalalarda yerləşdirilməsi qala divarları daxilində yaşayış, su təchizatı və digər tikililərin olmasını tələb edirdi. Uzunmüddətli müdafiə üçün nəzərdə tutulan Əlincə qalası (Naxçıvan MR), Şamaxı yaxınlığındakı Gülüstan qalası saray və yaşayış binalarına, su təchizatı və təsərrüfat tikililərinə malik idi.

Ayrıca ucalan dağ qalaları pis vəziyyətdə qorunub saxlandığından onların daxili planlaşdırılması barədə məlumat yoxdur.

Nəzərdən keçirilən qalaları ümumilikdə iki üsluba bölmək olar: bürclü və bürcsüz. Feodalla sadə əhalinin sosial vəziyyətindəki fərq relyefin ən yüksək yerində yerləşən, əlavə olaraq möhkəmləndirilmiş bürclərin burda da yaradılmasına səbəb olmuşdur. Bürclü qalanın strukturunun müdafiə tikintisində ənənəvi olmasını söyləmək olar, ona İsmayıllı rayonunda Cavanşir qalasındakı ən erkən qalalarda (VI-VII əsrlər) [111, səh. 133-134], Çıraqqalada (V-VI əsrlər) rast gəlinir və sonrakı dövrdə İsmayıllı rayonundakı Qız qalası (XII əsr), Gədəbəy rayonundakı Namərdqala (XII əsr), Ağdam rayonundakı Əsgəran qalasında (XVIII əsr) davam edir.

Yerli feodallar tərəfindən tikilmiş kiçik ayrıca ucalan qalalar, görünür, bürclərə malik deyilmiş. Bu halda qalanın künclərindən biri yaşayış otaqları üçün ayrılırdı, bunu Goranboy rayonundakı Gülüstan qalasında müşahidə etmək olar. Həmin qala relyef formasını təkrarlayır, yaşayış və xidməti otaqların qalanın divarlarına bilavasitə birləşməklə onun künclərindən birində yerləşdiyi uzadılmış planlaşdırmaya malikdir.

Ayrıca ucalan qalalar heç də bütün hallarda əhalinin müdafiəsi üçün tikilmirdi, onlar başqa məqsədlər üçün də tikilə bilirdi. Belə ki, Hülaki xan Təbriz məlikindən "Bağdadda ələ keçirilmiş sərvətin saxlanması üçün dağ başında möhtəşəm, həddən artıq möhkəm bina tikməsini" əmr etmişdi [71, səh. 66].

**Qəsrlər** yerli feodallar tərəfindən tikilən, az sayda əhalinin müdafiəsi üçün nəzərdə tutulan müdafiə tikililərinin maraqlı və özünəməxsus tipoloji qrupunu əks etdirir. Qəsrlərin tipoloji qrupu təyinatından asılı olaraq iki qola ayrılır: təhlükə yaxınlaşan zaman istifadə olunan qəsr-qüllələr və daimi yaşama üçün istifadə olunan qəsr-yaşayış yerləri.

Qəsr-qüllələr XII-XIV əsrlərdə Abşeron yarımadasında öz inkişafını tapmışdır, onların meydana gəlməsi Şirvanşahların iqamətgahının Bakıya köçürülməsi ilə bağlıdır [112, səh. 143]. Abşerondakı qəsrlərin öyrənilməsinə geniş sayda xüsusi ədəbiyyat həsr olunmuşdur, "onların feodallar daimi yaşayış yeri olması, yoxsa yalnız təhlükə zamanı sığınacaq kimi

istifadə olunması sualı hələ öz həllini tapmamışdır. Bununla belə, zərurət olduqda qəsrlərin daxili sahəsində təkcə feodalın ailəsi və qulluqçusu deyil, həm də onlarla insanlardan ibarət kiçik qarnizon yerləşə bilirdi" [11, səh. 59].

Abşeron qalaları özündə ayrıca dayanan qüllə-donjon (əsas qüllə) əks etdirir, onlar içərisində ən erkən növ hesab olunan dairəvi (Mərdəkan kəndindəki qəsr, 1204-cü il; Nardaran kəndindəki qəsr, 1301-ci il) və (Mərdəkan kəndindəki qəsr, XIV əsr; Ramana kəndindəki qəsr, XIV əsr) kvadrat planlı qəsrləri ayırd etmək olar.

Qəsr-yaşayış yerləri qəsr-qüllələrdən fərqli olaraq döyüş yarımqüllələri ilə möhkəmləndirilmiş və müdafiə divarı ilə məhdudlaşdırılmış böyük ərazini tuturdu. Qəsr-yaşayış yerləri yaşayış üçün nəzərdə tutulurdu, onların müdafiə səciyyəsi yerləşdikləri rayonun müdafiə tikililərinin olmaması ilə şərtlənirdi. Belə ki, Şuşa Qara Böyük xanım və İbrahim xan qəsrlərinin yaranması zamanı müdafiə sədlərinə malik deyildi. Hazırkı tipoloji qrupu səciyyələndirən ən erkən istehkam Bakı buxtasındakı, Şirvanşahların keçmiş iqamətgahı olan, şəhərətrafı qəsr kimi istifadə olunmuş istehkamdır [113, səh. 102]. Sonralar tikilmiş nümunələrə qeyd edilən iki qəsr-Şuşadakı Qara Böyük xanım və İbrahim xan qəsrləri, Şahbulaqdakı Pənah xan qəsri (hamısı XVIII əsrə aiddir) misal ola bilər. Bu qəsrlər üçün yuxarı yarusunu hökmdar tutan qapıüstü qüllənin mövcud olması səciyyəvidir [114, səh. 13]. Qəsrlərin yaşayış və xidməti otaqlarının bir hissəsi müdafiə sədlərinin perimetri boyunca yerləşirdi. Şuşa və Şahbulaq qəsrləri giriş üzərində "balaxana" yerləşən, Abşeronun yolqırağı karvansaraları ilə oxşarlığa malikdir [114, səh. 15]. Qəsr-yaşayış yerlərinin XII əsrdə karvansaralarla oxşarlığı Orta Asiyada da müşahidə edilir [78, səh. 88]. Belə nəticəyə gəlmək olar ki, yaşayış yeri və müdafiə funksiyası daşıyan karvansaralar genetik cəhətdən qəsr-yaşayış yerlərini üstələyirdi.

Ayrıca dayanan müdafiə qüllələri. Müdafiə tikililərinin bu növü əksər hallarda passiv müdafiə üçün nəzərdə tutulurdu.

Əksər hallarda bir ailənin və onun yaxınlarının müdafiəsi üçün nəzərdə tutulan müdafiə qüllələri XVII-XVIII əsrlərdə geniş inkişaf qazanmışdır. Müdafiə qüllələrinin səciyyəvi nümunələri kimi aşağıdakıları göstərmək olar: Qazax rayonunun Əskipara kəndindəki qüllə, Zaqatala rayonundakı Çingiz qalası, Qax rayonunun İlisu kəndindəki qüllə.

Hazırkı üslubdan olan bir sıra qüllələr sırf müşahidə səciyyəsi daşıyırdı və tez-tez basqınlara məruz qalan ərazilərin sərhədlərində yerləşirdi. Bunlara misal olaraq Ağstafa rayonundakı mağara monastrı kompleksində yerləşən, XIV əsrə aid olan gözətçi qülləsini göstərmək olar.

Hazırkı üsluba həm də Abşeronun XVI əsrdə meydana gələn və XVIII əsrin əvvəllərində öz əhəmiyyətini itirən (çox təəssüf günümüzə qədər gəlib çatmayan) gözətçi qüllələrini aid etmək olardı [115, səh. 50].

Orta əsrlərdə Azərbaycandakı müdafiə tikililərinin tipoloji müxtəlifliyini aşağıdakı sistem-təsnifat vasitəsilə təsvir etmək olar (cədvəl 3-ə bax).

Müdafiə tikililəri olduqca tətbiqi olmaqla, onların memarlıq həllində iz qoyan, yalnız müdafiə funksiyası üçün nəzərdə tutulurdu. Ayrıca dayanan qalaların relyef konfiqurasiyası əldə etməsinə baxmayaraq, onların dəyişməz tipoloji xüsusiyyətləri aşağıdakılardır: bürcün, yaşayış və digər zəruri təsərrüfat sahələrinin olması. Qəsr-yaşayış yerləri öz həllində xalq yaşayış məskəninin və mülki memarlığın xüsusiyyətlərindən ibarətdir. Müdafiə tikililərinin tikintisində həmçinin təşəkkül tapan xüsusiyyətlərdən və tikinti ənənələrindən istifadə olunurdu.

# III FƏSİL

# DİNİ VƏ MEMORİAL MEMARLIQ

## § 1. Dini memarlıq

Orta əsrlər arxitekturasında ən mühüm yeri dini memarlıq abidələri tutur, əsrlər boyu bu sahədə intensiv tikintilər aparılmışdır. Yeni din — İslamın meydana gəlməsi ilə VIII əsrdən başlayaraq Azərbaycan ərazisində yeni dini tikililərin də inşasına başlanılmışdır. İslamın əsas göstərişlərindən biri hər gün ibadət etmək və namaz qılmaqdır, bu da duaların edilməsi üçün məkanın yaradılmasının ilkin səbəbi kimi çıxış etmişdir.

İlk ibadət binasının təməli Məhəmməd Peyğəmbərin Məkkədən Mədinəyə gedərkən yolüstü Quba kəndində dörd günlük dayanması zamanı qoyulmuşdur. Həmin bina öz memarlıq həllində hər tərəfdən sütunlarla dövrələnmiş, yeganə girişi qərb tərəfdən olan, açıq kvadrat həyəti əks etdirirdi [95, səh. 539]. Yeni dinin ibadət səciyyəli növbəti tikilisi Məhəmməd Peyğəmbərin, onun Mədinəyə gəlməsi zamanı inşa edilmiş və ədəbiyyatda rekonstruksiyası və təsviri verilən yaşayış evi olmuşdur [116, səh.1-2]. Məhəmməd Peyğəmbərin yaşayış evi bu rekonstruksiyaya əsasən, öz arxitektura-planlaşdırma həllində şərq tərəfində kiçik yaşayış hicrə otaqları, cənub tərəfində isə taxta sütunlara söykənən, sitayiş yeri kimi istifadə olunan talvar yerləşən birhəyətli strukturu əks etdirirdi. Həyətin künclərindən birində də qonaqların və yoxsulların gecələməsi üçün istifadə olunan kiçik talvar yerləşirdi. Bu birinci iki tikilidə sitayiş zamanı istiqamət şimala, daha doğrusu Yerusəlimə tərəf idi, sonralar isə Məkkəyə tərəf dəyişdirilmişdir [95].

Gördüyümüz kimi, ilk iki ibadət tikilisinin səciyyəvi əlaməti arxitektura-planlaşdırma həllində sütunlarla dövrələnmiş açıq həyətin olması idi. Bu prinsip ərəb üslublu məscidlərin həcmi-fəza həllinin əsasını təşkil etmişdir.

İlk dini binalar – məscidlər, İslam dininin yayıldığı ilk illərdə dini təyinatla bağlı bütün funksiyaları bir araya gətirməklə, həm də şəhərlərin özünəməxsus ictimai mərkəzləri rolunu oynayırdılar. Məscid qonaqların sitayiş etmələri, toplanmaları, sığınacaq kimi istifadə etmələri, təhsil almaqları üçün (burada ərəb dili, fəlsəfə, təbabət və s. öyrədilirdi) yer idi. Məscidlərin yanında kitabxana, mədrəsə, uşaqlar üçün məktəblər mövcud idi, məscidlər həmçinin vəqf xəzinəsinin saxlandığı yer idi [117, səh. 908]. Məscidin göstərilən çoxfunksiyalılığı Əməvilər dövrünün sonuna qədər davam etmişdir [95, səh. 111]. Lakin İs-

lam dininin yaranması və özünü təsdiq etməsi ilə məscidə xas olan müxtəlif funksiyaların mürəkkəbləşməsi və inkişafı baş verir, belə ki, həmin funksiyalar artıq bir memarlıq binasında həllərini tapmır və müvafiq tikililərin olması tələb edirlər. Beləliklə, dini binaların tipologiyası mürəkkəbləşir və şaxələnir.

İslamın Azərbaycanda yayılması yeni ehtiyacların yaranmasına gətirib çıxarmışdır, bunlar isə öz növbəsində, memarlıq abidələrinin yeni üslubuna olan zərurəti müəyyən etmişdir. Təbii ki, ilk zamanlar İslam dini ondan əvvəl yaranmış dinlərin (xristianlıq, zərdüştilik) yeni tələblər əsasında görünüşünü dəyişən və yeni təyinatlar üçün istifadə edilən binaları ilə kifayətlənirdi.

Belə ki, Dərbənddəki Cümə məscidinin üç nefli hissəsinin bir vaxtlar xristian bazilikası olması ilə bağlı fikir mövcuddur [102, səh. 61], onun qədim hissələrinin tikinti xüsusiyyətləri və planı Qafqaz Albaniyasının dini tikililəri üçün səciyyəvidir [11, səh. 168]. Od mehrabının ilk çağlarında həm də məscidə çevrilmişdi, onların birində mehrab yerləşmiş və açıq tərəfləri tikilib abadlaşdırılmışdı.

Əvvəlki dinlərin dini tikililərindən istifadəsi ilə yanaşı, həmçinin müsəlman ənənələri və ərəb-müsəlman dini adlarının əks olunduğu qədim pirlərin islamlaşması baş verirdi [118, səh. 66]. Bu səbəbdən islamaqədərki müqəddəs yerdə Bibiheybət ibadət kompleksi meydana gəlmişdir, Bakıdakı Cümə məscidi isə qədim atəşpərəstlər məbədinin yerində inşa olunurdu [112, səh. 28].

Qeyd etmək lazımdır ki, ilk müsəlman dini tikililərinin tikintisinin əsasına yaranmış tikinti ənənələri və əvvəllər istifadə olunmuş həcmi-fəza strukturlar qoyulmuşdur. Əvvəlki dini tikililərin arxitektura-kompozisiya və planlaşdırma həllində İslamın tələblərinin təsiri özünü göstərirdi [119, səh. 86].

Erkən dövrə aid dini tikililərindən biri Bərdədəki məsciddir. X əsr ərəb coğrafiyaşünası Əl-İstəhri onun adını çəkərək qeyd edir ki, bu məscid doqquz sütun üzərində dayanan qurğuşunla örtülmüş yastı dam örtüyə malik idi [76, səh. 89].

Beləliklə, İslam dini tikililərinin inkişafı Orta Asiya və Yaxın Şərqin digər ölkələrində olduğu kimi, Azərbaycanda da iki mərhələdə aparıldığı açıq-aydın görünür. Birinci mərhələ-əvvəlki dinlərin dini tikililərindən istifadəni, ikinci mərhələ isə yerli arxitektura-inşaat ənənələri əsasında yeni tikililərinin inşasını əhatə edir.

Yaxın və Orta Şərqdə Səlcuqlar dövründə baş vermiş sosial-iqtisadi dəyişikliklər hər halda bu dinin tikintisinə və memarlığına təsir göstərmişdir [120]. Xüsusən yeni amillər və şərait ibadət binaları-məscidlərin tikintisinə güclü təsir etmişdir, bu, nəinki onların həcmi-fəza strukturunun həllində, eləcə də dekorativ-bədii tərtibatında da öz əksini tapmışdır.

1295-ci ildə Elxani Mahmud Qazan xan tərəfindən İslam dininin qəbul edilməsi məscidlərin tikintisinin yayılmasına səbəb olmuşdur, belə ki, o "məscid və sitayiş (Alla-

ha) üçün yer tikmək" zərurətinin olduğunu göstərmişdir [121, səh. 64]. Bu hadisədən sonra ibadət tikililərinin ictimai əhəmiyyəti və rolu xeyli artır, Rəşidəddinin qeyd etdiyi kimi: "Dini etiqadı möhkəmləndirmək və məscidlər, sitayiş yerləri, mehrablar, qəbiristanlıqlar, müqəddəs məzarlar, mədrəsələr və xanəgahlar kimi xeyriyyə müəssisələrinin tərəqqisi naminə təvəccüh etmək lazımdır" [75, səh. 77].

Azərbaycanın tədqiq edilən dövrə aid olan ibadət tikililəri üç sinfə bölünür: dua göndərmək üçün tikililər, ibadətə çağırış üçün tikililər və ibadət kompleksləri.

**Məscidlər**

İslamın meydana gəlməsinin ilk illərində həmçinin islamaqədərki məbədlər və hətta məqbərələr məscid adlanırdı [116, səh. 1]. "Məscid" anlayışı xeyli sonralar müstəsna olaraq müsəlman ibadətinin göndərilməsi üçün nəzərdə tutulan binaların ifadə edilməsi üçün ictimai şüurda möhkəmləndi.

Azərbaycandakı məscidlər funksional təyinatına görə aşağıdakılara bölünür: kilsə məscidləri (Cümə məscidi), XVI əsrdən başlayaraq, Səfəvilərin hakimiyyətə gəlməsi ilə geniş yayılan anım və məhəllə məscidləri.

Məscidlər orta əsrlərdə şəhər strukturunda geniş yayılmış şəbəkəyə malik idi. Məscidlər məhəllə və ümumşəhər məscidləri ilə yanaşı, insanların müvəqqəti kütləvi yaşayış yerlərində də tikilirdi. Bu qayda ilə, məscidlər ticarət komplekslərində tikilirdi. Bütün məscidlər bir məqsəd üçün, Allah Talaya sitayiş etmək və dua göndərmək üçün tikilirdi. Müxtəlif həcmi-fəza strukturlar həddində vahid bir funksiya həyata keçirilirdi, bu funksiya digər hallarda olduğu kimi, nəzərdə tutulan tipoloji təsnifatın əsasında dayanırdı.

**Mərkəzi-günbəzşəkilli məscid üslubu**. Məscidlərin bu tipi mərkəzi günbəzşəkilli ibadət zalı ilə səciyyələnir. Mərkəzi-günbəzşəkilli məscidlər kompozisiya və planlaşdırma həllinin əsasını mərkəzi-günbəzşəkilli zal təşkil edən çoxsaylı növlərə bölünən, ən geniş təqdim olunan qrupdur.

Mərkəzi-günbəzşəkilli məscidlərin maraqlı qrupunu "məscid-köşklər" adlanan məscidlər təşkil edir.

"Məscid-köşklər" – bir vaxtlar onlara yanaşı olan otaqlarla hər tərəfdən birləşdirilən mərkəzi-günbəzşəkilli məscidlərin əsas kompozisiya və planlaşdırma özəyidir. Yan otaqlar qorunub saxlanmadığından bizə qədər gəlib çatan mərkəzi hissə, kvadrat planlı günbəzşəkilli zal ayrıca dayanan tikililər kimi şərh edilir. Onlardan çoxu sonralar abadlaşdırılaraq yenidən əsas ibadət zalları kimi istifadə edilirdi. Materialın olmaması və rekonstruksiyanın mürəkkəbliyi səbəbindən bir vaxtlar mərkəzi-günbəzşəkilli zalı olan məscid tikintisinin üsuluna malik olan tikililər öz memarlıq-kompozisiya vəhdəti əsasında "məscid-köşk"lərə aid

edilir. Hərçənd ki, onlar vaxtilə ilkin görünüşdə mərkəzi-günbəzşəkilli məscidlərin müxtəlif növlərini təşkil edirdi. "Məscid-köşk"lər elmi ədəbiyyatda İran üslublu məscidlərə aid edilir. "Məscid-köşk"lər üç xüsusiyyətlə səciyyələnir: mehrab qarşısında günbəzşəkilli pavilyonun olması, minarənin olması (çox vaxt təcrid olunmuş şəkildə yerləşən), hər bir tərəfi mərkəzi oxlar üzərində eyvana malik dördbucaqlı həyətin olması [122, səh. 276].

Günbəzşəkilli pavilyonun mənşəyi barədə elmi ədəbiyyatda iki fərziyyə mövcuddur. Birinci fərziyyədə göstərilir ki, "məscid-köşk"lərin memarlıq forması atəş məbədinin təqlidi nəticəsində yaranmışdır. İkinci fərziyyəyə görə, Səlcuqların sultan mərasimi Səlcuq məscidlərinin, hazırkı halda mərkəzi-günbəzşəkilli pavilyonun səciyyəvi memarlıq detalının meydana gəlməsinə təsir etmişdir [122, səh. 270]. Günbəzşəkilli pavilyonun mənşəyinin göstərilən hər iki versiyasına ədəbiyyatda baxılır. Birinci, yəni A.Qodara məxsus olan versiya tənqidi təhlilə məruz qalmışdır və onun ayrıca dayanan, atəş məbədinə oxşar təcrid edilmiş "məscid-köşk" kimi mövcud olması mümkünlüyü çox vaxt təkzib edilir [122]. Hazırkı fərziyyənin qanunauyğunsuzluğunu "Azərbaycan nümunələri" də təsdiq edir. Belə ki, "məscid-köşk"lərin əksəriyyəti Naxçıvandakı Cümə məscidinin timsalında izlənilən, bir sıra hallarda eyni vaxtda ucaldılan yanaşı tikililərin izlərinə malikdir. Bu fakt "məscid-köşk"lərin təcrid olunan deyil, məscid binasının ayrılmaz mərkəzi hissəsinin komponenti kimi mövcud olduğunu sübut edir.

Səlcuq sultanlarının təmtəraqlı mərasiminin yeni formasının yaranmasına səbəb olduğunu təsdiq edən ikinci fərziyyəyə də ədəbiyyatda baxılır. Xüsusən, yenilik ideyası təkzib edilir və göstərilir ki, "məksur günbəzşəkilli pavilyon" (məksur portal-günbəzşəkilli deməkdir) anlayışı çoxdankı, ənənəvi memarlıq konsepsiyasının təkrarıdır [122, səh. 277].

Mehrab qarşısında günbəz "mövzu"su ərəb məscidlərində hələ Səlcuqlar dövründən əvvəl mövcud olmuşdur. Ərəb məscidlərindən fərqli olaraq, "məscid-köşk"lərdə mərkəzi günbəzşəkilli zal binanın əsas hissəsi, bütün həcm-planlaşdırma həllinin əsasıdır. Hazırkı halda "günbəzşəkilli pavilyon"un meydana gəlməsini "ənənəvi memarlıq konsepsiyasının təkrarı" kimi şərh etmək düzgün olmaz. Belə ki, "mehrab qarşısında günbəz" deyil, tərəflərindən birində mehrab olan günbəzşəkilli zal meydana gəlmişdir.

Məscidlərin hazırkı məkan-planlaşdırma strukturunun meydana gəlməsi hər şeydən əvvəl, aşağıdakı şəkildə izah edilən funksional tələbatla şərtlənmişdir. Bu üslubdan olan məscidlərin əksəriyyəti vaxtilə çox sayda ibadət edənlərin yerləşməsi üçün böyük sahə tələb edən, bu və ya digər yaşayış məntəqəsinin mərkəzi məscidləri idi. Yeni funksiyanın həlli üçün başqa memarlıq forması tələb olunurdu. Vahid, sahə baxımından böyük, bütöv, mehrab qarşısında zalın olmasını tələb edən mərkəzi, eləcə də Cümə məscidlərində göstərilən problem "kvadrat üzərində günbəz" ideyasından istifadə etməklə həll olunurdu. Şama-

xıdakı, Dərbənddəki Cümə məscidləri və s. bunu təsdiq edir. S.O. Xanməhəmmədovun qeyd etdiyi kimi, Dərbənddə əvvəllər mövcud olmuş üç uzununa hissəli binanın mərkəzi köndələn oxu üzərində "günbəzşəkilli pavilyon" tikilmişdir.

"Kvadrat üzərində günbəz" böyük mərkəzi ibadət zalının yanaşı otaqların tikilməsi mümkünlüyü ilə yarada bildiyi optimal həcmi-fəza kompozisiyası idi. Kvadrat üzərində günbəzdən istifadə yenilik deyildi, amma hazırkı halda "kvadrat üzərində günbəz" yeni şərh qazanır, kvadratın tərəfləri yeni şərhə görə həll edilir. Məscidin ümumi hündürlüyü mürəkkəb konstruksiyaların günbəzaltı qurşaq yolu ilə artırılır. Günbəz təkcə funksional deyil, estetik məsələləri də həll edir. O, sadalananlarla yanaşı, ümumi şəhər tikintisində hakim mövqe tutaraq ideoloji məsələlərin həllinə yardım edir.

Yuxarıda deyilənləri yekunlaşdıraraq, belə nəticə çıxarmaq olar ki, "məscid-köşk"lər mərkəzi-günbəzşəkilli məscidlərin həcm-planlaşdırma həllində mərkəzi kompozisiya özəyi idi. Mərkəzi günbəzşəkilli zalın tərəfləri üzərində boşluqların sayından asılı olaraq, planlaşdırma baxımından sonuncular bir neçə növə bölünür. Planlaşdırma baxımından mərkəzi-günbəzşəkilli məscidlərin özəyinin aşağıdakı növləri ayırd edilir: - şimal tərəfdən birboşluqlu və qərb, şərq tərəflərdən ikiboşluqlu: Sucasdakı Cümə məscidi (1176-cı il) [123, səh. 78]; - hər birində şimal, qərb və şərq tərəflərdən ikiboşluqlu: Naxçıvandakı Cümə məscidi (XII əsr); - hər birində şimal, qərb və şərq tərəflərdən üçboşluqlu: Şamaxı, Dərbənd (XIV əsr) və Bakıdakı (XIV əsr) Cümə məscidləri. Mərkəzi zalın planlaşdırılması binanın ümumi planlaşdırma sxemində də iz qoymuşdur.

Qeyd edildiyi kimi, mərkəzi-günbəzşəkilli məscid üslubunun əsas səciyyəvi xüsusiyyəti binanın mərkəzi kompozisiya oxu üzərində əsas günbəzşəkilli zalın yerləşməsidir. Məscidlərin bu üslubu daxilində aşağıdakı növləri ayırd etmək olar.

**Dövrəli qalereyaya malik mərkəzi-günbəzşəkilli məscidlər**. Hazırkı növ Təbrizdəki Göy məscidlə (XV əsr) təmsil olunur, həyəti olan məscid üslubu ilə müqayisədə bu üslublu məscidlərin üstü günbəzlə örtülmüş və həyəti yoxdur [124, səh. 1132]. Göy məscidin memarlıq-planlaşdırma strukturunun mənşəyi mərkəzi özəyi günbəzşəkilli zal olan mərkəzi-günbəzşəkilli məscidlərdən irəli gəlir. Bu məscidlərdən fərqli olaraq, Göy məscidin cənub divarında mehrab yoxdur, mərkəzi zalı isə ölçüsü kiçik olan kvadrat sahə ilə başa çatır. Görünür, Naxçıvan Muxtar Respublikasının Kirna kəndindəki məscid də mehrab oyuğu olmayan həmin planlaşdırma strukturuna malik idi.

A.V. Salamzadənin də dövrəli qalereyanın mövcud olmasını qeyd etdiyi Naxçıvandakı Cümə məscidi (XII əsr) rekonstruksiya sxemi əsasında [125, səh. 30] mərkəzi-günbəzşəkilli məscid üslubunun baxılan növünə aiddir.

Yan "cinah"ları olan mərkəzi-günbəzşəkilli məscid mərkəzi-günbəzşəkilli zalın qarşı-

qarşıya yerləşən iki yan (günbəzşəkilli və ya qübbəşəkilli) sahəsinin olması ilə səciyyələnir. Həmin sahələr mərkəzi günbəzin aşırma qüvvəsini azaldaraq funksional məsələ ilə yanaşı, konstruktiv məsələni də həll edir (XVII əsrə aid Qala kəndindəki məscid, Şamaxıdakı VIII-XX əsrlərə aid Cümə məscidi) [126, səh. 106-120].

**Düzbucaqlı mərkəzi günbəzşəkilli məscidlər**. Mərkəzi-günbəzşəkilli məscid üslubunun bu növü iki nümunə ilə təmsil olunur: Ərdəbil ibadət kompleksindəki düzbucaqlı plana malik məscid (XIII əsr) və Sultaniyyə şəhərinin miniatüründə təsvir edilmiş məscid (Matrakçinin miniatürünə görə).

**Çarpaz-günbəzşəkilli tektonik struktura malik məscidlər**. Bu struktura üstü günbəzlə örtülmüş kvadrat misal ola bilər. Hazırkı halda günbəzin aşırma qüvvəsinin azalması divarların qalınlığı hesabına baş vermişdir, günbəzin diametrinin artması ilə divarların qalınlığı da artmışdır. Günbəzin aşırma qüvvəsinin azalması üçün konstruktiv addım atılmışdır: kvadratın dörd tərəfindən formalaşan struktura konstruktiv sərtlik verən sahələr-kontrforslar yerləşirdi. Balaxanı kəndindəki Şakir ağa məqbərəsi (XV əsr) bunun səciyyəvi nümunəsidir.

İnkişafın növbəti mərhələsində - planda formalaşan xaçın künclərindən köməkçi sahələr kimi istifadə olunur, bununla da vahid daxili məkan yaranır. Bu mərhələ Tovuz rayonunun Yanıqlı kəndindəki məscid (XVII əsr), Bakıdakı Gilək məscid (XIV əsr) və bir çox digər abidələrdə öz əksini tapmışdır.

Künc sahələri mərkəzi sahələrdən ayıran divarın nəzərdən keçirilən tektonik strukturu növbəti, sonuncu inkişaf mərhələsində ləğv edilir, dörd sütun üzərindəki günbəzlə örtülmüş vahid ibadət zalı formalaşır. Hazırkı mərhələdə günbəzin aşırma qüvvəsinin günbəzaltı konstruksiyalar vasitəsilə sütunlarla, eləcə də qübbələr vasitəsilə divarlarla azaldığı sərt konstruktiv sistem əldə olunur. Bu mərhələ Nardarandakı Hacı Bəxşi məscidində (XVII əsr) və bir çox digər məscidlərdə öz ifadəsini tapmışdır.

Mərkəzi-günbəzşəkilli məscidlərin baxılan növü daxilində aşağıdakı müxtəlif növləri ayırd etmək olar: çarpaz-günbəzşəkilli (Yanıqlı kəndindəki məscid, Mərdəkandakı Tuba-Şaxi məscidi); dördsütunlu məscidlər (Nardaran və Qala kəndlərindəki məscidlər).

Kvadrat planlı birkameralı mərkəzi-günbəzşəkilli məscidlər. Məscidlərin bu növündə müxtəliflik ibadət zalının qarşısında eyvanın olması ilə müəyyən edilir (Nehrəm kəndindəki XVIII-XIX əsrlərə aid məscid; Öksüzlər kəndindəki XVIII əsrə aid məscid). Eyvandan istifadə ənənəsini ibadət memarlığında xalq yaşayış məskəni memarlığının təsiri ilə izah etmək olar.

**Düzbucaqlı planlı qübbəşəkilli örtüyə malik məscid üslubu**. Həcmi-fəza strukturun hazırkı üslubundan kiçik, məsələn məhəllə məscidləri üçün istifadə edilirdi. Bu üslubdan olan məscidlərin böyük əksəriyyəti İçərişəhərdə və Abşeronda qorunub saxlanmışdır.

Bu üslubdan olan bütün məscidlərdə mehrab köndələn ox üzərində yerləşir, Məhəmməd məscidi istisna təşkil edir (mehrab köndələn ox üzərində yerləşir və onun həcmi yarımsilindrik formasında divarın xarici xəttinin arxasına çıxır). Sahənin uzadılması hallarında bu məscidlərdə qübbə bərkidici tağ ilə bərkidilir (Ləzgi məscidi; Bakıda 1301-ci ildə tikilmiş Xıdır məscidi və s.).

Nəzərdən keçirilən məscid üslubunda aşağıdakı növləri ayırd etmək olar:

Birkameralı: Mirzə Əhməd məscidi (1345-ci il), Xıdır məscidi (1301-ci il) – hər ikisi Bakıdadır, Bibiheybət ibadət kompleksinin köhnə məscidi, Pirsaat çayı üzərindəki Xanəgahlar kompleksində məscid (XIII əsr), Füzuli rayonunun Qarğabazar kəndindəki məscid (XVII əsr), Zabrat kəndindəki məscid (XVIII əsr);

Öndən, ibadət zalına tamamən ibadət üçün işləmək imkanı verən (Maştağa kəndindəki XVII əsrə aid Xoca Aslan məscidi; Nardaran kəndindəki XVII əsrə aid kiçik məscid).

**"T"-şəkilli memarlıq-planlaşdırma strukturuna malik məscid üslubu.** "T"-şəkilli məscidlərin yayılması Abşeronla məhdudlaşır, onların XVII əsrin sonunda meydana gəlməsi memarların onlar üçün əlçatan konstruktiv vasitələrlə kifayət qədər tutumlu sahələr əldə etmək cəhdi ilə izah olunur, bu isə uzun qübbəşəkilli qola malik, günbəzlə örtülmüş sahənin yaranmasına kömək edir [12, səh.m 13]. Bu məscidləri səciyyələndirən nümunələr Buzovna kəndindəki Aşağı məscid (XVII əsr), Qala kəndindəki iki (hər ikisi XVIII əsrə aid) məsciddir.

**Sütunlu üslub**. Bu üslubun səciyyəvi xüsusiyyəti sütunlu-qübbəşəkilli tektonik sistem yolla məscidin həcmi-fəza strukturunun yaranmasıdır. Bu tipoloji qrupda çatının konstruksiyasından asılı olaraq aşağıdakı növləri ayırd etmək olar:

**Sütunlu-günbəzşəkilli məscidlər**. Bu qrupu təmsil edən nümunə Əlincə çayı üzərindəki Xanəgahlar kompleksi yanındakı məsciddir. Sütunlu-günbəzşəkilli kompozisiyaların əsasını günbəz və sütunlar təşkil edir. Bu konstruktiv strukturun meydana gəlməsi onunla şərtlənir ki, günbəzlərin ölçüləri kiçik olduqda böyük sahələri sütunların köməyi ilə örtmək mümkün olur. Bu qrupun növ müxtəlifliyi dirəklərin sayı ilə müəyyən ediləcək, günbəzlərin sayı da onlarla düz-mütənasib asılılığa malikdir.

**Sütunlu-qübbəşəkilli məscidlər**. Bu məscidlərin konstruktiv-məkani əsasını ibadət zalının ərazisini örtən, sütunlara söykənən qübbələr təşkil edir. Məscidlərin bu qrupunu Ordubaddakı Cümə məscidinin (1604-cü ilə aid) qədim üç uzununa hissəli özəyi təmsil edir.

**Sütunlu məscidlər**. Sütunlu konstruktiv sistemə malik olan məscidlər nəzərdən keçirilən sütunlu məscid üslubu daxilindəki növlərdən birini təşkil etməlidir. Hərçənd ki, ilk baxışda onlar arasında böyük fərq mövcuddur, həmin fərq aşağıdakı kimi ifadə edilir: bir halda sütunlar taxtadan, digərində isə daş və ya kərpicdəndir; birinci halda çatı yastıdır;

ikincidə isə qübbəşəkillidir. Amma onlar məkanın təşkili prinsipinə, çatının dayaq-sütunlar və ya dirəklər vasitəsilə yaranması səciyyəsinə görə birləşdirilə bilər. Məscidlərin sütunlu növünün meydana gəlməsi XVII əsrin sonu-XVIII əsrin əvvəllərinə aid edilir. Bu məscidlərin ibadət zalının kiçik düzbucaqlı sahəsi taxta sütunlar vasitəsilə örtülürdü və mürəkkəb konstruktiv həllər tələb edilmirdi. Məscidlərin bu növünün səciyyəvi nümunələri Ordubaddakı Dilbər məscidi (XVIII əsr), Nuxadakı Gileyli məscididir (XVIII əsr). Bu cür konstruktiv həllə malik məscidlər XIX əsrdə geniş yayılmışdı.

**Eyvan üslublu məscidlər.** Məscidlərin bu üslubu İslam dininin İran ərazisində yayıldığı ilk gündən, dairəvi arkadaya malik həyəti olan məscidlərlə yanaşı meydana gəlmişdir [127, səh. 929]. Lakin arkadaya malik həyəti olan məscidlər vaxt keçdikcə öz əhəmiyyətini itirmiş, yaranması İran ənənələri ilə əlaqələndirilən eyvan üslublu məscidlər isə mövcud olmaqda davam etmişdir [128, səh. 1067]. Bu üslublu məscidlərin mənbəyi Sasanilərin eyvanlı sarayları hesab olunur. Bu nöqteyi-nəzərdən Tağı Kisranın Ktesifon sarayının böyük eyvanından məscid kimi istifadə olunması barədə məlumatlar maraq kəsb edir [116, səh. 22]. İranda eyvan üslublu məscidlərin meydana gəlməsini səciyyələndirən ilk parlaq nümunələr Bamian, Forumad, Zəvzəndəki məscidlərdir. Bu məscidlərdə eyvan qarşısında Sasanilərin saray üslubunda açıq həyət yerləşirdi. Sonralar eyvan üslublu məscidlərin strukturu özünün mürəkkəbləşmiş və formalaşmış həllini tapır.

Azərbaycanda yeganə məlum olan eyvan üslublu məscidin – Təbrizdəki Əli şah məscidinin tikintisi XIV əsrə, yəni artıq bu məscidlərin müəyyən formalaşmış üslubunun mövcud olduğu dövrə aiddir. Buna baxmayaraq, Əli şah məscidi özündən əvvəlki məscidlərdən fərqli olan memarlıq-planlaşdırma həllini qazanır.

Məscidlər haqqında bölməyə yekun vuraraq, qeyd edək ki, məcburi ibadət üçün nəzərdə tutulan ibadət binalarının baxılan bölməsindən əlavə, din xadimlərinin qəbirləri üzərində tikilən və mərhum şəxsin xatırlanmasına xidmət edən anım məscidləri də mövcud olmuşdur. Azərbaycanda anım məscidləri Səfəvilər sülaləsinin hakimiyyətə gəlməsi ilə geniş şəkildə inşa olunmağa başlanmışdır. Orta Asiya memarlığında olduğu kimi, Azərbaycanda da anım məscidlərinin tikintisi vaxt baxımından dəfndən geri qalırdı. Anım məscidləri din xadimlərinin, yaxud müqəddəs şəxslərin məqbərələri yaxınlığında tikilməklə, bir çox hallarda ibadət komplekslərinin yaradılmasının əsasını təşkil etmişdir. Qəbirlərə sitayiş qaydası özünəməxsus fərqli xüsusiyyətlərə malikdir ki, nəticədə bu, anım məscidlərində mehrabın olmamasını izah edir [129, səh. 45]. Anım məscidləri əksər hallarda öz həcmi-fəza həllində günbəzlə və ya çatma tağla örtülmüş birkameralı binaları əks etdirir. Onlar öz memarlıq-planlaşdırma və konstruktiv həllində ibadət memarlığında cəmləşən xüsusiyyətləri əks etdirir.

Ərəblər Azərbaycanın işğal edilməsi və İslam dininin yayılması ilə memarlığa məscid mövzusunu gətirmişlər, amma divarlar boyunca açıq arkadalı həyətdən ibarət olan ənənəvi ərəb məscidinin forması Azərbaycan ərazisində öz tətbiqini tapmamışdır. Azərbaycanda yerli tikinti və memarlıq-kompozisiya xüsusiyyətləri əsasında İslamaqədərki dövrün ibadət tikililərindən fərqlənən yeni ibadət tikililəri - məscidlər meydana gəlmişdir. Meydana gələn yeni ibadət tikililəri təkamül prosesində təkmilləşmiş və öz görünüşünü dəyişmişdir.

**Minarələr**

İbadətə çağırış funksiyası yeni tikilinin yaranmasına səbəb olmuşdur. İslam dininin yaranmasının ilk illərində, Məhəmməd Peyğəmbərin yaşadığı dövrdə ibadətə çağırış məscidin damından, yaxud hündür platformadan yerinə yetirilirdi, bu üsuldan Abşeronun kiçik məscidlərində son vaxtlara qədər istifadə edilmişdir. Minarələrin bütün müsəlman aləminə geniş yayılmasına baxmayaraq, hər bölgəyə öz memarlıq üslubu məxsusdur. Hər bölgənin minarəsi onu digərlərindən fərqləndirən öz memarlıq mənşəyinə malikdir. Minarələrin mənşəyi məsələsi Azərbaycan, Orta Asiya, Yaxın və Orta Şərqin memarlıq tədqiqatçıları tərəfindən kifayət qədər nəzərdən keçirilmişdir.

Azərbaycanın qorunub saxlanmış minarələri sırasında Məhəmməd Peyğəmbərin məscidinin minarəsi (1078-ci il), Pirsaat çayı üzərindəki xanəgahın minarəsi (1255-ci il), Bakıdakı Cümə məscidinin minarəsi (XV əsr), Bakıda Şirvanşahlar sarayının ərazisindəki məscidin minarəsinin (1441-1442-ci illər) daxil olduğu Şirvan qrupu geniş əks etdirilmişdir. Şirvan minarələrinin inkişafının tədqiq edilməsi üçün 1936-cı ilin sentyabr ayında dağıdılmış Bibiheybət məscidinin (XIII əsr) minarəsinin qrafik materiallarını da əlavə edirik. Şirvan minarələrinin bünövrəsinin təkamülü maraq kəsb edir. Məhəmməd Peyğəmbərin məscidinin minarəsi ayrıca həcm şəklində bünövrəyə malik deyildir, silindrik gövdə bilavasitə yer səviyyəsindən inşa edilmişdir. Pirsaat çayı üzərindəki xanəgah yaxınlığındakı minarədə səkkizbucaqlı prizma üzərində yerləşən kubşəkilli bünövrəyə malikdir, bu prizma vasitəsilə silindrik gövdəyə keçid yerinə yetirilir. Bibiheybət və Saray məscidlərinin minarələrində isə səkkizbucaqlı prizma mövcud deyildir və keçid səkkizbucaqlı fiqur bünövrənin düzbucaqlı prizmasının bucaqlarının çəpliyi yolu ilə formalaşır.

Şirvan minarələrindən fərqli olaraq, Naxçıvan memarlıq məktəbini təmsil edən minarələr cütdür, portalın görünüşünü tərtib edirlər. Onların sırasına Qarabağlar kompleksinin minarələri (XII əsr) və Naxçıvan şəhərindəki dini kompleksin rəsm və fotoşəkillərinə görə tanınan minarələri (XII əsr) aid edilir. Qarabağlar minarələri portalın tərtibatını həyata keçirməklə yanaşı, həm də hazırda qorunub saxlanmamış tikilinin ayrılmaz hissəsi olmuşdurlar. Bu, onun bünövrəsinə daxil olan divarların dağılmış izləri əsasında aydın izlənilir.

Aran memarlıq məktəbi iki minarə ilə təmsil olunur: Şəmkir rayonunun qorunub saxlanmamış, şahidlərin şəkil və təsvirlərinə görə tanınan, onun memarlığı haqqında tam təsəvvür verən minarəsi (XII-XIII əsrlər); Füzuli rayonunun Baba kəndindəki Xanəgahlar kompleksinin minarəsi. Baba kəndindəki minarə məscid binasının bir hissəsi idi. Şahidlərin şəkil və təsvirləri Şəmkirdəki minarənin memarlıq görünüşünü bərpa etməyə imkan verir. O, azacıq incə silindrik gövdəyə malikdir, gövdənin kubşəkilli bünövrəsinin bucaqlarının çəpliyi yolu ilə səkkizüzlü prizmaya keçid yerinə yetirilir.

Faktiki materialın olmaması Təbriz memarlıq məktəbinin minarələri barədə mülahizə yürütməyə imkan vermir, lakin bir sıra miniatürlər onların memarlıq görünüşünü bərpa etməyə kömək edir.

XVI-XIX əsrlərdə minarələr gövdənin silindrik formasını saxlamaqla nəzərəçarpacaq dəyişikliyə məruz qalır, onlar əvvəlki minarələrdən hər şeydən əvvəl öz yuxarı hissəsi ilə fərqlənir, kiçik qülləsi olan stalaktit şərəfə yox olur və onun əvəzinə kiçik sütuncuqlar üzərindəki günbəzlə başa çatan, hamar və dartı qüvvəsi ilə hissələrə ayrılmış silindrik gövdə gəlir [130, səh. 201].

Minarələr yaranmasının ilk vaxtlarında funksional təyinata malik idi. Onların bir hissəsi ibadətə çağırış üçün nəzərdə tutulurdu (Şirvan qrupunun minarələri), bəziləri isə ilkin təyinatından əlavə, həm də yolçular üçün quruda mayak rolunu icra edirdi (Şəmkir və Muğan minarələri). Minarələr meydana gəlməsinin erkən dövründə isə ayrıca dayanan tutumlarla tikilirdi. Onlar daha sonra inkişaf prosesində məscid, mədrəsə və ya portal tikilisinə daxil olmağa başlayır və onun ayrılmaz hissəsinə çevrilir.

Minarələri funksional təyinatına görə aşağıdakı qruplara bölmək olar: ibadətə çağırış üçün; əraziyə səmtinə görə; məscid, yaxud kompleksin tutumunun estetik qavranılması üçün. Kompozisiya həllinə görə isə aşağıdakılara bölünür: ayrıca dayanan; qoşa; başqa tikilinin içərisində qurulmuş.

Minarələr həcmi-fəza həllinə görə eyni memarlıq üslubunu – daxili tutumu vintli pilləkən üçün istifadə olunan şaquli xətti kompozisiyanı təmsil edir. Buna görə də minarələrin tipoloji təsnifatını həmçinin bir memarlıq üslubu, struktur kompozisiya daxilində aparmaq düzgündür. Həmin kompozisiyanın tərkib hissələrini görünüş fərqləri müəyyən edəcək. Minarənin əsas tərkib hissələri prizmaşəkilli bünövrə, gövdə, sondur. Müxtəlif növlərə təsnifi ayırmanı daha sonra gövdənin forması (silindrik, konusşəkilli) daxilində, minarəni təşkil edən kompozisiya elementlərin tənasüb variantlarından həyata keçirmək olar.

**İbadət kompleksləri**

İbadət kompleksinə qarşılıqlı əlaqədə olan və vahid məqsədə xidmət edən tikililər silsiləsi kimi baxılır. İbadət kompleksləri şəhər strukturunun ayrılmaz hissəsi olaraq şəhərsalmada bütöv ansambl kimi tikilirdi, yaxud şəhər hüdudlarından kənarda ayrıca mövcud olurdu. İbadət kompleksləri öz funksional növmüxtəlifliyinə görə aşağıdakı qruplara bölünür: Cümə məscidinin kompleksləri; dəfn yerində yaradılan, müqəddəslərin ibadəti ilə bağlı olan Xanəgahlar və komplekslər.

Cümə məscidinin kompleksləri şəhərsalma və ictimai mərkəz olmaqla müsəlman ölkələrinin bütün böyük şəhərlərində mövcud olmuşdur. Bu komplekslərin tərkibində müxtəlif təyinatlı tikililər var idi: məscid, mədrəsə, məqbərə, minarə, ticarət tikililəri, hamamlar və s. Cümə məscidləri yanındakı komplekslər həm əvvəlcədən müəyyən edilmiş plan üzrə (Təbrizdəki Cümə məscidi kompleksi), həm də müxtəlif vaxtlarda müxtəlif tikililərin tikilməsi ilə, lakin onların kompozisiya baxımından qarşılıqlı əlaqəliliyi nəzərə alınmaqla (Naxçıvandakı Cümə məscidi ibadət kompleksi, Dərbənddəki Cümə məscidi kompleksi) formalaşırdı.

Xanəgahlar sufizm zamanı tikilməyə başlanmışdır, burada yenilik əhali tərəfindən qəbul edilmiş, müqəddəslərin ibadəti idi. Orta əsrlərdə Azərbaycanda tikilmiş xanəgahlar qorunub saxlanmışdır: Pirsaat çayı üzərindəki Xanəgahlar (XIII əsr), Naxçıvanda Əlincə çayı üzərində yerləşən Xanəgahlar kəndindəki Xanəgahlar, Şamaxı rayonunun Göylər kəndindəki Xanəgahlar (XIII əsr), Füzuli rayonunun Baba kəndindəki Xanəgahlar (XIII əsr). Xanəgahların tərkibinə müxtəlif təyinatlı tikililər daxil idi: məscidlər, məqbərələr, minarələr, mədrəsələr, karvansaralar, yaşayış məskənləri, eləcə də təsərrüfat üçün nəzərdə tutulan sahələr. Xanəgahların başçısı şeyx idi, o, "şagirdlərin öyrədilməsi və müridlərin ruhunun təmizlənməsi" ilə məşğul olurdu [75, səh. 104]. Xanəgahların cəmiyyətdə mövqeyindən asılı olaraq onun ştatına şeyx və müridlərdən əlavə, həmçinin hafizlər, azançılar, qapıçılar, aşbazlar, kitab mühafizləri, xidmətçilər və fəhlələr daxil idi [75, səh. 105-107].

Müqəddəslərin ibadəti ilə bağlı olan komplekslər dəfn yerində yaradılırdı və XVI əsrə qədər geniş yayılmamışdı. Onların tikintisi Səfəvilərin hakimiyyətə gəlməsi ilə bir çox şiə ziyarətgahları genişlənməyə və ibadət komplekslərinə çevrilməyə başladığı vaxtda artmışdı. Məsələn: Naxçıvandakı və Kirovabaddakı İmamzadə kompleksləri.

İbadət kompleksləri aşağıdakı qaydada təsnif edilir.

**Yığcam kompozisiyalı komplekslər**. Burada tərkib hissələrinin həyət ətrafında eyni vaxtda tikintisi ilə yaranan, qapalı yığcam həyət kompozisiyası kompleksini (Axarada XVI-XVII əsrlərə aid şeyx Şahabəddin ibadət kompleksi) ayırd etmək olar. Buraya həmçinin bir-birinə mexaniki şəkildə birləşməklə yığcam kompozisiya yaradan komplekslər aid edilir. Bir qayda olaraq, belə komplekslər iki-üç tikilidən ibarət olur.

**Xətti kompozisiyalı** komplekslər sonrakı tikililərin əvvəlkilərə bir xətt boyunca (bir istiqamətdə) birləşməsi yolu ilə yaranırdı. Bu komplekslər bir ox üzərində yerləşən üç və daha artıq tikilidən ibarət idi: Naxçıvandakı İmamzadə (XVII-XVIII əsrlər) kompleksi, Bibiheybət ibadət kompleksinin əsas qrupu (XIII-XX əsrlər), Gəncədəki İmamzadə kompleksi.

**Sərbəst kompozisiyalı** komplekslər ayrıca dayanan, vahid məqsədli tikililərdən ibarətdir (Naxçıvandakı XII əsrə aid ibadət kompleksi).

**Qapalı kompozisiyalı** komplekslər öz komponentlərinin mərhələ üzrə tikintisi vasitəsilə yaranmaqla həyətdaxili sistemi yaradırdı. Bu komplekslər birhəyətli (Dərbənddəki Cümə məscidi kompleksi) və çoxhəyətli (Ərdəbildəki XVI əsrə aid ibadət kompleksi) növlərə bölünür. Ərdəbildəki ibadət kompleksində ənənəvi girişdən – bir sıra həyətlərin ardıcıl yerləşməsindən istifadə olunmuşdur. Ərdəbildəki kompleks vahid ilkin plana malik deyildi, amma vahid memarlıq ansamblının yaradılması cəhdi hiss olunur [131, səh. 185].

Azərbaycanda yeni dinin – İslamın yayılması praktik olaraq kənardan yeni memarlıq formaları gətirmədi, yeni tələbat memarlıq və inşaatın yerli ənənələri əsasında yaradılan yeni formalarda təcəssüm olunurdu. Yerli mühitdə meydana gələn memarlıq üslubları inkişaf edərək geniş yayılırdı. İbadət kompleksləri – imamzadələrin yaranması başqa müsəlman ölkələrindən fərqli olaraq Azərbaycan üçün səciyyəvi idi.

Azərbaycanda orta əsrlərə aid ibadət memarlığının nəzərdən keçirilən tipoloji təsnifatını aşağıdakı sistem şəklində təsvir etmək olar (cədvəl 4-ə bax).

## § 2. Memorial memarlıq

Memorial memarlıq abidələri, məqbərələr Azərbaycanın orta əsrlər memarlıq irsinin qorunub saxlanmış binalarının ən geniş yayılmış qrupunu təmsil edir. Memorial memarlığın arxitektur irsinin müstəqil şöbəsi kimi ayırd edilməsi funksional məsələ ilə izah edilir. Sual yaranır: memorial abidələr – məqbərələr hansı məsələni həll etmişdir? L.Mankovskaya və V.Bulatova bu suala doğru cavab verirlər: "Memorial tikililər üçün məsələ dar anlamda – dəfn üzərində örtük yaradılmasına; geniş anlamda – mərhum haqqında xatirələrin monumental formalarda, cəmiyyətin inkişafının həmin mərhələsində onun estetik konsepsiyaları ruhunda əbədiləşdirilməsinə gətirb çıxarır" [132, səh. 73]. Azərbaycanın orta əsrlərə aid memorial abidələrində də həmin məsələ öz həllini tapmışdır. Məqbərələr-şəxslərin tərif edilməsi üçün nəzərdə tutulan və onların qəbirləri üzərində ucaldılan memorial tikililərdir. Memorial memarlığı kübar səciyyəyə malik idi və hər hansı dini ayinin göndərilməsi ilə bağlı deyildi [74, səh. 96]. Məqbərələrdən ideoloji istiqamətli dini məqsədlər üçün istifadə olunması sonralar, bundan əvvəl qeyd edildiyi kimi, Səfəvilər sülaləsinin hakimiyyəti dövründə meydana çıxmışdır. Bu zaman, türbənin daxili fəzalarından deyil, onun mövcud olması faktından istifadə olunurdu.

İslam dini yarandığı ilk illərdə qəbirüstü tikililərin tikintisini qadağan etdi. "Şərqdə əxlaq məcəlləsi"ndə deyilir ki, qəbir üstündə bişmiş kərpicdən və daşdan konus şəklində və yaxud digər formada tikili ucaltmaq düzgün deyil [133, səh. 45]. "Məcəllə"yə riayət edərək, belə nəticəyə gəlmək olar ki, İslam dininin qəbul edilməsinə qədər qəbirüstü tikililərin tikilməsi yolu ilə xatirənin əbədiləşdirilməsi ənənəsi mövcud olmuşdur. Qəbirüstü tikililərin inşasının qadağan olunmasına dair İslam dininin müəyyən etdiyi "məcəllə" uzun müddət qüvvədə qala bilmədi, ən erkən memorial tikili Samaradakı türbədir (IX əsr). Azərbaycanda məqbərələrin qorunub saxlanmış abidələr əsasında tikintisinə başlanması XI əsrə aid edilir.

Azərbaycanın memorial tikililərinin əksəriyyəti üçün səciyyəvi əlamət yeraltı sərdabə və yerüstü tikilinin mövcud olmasıdır. Hazırkı prinsip genetik baxımdan İslamaqədərki dövrün Oğuz tayfalarının yeraltı kamera və üzərində ucaldılan alaçıqşəkilli tikilidən ibarət olan sərdabələrinə aiddir [134, səh. 46].

Sual yaranır: göstərilən tikililərin ikihissəliliyini (yeraltı kamera və yerüstü tikilinin olması) nə ilə izah etmək olar?

Türklər tərəfindən məskunlaşan Avrasiyanın bütün ərazisi boyu dəfnetmə tikililərinə rast gəlmək mümkündür, burada qrunt dəfnləri ilə yanaşı, içərisində yastı dairəvi çəpər və qəbirüstü tikililər olan kurqanaltı çuxur abidələri də mövcuddur. Erkən orta əsrlərdə katakombada dəfn geniş yayılmışdı.

Elmdə belə bir fikir öz təsdiqini tapmışdır ki, qədim dəfnetmə tikililəri elə həmin ərazinin əhalisinin yaşayış yerini əks etdirir və təkrarlayır [73, səh. 27; 135, səh. 92]. A.N.Bernştam bu məsələni ətraflı nəzərdən keçirərək qeyd edir ki, Zərdüştilərin ossuariləri (sümüklərin basdırıldığı yer) olan "ostudan" onların yaşayış məskənini xatırladır [73, səh. 7], "köçərilərin kürəşəkilli tökməli kurqanları isə alaçığın günbəzşəkilli təpəsi ilə ahənglik təşkil edir" [73, səh. 27]. Bu prinsipdən çıxış edərək, belə hesab etmək olar ki, yeraltı sərdabə – katakombanın yayılması yaşayış məskəninin qazma və yarımqazma üslublarının mövcud olduğu dövrə aid edilir. Lakin təsərrüfatın köçəri formasına keçid ilə qeyri – stasionar yaşayış məskəni – alaçıqşəkilli tikili meydana gəlir. Katakomba dəfnetmə tikililəri bu inkişaf mərhələsində də dəfn mərasimi ənənəsinin vərəsəliyi və onun ən kiçik dəyişkənliyi səbəbindən saxlanır. Tarixin müəyyən dövründə, katakombada dəfnetmənin meydana gəlməsinin anlaşılmaması ilə yanaşı, onun məcburiliyinin insan psixikasında cəmləşdiyi vaxtda mərhum üçün əbədi axirət həyatına mistik inamla bağlı olan yaşayış yerinin yaranması zərurəti meydana çıxır. Bu yeni istiqamət əslində, çoxdan unudulmuş qədim istiqamətin təkrarıdır ki, bunun nəticəsində ölünün bir yaşayış yeri üzərində daha bir alaçıqşəkilli tikili yaradılır. Qəbirüstü alaçıqşəkilli tikililərin ucaldılması VI-IX əsrlərə aid olan, Xakasiyada aşkar edilmiş, taxta alaçıqların formasını təkrar edən, kvadrat və altıbucaqlı məqbərələrlə öz təsdiqini tapır [136, səh. 47].

İlk memorial tikililər birkameralı tikililər idi, bu, görünür, biradamlıq dəfn ilə və təqlidindən məqbərələrin yarandığı birkameralı sadə yaşayış yeri ilə izah edilir. Məqbərələrin birkameralılığı Azərbaycanın orta əsrlər memorial memarlığında da müşahidə olunur. Lakin birkameralı həcmi-fəza strukturlarla yanaşı çoxkameralılara da rast gəlinir, burada çoxkameralılıq bir neçə mənzilli bina yaratmaq cəhdi ilə deyil, çoxkameralılığın (kiçik künc otaqların olması) binanın konstruktiv strukturunun özündən doğduğu üslublu çarpaz-günbəzşəkilli tektonik sistemin tətbiqi ilə şərtlənir. Bundan çıxış edərək, qeyd etmək lazımdır ki, otaqların sayı təklif edilən tipoloji təsnifatda birkameralı və çoxkameralı strukturlar daxilində bölünməyə təsir etməməlidir, mülki memarlıq abidələrinin təsnifatında isə o, yer tuturdu.

Akademik A.V.Salamzadə Azərbaycandakı məqbərələri tədqiq edərək, aşağıdakı tipoloji qrupları ayırd edir: qüllvarı, qülləliliyi büruzə verməyən səkkizüzlü, günbəzşəkilli, qülləvarı və günbəzşəkilli (qülləvarı və günbəzşəkilli arasında). Qülləvarı məqbərələr bu təsnifatda gövdənin formasından asılı olaraq düzbucaqlı, çoxbucaqlı və silindrik növlərə bölünür; qülləvarı olması büruzə verməyən səkkizüzlü məqbərələr isə örtüyün formasından asılı olaraq piramidaşəkilli və kürəşəkilli günbəzli növlərdən ibarətdir [137; 138].

Azərbaycandakı məqbərələrin təklif olunan tipoloji təsnifatında da A.V.Salamzadənin mövcud təsnifatında olduğu kimi, həcmi-fəza həll prinsipi əsas götürülür. Planlaşdırma və

kompozisiya xüsusiyyətləri ayırd edilmiş hər dərəcə daxilində onun variantlarını müəyyən edəcək.

**Qülləli məqbərələr** memorial tikililərin XII-XIV əsrlərdə geniş yayılmış üslubudur. Abidələrin bu qrupu üçün yeraltı sərdabənin və şaquli kompozisiyalı yerüstü tikilinin olması səciyyəvidir.

Qorunub saxlanmış qülləli məqbərələrin əksəriyyəti həm Azərbaycanda, həm də yayıldığı digər areallarda Səlcuqlar dövründə tikilişdir. Qülləli məqbərələrin mənşəyi probleminə bir çox tədqiqatçılar müraciət etmişlər. Elmi ədəbiyyatda verilən müxtəlif konsepsiyaların təhlilində xüsusən, abidənin yalnız zahiri formalarının nəzərdən keçirilməsindən çıxış edən və onun vacib xüsusiyyətlərini nəzərdən qaçıran geniş yayılmış yanaşmanın ümumi çatışmazlığı göstərilir [139, səh. 103-104].

Qülləli məqbərələrin ikihissəliliyi genetik baxımdan İslamaqədərki türk dəfnetmə tikililərinə aiddir, onların formalaşması yuxarıda nəzərdən keçirilmişdir. Qülləli məqbərələrin yeraltı hissəsi katakomba tikililərindən fərqli olaraq, inkişaf etmiş memarlıq həlli qazanır. Qülləli məqbərələrin sərdabələrinin bir neçə növləri məlumdur: səkkizüzlü, yonulmuş günbəzlə örtülü (Qüzeyir oğlu Yusifin məqrəbəsi), bir mərkəzi sütuna malik sərdabə (Möminə xatun məqbərəsi, Xaraba-Gilanədəki məqbərə), çarpazşəkilli plana malik sərdabələr (Qarabağlardakı məqbərə, Bərdədəki məqbərə və s.). "Çarpazşəkilli sərdabələrin XI əsrin sonuna kimi müəyyən edilmiş planlaşdırılması əslində, günbəzşəkilli məqbərələrin planının təkrarını özündə əks etdirir" [139, səh. 105].

Qülləli məqbərələr mənşəcə ümumi genetik köklərə malikdir, hərçənd ki, onların memarlıq üsulunun formalaşmasına müxtəlif yerli memarlıq-inşaat ənənələri təsir göstərmişdir. Bu, nəticə etibarilə, onların taksonomik vahidlər: növ və növmüxtəlifliyi həddində təsnifatı zamanı müəyyən edilən müxtəlifliyində özünü göstərmişdir. Hesab etmək olar ki, silindrik və çoxbucaqlı qülləli məqbərələrin nümunəsi yaradılmasının əsasında adi çadırlar deyil, ildə iki ucaldılan və nümayiş olunan, köçəri zadəganların tikililəri dayanan köçəri tikililəridir [140, səh. 926].

Köçəri tikililəri öz formasında elementar həndəsi formaları əks etdirir. İohan Keplerin hesab etdiyi kimi, "həndəsə – dünya gözəlliyinin nümunəsidir" [141, səh. 140].

Əvvəllər mövcud olmuş bir sıra tikililər yeni memarlıq formasının yaranmasına şərait yaratmışdır. Çadırla örtülmüş tikililər mövcud memorial tikililərlə, yerli inşaat və memarlıq ənənələri ilə sintezdə qüllvarı məqbərələrin yaradılmasının əsasını təşkil etmişdir. Yerli inşaat ənənələri əsas etibarilə qüllvarı məqbərələrin gövdəsi formasında özünü göstərmiş, bununla da onların müxtəlif variantlarını yaratmışdır. Qüllvarı məqbərələr gövdənin formasından asılı olaraq aşağıdakı növlərə ayrılır:

— çoxbucaqlı gövdə formaya malik məqbərələr – səkkizbucaqlı Qüzeyir oğlu Yusifin məqbərəsi (XIII əsr); onbucaqlı Möminə xatun məqbərəsi (XII əsr), onikibucaqlı Xaçın Dorbatlı kəndindəki məqbərə (XIV əsr);
— gövdənin silindrik forması ilə məqbərələr – Bərdədəki məqbərə (1327-ci il), Aşağı Veysəlli kəndindəki Mirəli məqbərəsi, Cəbrayıl rayonunun Dağtumas kəndindəki məqbərə və s.;
— büzməli gövdə forması ilə məqbərələr – Qarabağlardakı məqbərə (XIV əsr);
— ikiyaruslu xarici korpusu olan məqbərələr [18, səh. 9] – Cuqa kəndindəki məqbərə (C.Qiyasinin növü kimi ayırd edilir);
— kubşəkilli gövdə forması ilə məqbərələr – Marağadakı Qundabə-Surx (1148-ci il) və Qundabə-Qaffariyyə (1319-cu il) məqbərələri.

Qundabə-Surx və Qundabə-Qaffariyyə məqbərələrinin kubşəkilli gövdə formasına malik olmalarına baxmayaraq, biz onları qülləvarı məqbərələrə aid edirik, belə ki, bu qrupdan olan məqbərələrin bütün xüsusiyyətləri onlara xasdır. Hətta bu məqbərələr kubşəkilli forma ilə "tərənnüm" olunsa belə, qülləvarı məqbərə ənənəsi o qədər güclü olmuşdur ki, kubşəkilli və qülləvarı məqbərələrin sintezindən kubşəkilli gövdə formasına malik olan qülləvarı məqbərə meydana gəlmişdir.

**Günbəzşəkilli məqbərələr.** Bu səciyyəvi qrupun əsas əlaməti onun tektonik sistemidir ki, onun vasitəsilə həcmi-fəza struktur "kvadrat üzərində günbəz" ideyası ilə ifadə olunur.

E.Ditsin fikrincə, günbəzşəkilli məqbərələrin mənşəyini Qərbi Asiyanın xristian memorial tikililərində, atəş məbədlərində və Şərqi İranın memorial abidələrində axtarmaq lazımdır [140, səh. 923]. B.A.Litvinski hesab edir ki, mərkəzi kvadrat planlı sxem dünyanın şərh olunaraq Orta Asiya mərkəzi günbəzşəkilli məqbərələrində inkişaf edən dörd üzvlü sistemi haqqında Hind-İran təsəvvürlərinin təcəssümüdür [142, səh. 67-68]. Zənn edirik ki, məqbərələrin nəzərdən keçirilən üslubu yerli köklərə malikdir, belə ki, "kvadrat üzərində günbəz" ideyası müxtəlif xalqlarda və müxtəlif vaxtlarda meydana gələ bilərdi, bu, təkamül və formalaşmanın obyektiv qanunudur.

Günbəzşəkilli məqbərələri öz həcmi-fəza həllindən asılı olaraq aşağıdakı növlərə ayırmaq olar.

**Yuxarı qalereyaya malik günbəzşəkilli məqbərə.** Bu qrup Olcaytu Sultaniyyə məqbərəsi ilə təmsil olunur. Bu məqbərənin mənşəyi Buxarada Səmənidlərin və Mərvdə Sultan Səncərin məqbərələrindən törəyir. Yuxarı dövrəli qalereyaya Orta Asiyanın məqbərələrində rast gəlinir və ardıcıl olaraq onlarda öz inkişafını tapır. Orta Asiyanın memorial abidələrində dövrəli qalereyanın mənşəyi, onun təşəkkülünün başlanğıcı və təkamülü M.S.Bulatova tərəfindən ətraflı nəzərdən keçirilmişdir [143]. Yuxarı qalereya Olcaytu məqbərəsində inkişafın və kamilliyin yüksək mərhələsini qazanır.

**Xaç və günbəzşəkilli tektonik struktura malik məqbərələr** – Qusar rayonundakı Şeyx Cüneyd (1544-cü il), Balaxanı kəndindəki Şakir ağa (1427-1428-ci illər) məqbərələri, Şirvanşahlar sarayının sərdabəsi (1436-cı il) ilə səciyyələnir.

**Qülləvarı və günbəzşəkilli məqbərə üslubu** öz həcmi-fəza həllində günbəzşəkilli və qülləvarı məqbərələrin xüsusiyyətlərinin birləşməsini əks etdirir. Məqbərə həcm baxımından iki hissənin birləşməsindən ibarətdir: aşağı kubşəkilli həcm (günbəzşəkilli türbələrin əsas həcminə oxşar) və çadır və ya günbəzşəkilli tamamlama ilə qülləyə bənzər təbildən ibarət olan yuxarı həcm. Məqbərələrin bu üslublu qrupu aşağıdakı abidələrlə səciyyələnir: Şamaxı rayonunun Göylər kəndindəki Pir-Mərdəkan məqbərəsi (XII əsr), Əlincə çayı üzərindəki Xanəgahlar kəndindəki məqbərə (XIII əsr), Qəzvindəki Həmdullah Mustafa (XIV əsr) və İmamzadə Abdullah məqbərələri.

**Qüllələliliyi nəzərəçarpacaq dərəcədə vurğulanmamış məqbərələr** orta sosial mənşəli şəxslərin xatirəsinə qəbirlər üzərində inşa edilirdi, bu səbəbdən də onlar öz ölçülərinə görə kiçik olurdu. Məqbərələrin nəzərdən keçirilən üslubu öz strukturunda monumental məqbərələrə xas olan xüsusiyyətlərdən ibarətdir. Qüllələliliyi nəzərəçarpacaq dərəcədə vurğulanmamış məqbərələri aşağıdakı üslublara bölmək olar.

**Yeraltı kamerası olan çoxbucaqlı məqbərələr.** Örtüyün səciyyəsindən asılı olaraq günbəzlə örtülmüş düzbucaqlı məqbərələr ayırd edilir (Şeyx Baba məqbərəsi, 1271-ci il; Füzuli rayonunun Əhmədadılar kəndindəki məqbərə, XIII-XIV əsrlər; çadır konstruksiyası ilə örtülmüş Seyid Yəhya Bakuvi məqbərəsi, XV əsr).

**Yeraltı kamerası olmayan çoxbucaqlı məqbərələr.** Məqbərələrin bu növü Azərbaycanda geniş yayılmışdır və yerli üslub hesab olunurdu.

Bu qrupda növmüxtəlifliyi korpusun tərəflərinin sayından asılı olaraq müəyyən edilir. Düzbucaqlılar arasında plan həllinin səciyyəsinə əsasən aşağıdakılara ayırd edilir: eksteryerdə düzbucaqlı və daxili şəkilli kvadrat (Quba rayonunun Ağbil kəndindəki məqbərə, 1537-ci il); eksteryerdə düzbucaqlı və interyerdə silindrik (Cəbrayıl rayonunun Xudayarlı kəndindəki məqbərə, XVII əsr); piramidaşəkilli (Laçın rayonunun Zeyvə kəndindəki məqbərə).

**Kubşəkilli məqbərələr** kubşəkilli həcmi təşkil edən korpusdan ibarətdir ki, bu da onların əsas səciyyəsidir. Bu qrupda aşağıdakı müxtəlif növlər mövcuddur: eyvanlı məqbərələr – Balaxanı kəndindəki Hacı Şəhla məqbərəsi (1385-ci il), Quba rayonunun Ağbil kəndindəki məqbərə (XVI əsr) və çadır örtüklü məqbərə – Şağan kəndindəki Pir Qubad məqbərəsi (XIII əsr).

**Günbəzşəkilli məqbərələr.** Bu üslubda da fərqlilik eyvanın olması ilə müəyyən edilir: Mərdəkandakı Pir Həsən (1612-ci il) və Şağan kəndindəki məqbərə (XVII əsr).

Azərbaycanda orta əsrlərə aid memorial memarlıq abidələrinin nəzərdən keçirilən tipoloji təsnifatını aşağıdakı sistem şəklində təsvir etmək olar (cədvəl 5-ə bax).

Memorial memarlığa dair materiala yekun vuraraq aşağıdakıları qeyd etmək olar.

Azərbaycanda çadır örtüklü (konusşəkilli və piramidaşəkilli) məqbərələrin tikintisi daha çox inkişaf etmişdir.

